Xalqın qəzeti!

# Xalq qəzeti

№ 64 (31033) 16 aprel 2026-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Cənubi Qafqazda sülh prosesi davam edir

**Biz Ermənistana müxtəlif istiqamətlərdən malların daşınmasına qoyulmuş bütün məhdudiyyətləri aradan qaldırdıq. Hətta Ermənistanla ticarəti bərpa etmişik. Ermənistan üçün həyati əhəmiyyət kəsb edən neft məhsullarının ixracına başlanılması Azərbaycanın uzunmüddətli yox, əbədi sülhə sadiq olduğunu nümayiş etdirir. Bu, bizim strategiyamız və siyasətimizdir və bir daha onu nümayiş etdirir ki, Azərbaycan sülhsevər ölkədir.**

***İlham ƏLİYEV,***
*Azərbaycan Respublikasının Prezidenti*



Səhifə ⇨ 3

## Milli energetikanın "aprel" sınağı




Səhifə ⇨ 7

## Avropa sağçılarının populizm "güzgüsü" niyə çat verir?




Səhifə ⇨ 6

## Vaşinqtondan Tehrana sülh şərtləri



Səhifə ⇨ 11

## Yeraltı cəbhədə savaş davam edir




**İkinci Qarabağ müharibəsinin başa çatmasından 5 il 5 aydan çox vaxt keçməsinə baxmayaraq, mina və partlamamış hərbi sursatlar təhlükəsi postmünaqişə dövrünün ən ağır miraslarından biri olaraq işğaldan azad edilmiş ərazilərdə insanların həyatını və təhlükəsizliyini ciddi şəkildə təhdid etməkdədir. Məhz bu problem bölgədə aparılan tikinti, bərpa və quruculuq işlərinə də ən böyük manelərdən biridir. Hər addımda gizlənən ölüm təhlükəsi, sözün əsl mənasında, humanitar böhrana çevrilib.**

Aprelin 14-də bu istiqamətdə növbəti faciəvi hadisə yaşandı. Həmin gün işğaldan azad edilmiş Füzuli rayonu Aşağı Əbdürrəhmanlı kəndi ərazisində mina hadisəsi baş verdi. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyindən (ANAMA) verilən məlumata görə, agentliyin əməkdaşı, 1995-ci il təvəllüdlü Mətili Muğan Rəfayıl oğlu xidməti vəzifəsini yerinə yetirərkən tank əleyhinə mina partlayışının baş verməsi nəticəsində həyatını itirdi.

*(ardı 5-ci səhifədə)*




Səhifə ⇨ 8

## Azərbaycan Somalinin suveren mövqeyini müdafiə edir



Səhifə ⇨ 3

## Ermənistan üçün təhlükəsizlik



Səhifə ⇨ 4

## Seçim Parisin, qərar isə Bakınındır...

*Fransa vətəndaşı Martin Rayanın əfvi Azərbaycanın daxili məsələsidir*



**Fransa ilə əlaqələrin gələcək taleyi rəsmi Parisin atacağı konstruktiv addımlardan daha çox Azərbaycanın milli maraqlarına söykənən prinsipial siyasətindən asılı olacaq. Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən 2023-cü ilin dekabrında casusluq fəaliyyətində ittiham olunaraq saxlanılan və ötən ay 10 il müddətinə azadlıqdan məhrum edilən "Merkorama" MMC-nin baş direktoru Martin Rayanın işi hazırda Bakı ilə Paris arasında əsas müzakirə mövzularından biridir. Qeyri-rəsmi mənbələrin məlumatına görə, rəsmi Paris münasibətlərdəki uzunmüddətli gərginliyə rəğmən öz vətəndaşının taleyini həll etmək məqsədilə Bakı ilə birbaşa və intensiv təmaslara başlayıb. Bu danışıqların diqqət mərkəzində Rayanın cəzasının azaldılması və ya onun əfv edilərək Fransaya ekstradisiyası məsələsi dayanır.**

*(ardı 5-ci səhifədə)*

## TDT və yeni çağırışlar



Səhifə ⇨ 6

## Paytaxtdaxili hərəkət yenidən tənzimlənir



Səhifə ⇨ 8

## Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763, № 9, maddə 820, № 10, maddə 898, № 11, maddələr 1018, 1036; 2026, № 1, maddə 36; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 23 fevral tarixli 604 nömrəli və 16 mart tarixli 622 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 68-ci hissədə "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi adından – Komitənin sədri, onun müavinləri, Aparatın rəhbəri, şöbə müdiri, onun müavini, Komitənin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəisi, onun müavinləri, şöbə müdiri, onun müavini" sözləri "Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – Xidmətin rəisi, onun müavinləri, Aparatın rəhbəri, onun müavini, şöbə müdiri, onun müavini, Xidmətin tabeliyində "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" publik hüquqi şəxsin İdarə Heyətinin sədri və onun müavinləri, departament rəhbərləri və onların müavinləri, ərazi idarələrinin rəisləri və onların müavinləri" sözləri ilə əvəz edilsin;

**2.** 69-cu hissədə "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi adından – Komitənin sədri, onun müavinləri, Aparatın rəhbəri" sözləri "Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi adından – Xidmətin rəisi, onun müavinləri, Aparatın rəhbəri, onun müavini" sözləri ilə, "Komitənin ərazi bölmələrinin" sözləri "Xidmətin ərazi şöbələrinin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 15 aprel 2026-cı il**

## Rusiya AZAL-ın qəzaya uğrayan təyyarəsi ilə bağlı razılığa gəlib



Azərbaycan və Rusiya prezidentlərinin Düşənbə şəhərində 2025-ci il oktyabrın 9-da keçirilən görüşü zamanı əldə olunmuş anlaşmaya uyğun olaraq, tərəflər 2024-cü il dekabrın 25-də Rusiyanın hava məkanında hava hücumundan müdafiə sisteminin qeyri-ixtiyari fəaliyyəti nəticəsində "Azərbaycan Hava Yolları"na (AZAL) məxsus "Embraer 190" tipli təyyarənin Aktau şəhəri yaxınlığında qəzaya uğraması ilə əlaqədar kompensasiyanın ödənilməsi də daxil olmaqla, qəzadan irəli gələn məsələlərin müvafiq şəkildə həlli barədə razılığa gəliblər.

Bu sözlər Azərbaycanın və Rusiyanın Xarici İşlər nazirliklərinin birgə bəyanatında əksini tapıb.

Bəyanatda, daha sonra bildirilib: "Atılan addımlar müttəfiqlik qarşılıqlı fəaliyyəti çərçivəsində faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tərəflərin ortaq səylərini nümayiş etdirir.

Əminik ki, Azərbaycan-Rusiya münasibətlərinin qarşılıqlı hörmət, etimad və tərəflərin maraqlarının nəzərə alınması əsasında davamlı inkişafı bundan sonra da mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə və iki ölkənin xalqlarının mənafeyi naminə əməkdaşlığın genişlənməsinə töhfə verəcək.

Təyyarə qəzası nəticəsində həyatını itirmiş şəxslərin ailələrinə və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verir və faciədən zərər çəkmiş hər kəslə bu əvəzolunmaz itkinin ağrı-acısını bölüşürük".

***XQ***

## Rusiya və Azərbaycan dostluq formatına qayıdıb

**"Rusiya və Azərbaycanın Xarici İşlər nazirliklərinin birgə bəyanatı iki ölkə arasında siyasi münasibətlərin tam normallaşdığını göstərir". "Natsionalnaya oborona" jurnalının baş redaktoru, hərbi analitik İqor Korotçenko "Vestnik Kavkaza"ya bu açıqlamasının davamında deyib:**



– Əldə edilmiş razılaşmalar əvvəllər ikitərəfli münasibətlərə kölgə salan bütün məsələlərin tənzimləndiyini göstərir. Bu prosesdə prezidentlər Vladimir Putin və İlham Əliyevin siyasi iradələri əsas rol oynayıb. Bunun sayəsində bütün əsas problemli məsələlər həll edilib, qalan məsələlər isə yaxın vaxtlarda tənzimlənə bilər.

Bilirdik ki, iki ölkə arasında münasibətləri pozmağa çalışanlar, yaranmış vəziyyətdən sui-istifadə etməyə cəhd göstərənlər və Rusiya ilə Azərbaycanın maraqlarına uyğun olmayan məqsədlərlə hərəkət edənlər çox idi. Onların cəhdləri uğursuz oldu. Bu gün əminik ki, problemli məqamlar keçmişdə qalıb və biz ölkələrimiz arasında münasibətlərdə həmişə mövcud olmuş dostluq formatına qayıtmışıq.

***XQ***

# Ölkəmizdə "ağ ölüm"ə ölüm!

## *Dövlət Komissiyası İşçi Qrupunun açıqlaması*

**Cari ilin yanvar-mart ayları ərzində narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən müqayisəli şəkildə təhlil edilərək ümumiləşdirilib. Bu barədə İşçi Qrupundan məlumat verilib.**

Bildirilib ki, qeyd olunan müddətdə hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 2443 cinayət faktı aşkarlanıb. Onlardan 549-u narkotik vasitələrin qanunsuz satışı, 1889-u narkotik vasitələrin qanunsuz əldə edilib-saxlanılması, 4-ü narkotik tərkibli bitkilərin qanunsuz əkilib-becərilməsi, 1-i bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 2 ton 896 kiloqram 808,712 qram və 17 ədəd həb narkotik vasitələrin və psixotrop maddələrin 2 ton 477 kiloqram 653,24 qramını marixuana, 171 kiloqram 664,846 qramını heroin, 57 kiloqram 520,39 qramını tiryək, 160 kiloqram 241,04 qramını həşiş, 6 kiloqram 536,7 qramını digər narkotik vasitələr və 23 kiloqram 192,496 qramını psixotrop maddələr təşkil edib. Bunlarla yanaşı, 15 ədəd çətənə bitkisi və 17 həb psixotrop maddə aşkar edilərək götürülüb.

Qanunsuz dövriyyədən çıxarılmış 2 ton 896 kiloqram 808,712 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 75 milyon 978 min manat kimi qiymətləndirilir. Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 1044 nəfər cəlb edilib, onlardan 13-ü xarici ölkə vətəndaşıdır. Məsuliyyətə cəlb edilmiş 13 xarici ölkə vətəndaşından ümumilikdə 112 kiloqram 789,853 qram və 17 ədəd müxtəlif növ narkotik vasitələr götürülüb.

Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 44 fakt aşkar edilib, həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 759 kiloqram 474,815 qram narkotik vasitə çıxarılıb.

Ümumilikdə aşkarlanmış cinayətlərin 54-ü qrup halında törədilib və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 625 kiloqram 285,9 qram narkotik vasitə və psixotrop maddə və 1,2 qram güclü təsir edən maddə müsadirə edilib. 500 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilib və onlardan 454 kiloqram 500,9 qram müxtəlif növ narkotik vasitə müsadirə edilib.

Təhlil göstərir ki, 2025-ci ilin yanvar-mart ayı ilə müqayisədə cari ilin müvafiq dövrü ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən aşkarlanan faktların ümumi sayı 118, satış məqsədi olmadan qanunsuz əldə edilib-saxlanılması ilə əlaqədar faktların sayı 251 fakt, qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisi 691 kiloqram 798,93 qram artıb.

Ötən ilin yanvar-mart ayı ilə müqayisədə cari ilin müvafiq dövrü ərzində qanunsuz dövriyyədən çıxarılmış digər narkotik vasitələrin çəkisi 14 kiloqram 565,067 qram (69 faiz), psixotrop maddələrin çəkisi 32 kiloqram 894,117 qram (58,7 faiz) azalıb.

Müsadirə edilmiş müxtəlif növ narkotik vasitələrin 2 ton 477 kiloqram 653,24 qramını (85,5 faiz) marixuana təşkil edib. Onun da 1 ton 949 kiloqram 312,6 qramı (78,6 faizi) tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş xarici ölkə mənşəli olub, 528 kiloqram 340,64 qramı (21,3 faiz) isə iqlim şəraitinə uyğun olaraq ölkə ərazisində istixanalarda, zirzəmilərdə, meşə ovalıqlarında və çay yataqlarında qanunsuz kultivasiya edilmiş narkotik vasitələrdir.

Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə 2026-cı il yanvarın 30-da qanunsuz dövriyyədən çıxarılmış və ya müsadirə olunmuş külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə komissiya tərəfindən 25 məhkəmə və istintaq qərarları əsasında barəsində məhvetmə qərarı qəbul edilmiş 858 kiloqram 620,899 qram, 22139 ədəd həb, 1056 ampul narkotik vasitə, psixotrop maddə və 4745 ədəd həb, 240 paket güclü təsir maddələr yandırma üsulu ilə məhv edilib.

Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 21 min 944 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 1527 nəfərdən 736-nın istifadəçi olması müəyyən edilib və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin olunub.

Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə (Respublika Narkoloji Mərkəzində 276, QİÇS-lə Mübarizə Mərkəzində 297, Sumqayıt Narkoloji Mərkəzində 125 nəfər) 698 xəstə müalicə alır.

Respublika QİÇS-lə Mübarizə Mərkəzinin verdiyi məlumata əsasən, ölkədə narkomanların İnsanın İmmunçatışmazlığı Virusuna yeni yoluxma hadisələrinin sayında azalma müşahidə olunur. 2026-cı il mart ayının sonuna kimi aşkarlanmış İİV-ə yoluxmuş Azərbaycan vətəndaşları arasında 15 (4,2 faizi) nəfəri inyeksion narkotik istifadəçisi olub.

Cari ilin yanvar-mart ayları ərzində "802" qaynar xətt telefon zəng xidmətinə 183 vətəndaş müraciəti daxil olub ki, onların 16-ı narkotik vasitələrin qanunsuz dövriyyəsi, 16-sı narkotik asılılıqdan müalicə, 151-i isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olub. Qeyd edilən müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 32 məktub ünvanlanıb.

Cari ilin yanvar-mart ayları ərzində Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə aidiyyəti dövlət qurumlarını cəlb etməklə ümumilikdə 39 tədbir (24 maarifləndirici və təşkilati tədbir, 15 maarifləndirici sosial aksiya) təşkil olunub.

***XQ***

## Kahramanmaraşda bədbəxt hadisə

**Türkiyənin Kahramanmaraş şəhərində bir məktəbə silahlı hücum olub.**

Kahramanmaraşdakı Ayser Çalık orta məktəbinə edilən hücum nəticəsində 9 nəfər ölüb, 13 nəfər yaralanıb. Altı nəfərin vəziyyəti ağırdır.

Türkiyənin daxili işlər naziri Mustafa Çiftçi Kahramanmaraşdakı vəziyyətlə bağlı son məlumatları paylaşıb. O bildirib ki, ölənlərdən 8-i şagird, 1 nəfər isə müəllimdir.

Hücumu iki sinif otağında atəş açan səkkizinci sinif şagirdi İsa Aras Mersinli törədib. O, intihar edib.

***XQ***




## Milli Məclisin Sədri İstanbulda Qoşulmama Hərəkatı Konfransında




**COP29-dan sonra daha bir qlobal tədbirə - Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasına ev sahibliyi etmək Azərbaycanın ümumi çağırışlar qarşısında birgə səyləri birləşdirmək bacarığına göstərilən etimadın növbəti təzahürüdür.**

Bu barədə Milli Məclisin Sədri Sahibə Qafarova İstanbulda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin 5-ci Konfransında çıxışı zamanı bildirib.

Qeyd olunub ki, cari ilin may ayında Bakıda keçiriləcək sessiya "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunacaq. Bu forum sürətli urbanizasiya ilə bağlı problemlərin həlli və bunun şəhərlərə, milli iqtisadiyyatlara və iqlim dəyişikliyinə təsirinin qiymətləndirilməsi məqsədilə yaradılmış yüksəksəviyyəli beynəlxalq platformadır.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan əvvəllər işğal altında olan və tamamilə dağıdılan Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı tikinti və bərpa layihələri həyata keçirir. Həmin ərazilərdə yeni yaşayış məntəqələri, nəqliyyat, enerji və iqtisadi infrastruktur qabaqcıl şəhərsalma prinsipləri əsasında qurulur və burada "yaşıl enerji zonası", "ağıllı şəhər" və "sıfır tullantı" kimi innovativ konsepsiyalar tətbiq olunur.

Bildirib ki, Ümumdünya Şəhərsalma Forumunun13-cü Sessiyası Yeni Şəhər Gündəliyinin icrasının aralıq qiymətləndirilməsi olacaq. Spiker bütün üzvləri Forumun gündəliyində fəal iştirak etməyə səsləyib.

***XQ***

## XİN məlumat verir



**Aprelin 15-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov İsveçrə Konfederasiyasının dövlət katibinin müavini, Federal Xarici İşlər Departamentinin Avrasiya şöbəsinin rəhbəri Pier-İv Fuksla görüşüb.**

Görüş zamanı Azərbaycan ilə İsveçrə arasında ikitərəfli münasibətlərin cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər siyasi dialoqun, iqtisadi-ticarət əlaqələrinin, enerji, nəqliyyat və digər qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlıq məsələlərini, beynəlxalq təşkilatlar və platformalar çərçivəsində aparılan işləri, İsveçrənin ATƏT-in fəaliyyətdə olan sədrliyi üzrə planları nəzərdən keçiriblər.

Bununla yanaşı, regional və beynəlxalq təhlükəsizlik məsələləri, o cümlədən postmünaqişə dövründə regionda mövcud vəziyyət, Azərbaycanın irəlilətdiyi sülh gündəliyi, həyata keçirdiyi bərpa və quruculuq işləri, eləcə də minasızlaşdırma fəaliyyəti müzakirə olunub.

Eyni gündə, Azərbaycan və İsveçrə Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib. Məsləhətləşmələrə Azərbaycan tərəfdən nazir müavini Fariz Rzayev, İsveçrə tərəfindən isə dövlət katibinin müavini Pier-İv Fuks rəhbərlik edib.

***

**Həmin gün Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Rumıniyanın xarici işlər naziri Oana-Silvia Toiu arasında telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, telefon danışığı zamanı tərəflər Azərbaycan ilə Rumıniya arasında ikitərəfli və çoxtərəfli münasibətlərin cari vəziyyəti və inkişaf perspektivlərini müzakirə ediblər.

Danışıq zamanı geniş kontekstdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin mövcud vəziyyəti və perspektivləri də nəzərdən keçirilib. Tərəflər bu istiqamətdə dialoq və əməkdaşlığın davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***




**Aprelin 15-də xarici işlər nazirinin müavini Elnur Məmmədov ABŞ Dövlət Departamentinin İqtisadi, Enerji və Biznes Məsələləri Bürosunun baş müşaviri Rebekka Neff və Ticarət və İnkişaf Agentliyinin nümayəndələri ilə görüşüb.**

Görüş zamanı iki ölkə arasında Strateji Tərəfdaşlıq Xartiyasının icrasından irəli gələn məsələlər, o cümlədən enerji və ticarət məsələləri, regional bağlantılar və iqtisadi sərmayə sahələrində əməkdaşlıq müzakirə edilib. Tərəflər arasında nəqliyyat, rəqəmsallaşma, süni intellekt və sair potensial layihələr, bu istiqamətdə görülən işlər və özəl sektor nümayəndələrinin iştirakı ilə bağlı fikir mübadiləsi aparılıb.



Bu çərçivədə enerji, nəqliyyat və kommunikasiya sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycanın iştirakı ilə həyata keçirilən strateji layihələrin əhəmiyyəti vurğulanıb.

Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərə toxunaraq, əməkdaşlığın möhkəmləndirilməsinin, təhlükəsizliyin və sabitliyin əhəmiyyətini qeyd ediblər.

Görüş zamanı Azərbaycanın regionun enerji təhlükəsizliyində mühüm rolu, Orta Dəhlizdə ticarət marşrutlarının şaxələndirilməsi, habelə Azərbaycanda mövcud əlverişli biznes və investisiya mühiti və yeni əlaqələrin qurulması imkanları nəzərdən keçirilib.

***XQ***

# Azərbaycan Somalinin suveren mövqeyini müdafiə edir

## *Yeni dövrün xarici siyasəti sivil dəyərlərə və qarşılıqlı dəstəyə əsaslanır*

**Azərbaycanın xarici siyasət modeli müasir qlobal çağırışlara adekvat reaksiya verərək beynəlxalq münasibətlər sistemində fərqli təsir dairələri formalaşdırır. Beynəlxalq siyasi arenada baş verən sistemli ideoloji bölünmə dövlətləri alternativ ittifaqlar qurmağa məcbur edir. Qeyd olunan qlobal transformasiya fonunda rəsmi Bakı çoxşaxəli diplomatik strategiya nümayiş etdirərək Somali Federativ Respublikası ilə əlaqələrin intensivləşdirilməsini hədəfləyir.**



Qlobal Cənub konseptinin mütləq aktuallaşdığı indiki zamanda Cənubi Qafqazın lider dövlətinin Şərqi Afrika regionunun vacib idarəetmə mərkəzi sayılan Somali ilə siyasi təmasları, sadəcə, ikitərəfli əməkdaşlıq predmeti sayılmır, həmçinin mürəkkəb siyasi gedişlərin tərkib hissəsi kimi qiymətləndirilir. Dövlətimizin başçısı yüksək humanitar dəyərlərə söykənən diplomatik kurs icra edərək beynəlxalq qurumlarda ərazi bütövlüyü, suverenlik, müstəqillik kimi mühüm qaydaların mütləq toxunulmazlığını təbliğ edir. İki dövlət arasında diplomatik əlaqələrin rəsmən qurulduğu tarix 2004-cü il mart ayının 22-nə təsadüf edir. Ötən dövr ərzində rəsmi əlaqələr mütəmadi inkişaf dinamikası nümayiş etdirmiş, BMT mexanizmləri, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı kimi qlobal tribunalarda səmərəli koordinasiya vasitələri yaranıb. Rəsmi Moqadişu respublikamızın həssas siyasi məsələlərində, xüsusən ərazi bütövlüyünün tam təmin olunması prosesində daim beynəlxalq hüququn aliliyini irəli sürərək qəti mövqe sərgiləyib. Azərbaycan beynəlxalq arenalarda qarşılaşdığı müxtəlif xarici təzyiqləri neytrallaşdırmaq məqsədilə daim etibarlı tərəfdaşların təmənnasız səsinə ehtiyac duymuş, belə anlarda Somali rəhbərliyi tərəddüd etmədən ədalətə tərəfdar çıxıb. Əlbəttə, dövlətlərarası münasibətlərin institusional davamlılığı təkcə xoşməramlı və sadə bəyanatlarla bitmir. Tərəflər qlobal idarəetmə böhranı şəraitində oxşar siyasi təhdidlərlə həmrəy formada mübarizə aparmaq məcburiyyətindədirlər.

Azərbaycanın xarici siyasət masasında humanitar yardım, zəif ölkələrin problemlərinin qlobal səviyyədə ucadan səsləndirilməsi başlıca istiqamətlər siyahısındadır. Ölkəmiz 2019-cu ildən 2023-cü ilə qədər olan dövrdə Qoşulmama Hərəkatına sədrlik edərkən Afrikanın üzləşdiyi siyasi dalanları daim dünya ictimaiyyətinin diqqət mərkəzində saxladı. Pandemiya şəraitində inkişaf etmiş Qərb ölkələri eqoist mövqe yürüdərək bütün tibbi ehtiyatları monopoliyaya alarkən rəsmi Bakı ədalətli nizam tələbi ilə çıxış etdi, beynəlxalq institutları konkret məsuliyyətə çağırdı. Qitə dövlətlərinin, xüsusən Somalinin mənəvi hüquqlarının tapdalanmasına sərt etiraz sədası olaraq dövlətimiz xüsusi fondlar irəli sürərək vacib humanitar yardımlar təşkil etdi. Qoşulmama Hərəkatına sədrlik bəhs edilən dövr ərzində respublikamız bilavasitə hegemon dairələrin apardığı asimmetrik fəaliyyətə qarşı sarsılmaz müqavimət mərkəzinə çevrildi. Eyni zamanda, mənəvi sərmayə qismində təhsil sferasında qurulan mütəmadi təmaslar mühüm mədəni təsir vasitəsi rolunu oynayır. Somalidən gələn afrikalı gənclərin respublikamızın ali təhsil ocaqlarında dövlət qrantı əsasında təhsil alması ölkələrarası zəncirin onilliklər boyu proqnozlaşdırılan strateji kadr bazasını yetişdirir.

***

Münasibətlərin ən ali mərhələsi kimi 2025-ci il fevralın 12-də Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmudun Azərbaycana rəsmi səfəri qeyd olunmalıdır. Mötəbər tədbir çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev qonaqla təkbətək danışıqlar keçirərək beynəlxalq təhlükəsizlik arxitekturasının kəskin transformasiyası barədə son dərəcə məzmunlu dialoqlar apardı. Dövlətimizin başçısı mətbuata bəyanatında ali hədəfləri konkretləşdirərək xüsusi olaraq vurğulamışdı: “Əminəm ki, səfər ölkələrimiz arasında sıx dostluq münasibətlərində yeni səhifə açacaq: Əminəm ki, hazırda Bakıda imzalanmış bütün razılaşmalar həyata keçiriləcək və münasibətlərimizi daha yüksək səviyyəyə qaldıracaq”. Dövlət başçılarının imzaladığı sənədlər paketi müstəqil yolla hərəkət edən ölkələrin qlobal təzyiqə qətiyyən boyun əyməyəcəyinin bəyannaməsi oldu. Hasan Şeyx Mahmud mətbuata bəyanatında deyib: “Bütün əməkdaşlıq sahələri hər iki ölkə üçün çox faydalıdır. Somali Azərbaycanın qazandığı təcrübəni öyrənməyə hazırdır”.

İkitərəfli münasibətlərin dinamikası bu il aprelin 14-də siyasi gedişatın növbəti nizamlı pilləsi ilə davam etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Somali Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Abdinur Dahir Fidounu rəsmi nümayəndə qismində qəbul etdi. Diplomatik şəxs yüksək etimadnaməsini dövlət rəhbərinə təqdim edərək fəaliyyət mərhələsinə keçid aldı. Görüş əsnasında Somali prezidentinin rəsmi salamları, xoş niyyətləri dövlətimizin başçısına tam çatdırıldı və qarşılıqlı münasibətlərin zədələnməz ruhu təkrar nümayiş etdirildi. Prezident İlham Əliyev tərəflər arasında imzalanmış bütün tarixi sazişlərin kağız parçasında qalmayacağını, tezliklə tam həcmdə işlək proseslərə çevriləcəyini vurğuladı. Rəsmi iqamətgahda keçirilən sammit qarşıdakı mərhələlərdə beynəlxalq qurumlarda əlaqələrin intensivliyinin idarə edilməsi üçün cızılan hərəkət proqramıdır.

***

BMT Baş Assambleyası daxilində hegemon güclərin inhisarçı qərarlarına rəğmən səs çoxluğunun tamamilə ədalətli paylanması müstəqil qrupların qurduğu möhkəm daxili həmrəyliklə tənzimlənir. Rəsmi Bakı və Moqadişu arasında bərqərar olan işgüzar təmaslar beynəlxalq təşkilatlarda qarşılıqlı diplomatik sığorta sistemini hərəkətə gətirir. Dünyanın böyük nəhəngləri tərəfindən tətbiq edilən istənilən təzyiq ehtimalları zamanı İslam Əməkdaşlıq Təşkilatı daxilində nümayiş etdirilən dayanıqlı mövqelər bütün imperialist oyunları pozmağa qadirdir. Asılılıqlardan və ədalətsiz diktaturalardan bezmiş Afrika ölkələri tam qurtuluş yolunu respublikamız kimi güclü xarakterli, daxili iradəsi sarsılmaz dövlətlərin dəqiq formulu üzrə irəliləməkdə tapırlar. Diplomatik sərhədlərin genişlənməsi yalnız səmimi məqsədlərə hesablana bilməz, məsələ konkret olaraq hərbi, elmi, logistik divarların hörməklə yaradılması sənətidir.

Gələcək onilliklərin yeni mərhələsi məhz bugünkü analitik görüşlərin, yazılmış çoxşaxəli razılaşmaların mətni üzərində parlayacaq. Afrika qitəsi artıq dünya siyasətini yönləndirən ciddi cəbhə kimi formalaşmağa çoxdan başlayıb. Həmin çətin inkişaf yollarında Azərbaycan diplomatiyasının məşəl kimi qabaqda getməsi milli strategiyamızın qüsursuz işlədiyinə sübutdur. Tərəflər bərabərhüquqlu mövqedən yanaşaraq uzunmüddətli davamiyyətə zəmanət verən mühüm bəyannamələr hasil ediblər. Hökumət rəhbərliklərinin mübadilə etdiyi kadrlar, tələbələr, müdafiə sənayesi innovasiyaları və şəffaf xidmət infrastrukturları gələcəkdə qlobal dalğaların dəf edilməsində əyilməz sipər rolunu uğurla icra edəcəklər. Bütün müşahidələr qətiyyətin, həmrəyliyin və fasiləsiz zəhmətin siyasi olimpə yüksələcəyini ifadə edir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Cənubi Qafqazda sülh prosesi davam edir




**Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin xarici siyasət davranışı, çoxvektorlu diplomatiya, iqtisadi inteqrasiya təşəbbüsləri və strateji çeviklik təhlükəsizlik arxitekturasının əsas sütunlarına çevrilib. Məhz bu kontekstdə Azərbaycanın həyata keçirdiyi xarici siyasət kursu regionda risklərin idarə olunmasına və yeni əməkdaşlıq mühitinin formalaşdırılmasına xidmət edir.**

Cənubi Qafqaz uzun müddət “dondurulmuş münaqişələr zonası” kimi təqdim olunurdu və bu yanaşma regionun həm təhlükəsizlik arxitekturasını, həm də siyasi davranış modellərini müəyyənləşdirirdi. Belə münaqişələrdə formal olaraq aktiv hərbi əməliyyatlar dayanmış kimi görünsə də, faktiki olaraq, münaqişə potensialı qorunur, tərəflər arasında etimad formalaşmır və region xarici güclərin rəqabət məkanına çevrilirdi. Təbii ki, bu mühitdə sabitlik illüziya xarakteri daşıyırdı. 2020-ci ildən sonra yaranan reallıq isə bu status-kvonu əsaslı şəkildə sarsıtdı və regionun geosiyasi məntiqini dəyişdirdi.

Əslində, baş verən dəyişiklikdə daha dərin – struktur transformasiya müşahidə olunur. Münaqişənin “dondurulmuş” vəziyyətdən çıxması regionda uzun illər dominant olan qeyri-müəyyənlik rejimini zəiflətdi və siyasi gündəliyin istiqamətini dəyişdi. Əgər əvvəl əsas məqsəd eskalasiyanın qarşısını almaq və status-kvonu qorumaq idisə, indi postmünaqişə dövründə yaranmış boşluğun necə doldurulacağıdır. Hazırda “sabitliyin institusionallaşdırılması” anlayışı xüsusi əhəmiyyət kəsb edir. Çünki postmünaqişə mərhələsində əsas risk məhz qeyri-institusional sabitlikdir. Yəni sülhün situativ balanslarla qorunması. Uzunmüddətli perspektivdə isə belə bir yanaşma davamlı deyil. Buna görə də regionda yeni mərhələnin əsas məntiqi kommunikasiya xətlərinin açılması, iqtisadi qarşılıqlı asılılığın yaradılması və hüquqi çərçivələrin formalaşdırılması üzərində qurulur.

Burada əsas analitik sual ortaya çıxır: Cənubi Qafqaz həqiqətən münaqişə mərhələsini geridə qoyubmu? Regionda hələ də etimad çatışmazlığı, təhlükəsizlik dilemması və xarici aktorların maraq toqquşmaları mövcuddur. Amma eyni zamanda, inkarolunmaz reallıq var: struktur səviyyədə keçid artıq baş verib. Keçid ondan ibarətdir ki, siyasi diskursun mərkəzi dəyişib. Əgər əvvəl ritorika qarşıdurma üzərində qurulurdusa, indi getdikcə daha çox normallaşma, sərhədlərin delimitasiyası, nəqliyyat marşrutlarının açılması və iqtisadi əməkdaşlıq məsələləri ön plana çıxır. Beynəlxalq münasibətlərdə gündəliyin dəyişməsi çox vaxt reallığın özündən daha önəmli siqnal verir. Siyasi aktorlar nəyi müzakirə edirsə, strateji istiqamət də oraya doğru formalaşır. Digər tərəfdən, bu mərhələni “keçid zonası” kimi də xarakterizə etmək olar. Yəni region nə tam münaqişə zonasından çıxıb, nə də tam sabit əməkdaşlıq platformasına çevrilib. Məhz bu aralıq vəziyyət həm imkanlar, həm də risklər yaradır. İmkan ondan ibarətdir ki, yeni qaydalar formalaşdırmaq mümkündür; risk isə ondan ibarətdir ki, bu qaydalar institusional əsas tapmasa, region yenidən qeyri-sabitliyə qayıda bilər.

***

Azərbaycanın xarici siyasət kursu daha çevik və çoxşaxəli yanaşma kimi – hedcinq strategiyası çərçivəsində təhlil edilə bilər. Modelin mahiyyəti ondan ibarətdir ki, dövlət eyni vaxtda müxtəlif güc mərkəzləri ilə qarşılıqlı əlaqələr qurur, heç birindən tam asılı vəziyyətə düşmür və riskləri bir istiqamətə yığmaq əvəzinə onları diversifikasiya edir. Azərbaycanın xarici siyasətində bu yanaşma aydın şəkildə müşahidə olunur. Qərb institutları ilə əməkdaşlıq ölkənin enerji təhlükəsizliyi, iqtisadi modernizasiya və normativ çərçivələr baxımından inteqrasiyasını təmin edir. Türkiyə ilə münasibətlər isə artıq tərəfdaşlıq səviyyəsini aşaraq strateji müttəfiqlik mərhələsinə keçib və bu xətt hərbi, siyasi və ideoloji komponentlərin sintezi ilə fərqlənir. Digər tərəfdən, Rusiya ilə münasibətlərdə konfrontasiyadan qaçınan, praqmatik və situativ yanaşma qorunur ki, bu da regionda güc balansının nəzərə alınmasının nəticəsidir. Paralel olaraq Çin və Mərkəzi Asiya istiqamətində genişlənən iqtisadi əlaqələr Azərbaycanın geoiqtisadi rolunu gücləndirir və onu tranzit və logistika mərkəzinə çevirir.

Belə çoxvektorlu siyasət zahirən ziddiyyətli görünə bilər, çünki fərqli geosiyasi bloklarla paralel münasibətlər qurmaq müəyyən risklər yaradır. Lakin məsələnin analitik mahiyyəti ondan ibarətdir ki, bu risklər idarə olunan və hesablanmış xarakter daşıyır. Burada əsas prinsip seçim imkanlarını qorumaqdır. Azərbaycan məhz bu yanaşma ilə özünü böyük güclər arasında rəqabətin obyektinə çevrilməkdən qoruyaraq, proseslərin subyekti kimi çıxış etməyə çalışır. Məhz bu məqamda əsas sual ortaya çıxır: bu qədər müxtəlif istiqamətdə qurulan siyasət ölkəni daha həssas etmirmi? İlk baxışda belə görünə bilər ki, paralel münasibətlər potensial təzyiq kanallarını artırır. Lakin strateji baxımdan vəziyyət əksinədir. Çünki müxtəlif istiqamətlər arasında balansın qorunması bir güc mərkəzindən gələn təzyiqin digər əlaqələr vasitəsilə neytrallaşdırılmasına imkan yaradır. Yəni dövlət ya bir blokun tam təsiri altına düşmək, ya da təcrid olunmaq kimi sərt seçimlərlə üz-üzə qalmır.

***

Müasir beynəlxalq münasibətlərdə təhlükəsizlik anlayışı getdikcə daha çox iqtisadi ölçülərlə tamamlanır və klassik hərbi-siyasi yanaşmalar tədricən geoiqtisadi məntiqlə əvəzlənir. Həmin transformasiya xüsusilə tranzit regionlar üçün yeni imkanlar yaradır. Cənubi Qafqazda isə bu prosesin aparıcı aktorlarından biri kimi Azərbaycan çıxış edir. Ölkənin təşəbbüsü və iştirakı ilə reallaşdırılan enerji və nəqliyyat layihələri regionun təhlükəsizlik arxitekturasını yenidən formalaşdırır.

Şərq–Qərb və Şimal–Cənub istiqamətlərini birləşdirən nəqliyyat xətləri, xüsusilə Orta Dəhliz təşəbbüsü ölkəni qlobal ticarət



marşrutlarının mühüm halqasına çevirir. Eyni zamanda, enerji ixrac marşrutlarının şaxələndirilməsi – Cənub Qaz Dəhlizi kimi layihələr vasitəsilə – Azərbaycanın Avropa və daha geniş coğrafiya üçün etibarlı tərəfdaş statusunu gücləndirir. Zəngəzur dəhlizi perspektivi isə regional inteqrasiyanın dərinləşdirilməsi baxımından yeni bir mərhələ vəd edir; bu layihə reallaşacağı təqdirdə Cənubi Qafqazda iqtisadi əlaqələrin coğrafiyasını və intensivliyini köklü şəkildə dəyişə bilər. Layihələrin ortaq xüsusiyyəti ondan ibarətdir ki, onlar qarşılıqlı asılılıq yaradır. Beynəlxalq münasibətlər nəzəriyyəsində qarşılıqlı asılılıq təhlükəsizlik mexanizmi kimi qiymətləndirilir. Çünki dövlətlər bir-biri ilə nə qədər çox iqtisadi əlaqəyə malikdirsə, qarşıdurmanın potensial nəticələri bir o qədər ağır və çoxşaxəli olur.

Bu nöqtədə əsas sual ortaya çıxır: iqtisadi inteqrasiya siyasi sabitliyi təmin edə bilərmi? Tarixi təcrübə göstərir ki, iqtisadi əlaqələr münaqişələri tam şəkildə istisna etmir. Lakin burada əsas məsələ zəmanət deyil, ehtimalın idarə olunmasıdır. İqtisadi inteqrasiya münaqişənin “dəyərini” artırır – yəni qarşıdurma baş verərsə, tərəflərin itkiləri yalnız hərbi deyil, həm də iqtisadi, sosial və siyasi sahələri əhatə edir. Azərbaycanın geoiqtisadi strategiyasının gücü də məhz buradan qaynaqlanır. Ölkə regional aktorları bir-birinə bağlayan layihələr vasitəsilə eyni zamanda qarşılıqlı asılılıq şəbəkəsi yaradır. Əgər əvvəl təhlükəsizlik sıfır-cəmlik oyun kimi qəbul olunurdusa, indi daha çox qarşılıqlı qazanc üzərində qurulan model ön plana çıxır. Azərbaycan isə bu modelin həm təşəbbüskarı, həm də əsas benefisiarı kimi çıxış edərək regionda sabitliyin iqtisadi əsaslarını möhkəmləndirməyə çalışır.

***

Postmünaqişə mərhələsində ən həlledici məsələ hərbi nəticələrin siyasi və hüquqi çərçivəyə çevrilməsidir. Məhz bu nöqtədə Azərbaycanın irəli sürdüyü sülh müqaviləsi təşəbbüsü regionda normallaşma prosesinin əsas sütununa çevrilir. Bəs sülh prosesi niyə bu qədər mürəkkəb və uzunmüddətlidir? Cavab prosesin çoxölçülü mahiyyətində gizlidir. Birincisi, münaqişələr ideoloji və tarixi müstəvidə mövcuddur. Tərəflərin kollektiv yaddaşı, formalaşmış narrativləri və qarşılıqlı etimadsızlıq mühiti danışıqlar prosesini çətinləşdirir. İkincisi, təhlükəsizlik dilemması hələ də aradan qalxmayıb; hər bir tərəf digərinin addımlarını potensial risk kimi qiymətləndirə bilir. Üçüncüsü isə regionun geosiyasi əhəmiyyəti səbəbindən xarici aktorların maraqları bu prosesi birbaşa və ya dolayı şəkildə təsirləndirir.

Bütün bunlar onu göstərir ki, sülh müqaviləsi paralel şəkildə bir neçə səviyyədə balansın qurulmasını tələb edir: daxili siyasi sabitlik, regional güc balansı və beynəlxalq aktorların maraqları arasında uyğunluq yaradılmalıdır. Əks halda, imzalanmış sənəd formal xarakter daşıya və praktik müstəvidə dayanıqlı nəticə verməyə bilər. Eyni zamanda, qeyd etmək lazımdır ki, sülh prosesinin uzanması hər zaman yalnız mənfi faktor kimi qiymətləndirilməməlidir. Bəzi hallarda bu, tərəflərin daha dayanıqlı və uzunömürlü razılaşma əldə etmək üçün vaxt qazanması anlamına gəlir. Azərbaycanın bu prosesdə tutduğu mövqe isə normativ çərçivələrin formalaşdırılmasına yönəlib.

Son olaraq qeyd edək ki, Cənubi Qafqaz artıq transformasiya mərhələsindədir və bu keçidin mərkəzində Azərbaycanın xarici siyasəti dayanır. Maneələrin tam aradan qalxmasından danışmaq tezdir, lakin onların idarə olunması və minimuma endirilməsi istiqamətində ciddi irəliləyiş müşahidə olunur.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# İrəvanda seçkiöncəsi hüquqi gərginlik

## *Baş vermiş olayın rüşvət, yaxud xeyriyyəçiliklə bağlılığı araşdırılır*

**İyunun 7-nə təyin olunmuş parlament seçkiləri yaxınlaşdıqca, ölkədə daxili siyasi gərginlik kəskin xarakter almağa başlayır. Bu dövr təkcə siyasi rəqabətin deyil, həm də dövlət təsisatlarının bir-biri ilə dərin ziddiyyət təşkil etdiyi mürəkkəb bir mərhələ kimi səciyyələndirilir. Xüsusilə “Güclü Ermənistan” partiyası ətrafında cərəyan edən son hadisələr siyasi proseslərin həm hüquqi, həm də institusional müstəvidə böhran həddinə çatdığını göstərir. Partiya rəhbəri Samvel Karapetyan barəsində açılmış cinayət işi, eləcə də bir sıra partiya üzvlərinin saxlanılması hakimiyyətlə müxalifət arasında qarşıdurmanın yeni və daha kəskin fazasından xəbər verir. Ermənistanın 44 günlük müharibədən sonra daxili sabitliyi və ictimai rəydə sarsılmış etimadı bərpa edə bilməməsi seçkiöncəsi dövrdə siyasi mübarizənin daha sərt üsullarla aparılmasından xəbər verir.**



Proseslərin hüquqi əsası kimi Ermənistan Antikorrupsiya Komitəsinin irəli sürdüyü və geniş rezonans doğuran ittihamlar çıxış edir. Komitənin rəsmi açıqlamaları ölkənin Cinayət Məcəlləsinin müvafiq müddəalarına istinad edərək, seçki qanunvericiliyində təsbit olunmuş tələblərin kobud şəkildə pozulması hallarını əks etdirir. Bildirilir ki, seçkilərin rəsmi elanından dərhal sonra qüvvəyə minən xeyriyyəçilik fəaliyyəti üzrə məhdudiyyətlərə baxmayaraq, konkret dairələr tərəfindən vətəndaşlara maddi vəsaitlərin paylanması və ya güzəştli xidmətlərin vəd olunması kimi qanunazidd faktlar qeydə alınıb. Bu cür əməllər Ermənistan hüquq sistemi tərəfindən, sadəcə, inzibati xəta kimi deyil, birbaşa dövlətin seçki institutuna qarşı cinayət tərkibi yaradan hal kimi dəyərləndirilir.

Xüsusilə "seçici rüşvəti" kimi xarakterizə olunan və seçicinin səsvermə iradəsinə süni şəkildə təsir etmək məqsədi daşıyan bu hallar hüquqi baxımdan ağırlaşdırıcı şərt kimi qiymətləndirilir. Artıq partiyanın tanınmış üzvləri Qohar Gumaşyan və Verjine Stepanyanın bu ittihamlar əsasında saxlanılması seçkiöncəsi rəqabətin siyasi müstəvidən çıxaraq hüquqi savaş müstəvisinə keçdiyini təsdiqləyir. Hazırda onların barələrində inzibati nəzarət tədbiri tətbiq edilib. Bu tendensiya Ermənistanın daxili siyasətində hüquq-mühafizə orqanlarının fəaliyyətinin siyasi proseslərin gedişatına birbaşa təsir imkanlarını genişləndirdiyini, eyni zamanda, demokratik seçki mühitinin nə qədər kövrək olduğunu nümayiş etdirir.

Hadisələrin gərgin fonunda diqqəti cəlb edən ən mühüm məqam isə, şübhəsiz ki, Samvel Karapetyanın ətrafında cərəyan edən məhkəmə prosesidir. Ölkənin mövcud siyasi mənzərəsini köklü şəkildə dəyişmək və yeni güc mərkəzi yaratmaq iddiası ilə çıxış edən “Güclü Ermənistan” partiyasının rəhbəri, Rusiya əsilli sahibkar Samvel Karapetyanın cinayət işi üzrə ilk məhkəmə iclası dünən baş tutub. Hakim Vahe Dolmazyanın qərarı ilə proses rəsmi olaraq açıq rejimdə keçirilsə də, müdafiə



tərəfinin müraciəti əsasında məhkəmə zalında foto və video çəkilişlərin aparılmasına, habelə prosesin kütləvi informasiya vasitələri ilə birbaşa yayımına qadağa qoyulub. Bu qərar, faktiki olaraq, cəmiyyətin diqqət mərkəzində olan bir işin ictimaiyyətdən qismən təcrid olunması kimi qiymətləndirilə bilər.

Məhkəmə zalındakı gərgin atmosferdə yaddaqalan məqam Karapetyanın iyun ayında keçiriləcək parlament seçkilərində iştirak niyyətini bir daha və rəsmən təsdiqləməsi olub. O, Ermənistanın milli qanunvericiliyinin sərt tələblərinə tam uyğunlaşmaq məqsədilə malik olduğu Rusiya və Kipr vətəndaşlıqlarından rəsmi şəkildə imtina prosesinə başladığını bəyan edib. Karapetyan yaxşı anlayır ki, Ermənistan konstitusiyasına görə namizədlik üçün son illərdə yalnız bu ölkənin vətəndaşı olmaq mütləq şərtdir və digər ölkələrin pasportları onun siyasi yolunda ciddi hüquqi maneələr yarada bilər. Bu addım, sadəcə, bir vətəndaşlıq seçimi deyil, həm də onun bütün resursları ilə Ermənistanın daxili siyasi arenasında həlledici rol oynamaq əzminin göstəricisidir.

Karapetyanın müttəhim kürsüsündən səsləndirdiyi “qələbəyə əminəm” mesajı, faktiki olaraq, hakimiyyətə açıq meydan oxumaq xarakteri daşıyır. O, özünü bir cinayət işinin subyekti kimi deyil, alternativ lider kimi təqdim edərək, məhkəmə prosesini siyasi tribunaya çevirməyə müvəffəq olub. Bu kəskin bəyanatlar fonunda Karapetyanın siyasi taleyi və namizədlik prosesinin hüquqi çərçivədə necə davam edəcəyi Ermənistanın seçkiöncəsi mənzərəsini müəyyən edən ən kritik amillərdən biri olaraq qalır. Belə bir vəziyyət, ölkədəki siyasi qüvvələr nisbətinin daha da kəskinləşəcəyindən və seçki mübarizəsinin misilsiz gərginliklə müşayiət olunacağından xəbər verir.

Xatırladaq ki, Karapetyan hələ 2025-ci ilin iyununda “hakimiyyətin ələ keçirilməsinə çağırış” ittihamı ilə dəmir barmaqlıqlar arxasına göndərilib, sonradan bu ittihamların siyahısı maliyyə fırıldaqları ilə “zənginləşdirilib”. Hətta iş o yerə çatıb ki, ona məxsus “Ermənistan Elektrik Şəbəkələri” QSC-nin milliləşdirilməsi prosesinə başlanılıb.

Azərbaycan üçün Ermənistandakı daxili didişmələr və oliqarxik savaşlar bir daha sübut edir ki, regionda sülh və sabitlik istəməyən qüvvələr hələ də Ermənistanı öz ambisiyalarının poliqonuna çevirməkdədir. İstər hakimiyyətin selektiv ədaləti, istərsə də müxalifətin maddi stimullaşdırma metodları Ermənistanın dövlət institutlarının iflic vəziyyətdə olduğunu göstərir. Beləliklə, Ermənistanda cərəyan edən son hadisələr bir strateji reallığı növbəti dəfə təsdiqləyir: Cənubi Qafqazda davamlı sülh gündəliyinə mane olan fundamental amil məhz Ermənistanın daxili qeyri-sabitliyidir. İrəvanın idarəetmə sisteminin iflic vəziyyətə düşməsi və siyasi mübarizənin hüquqi şantaj müstəvisinə keçməsi rəsmi İrəvanın nəinki öz cəmiyyəti qarşısında, həm də beynəlxalq səviyyədə götürdüyü öhdəliklərə fokuslanmasını ciddi şəkildə ləngidir.

Regional lider statusunu hərbi, siyasi və iqtisadi müstəvidə bərqərar etmiş Azərbaycan öz strateji yolunda qətiyyətlə irəliləsə də, qonşu ölkədə hökm sürən bu xaos və hüquqi özbaşınalıq regionda tam sabitliyin bərqərar olması qarşısında duran əsas risk faktoru kimi çıxış edir. Xüsusilə vurğulamaq lazımdır ki, İrəvanın daxili auditoriyaya hesablanmış bu genişmiqyaslı siyasi şouları, Samvel Karapetyan və digər müxalif elementlər ətrafında yaradılan süni gərginlik, əslində, Azərbaycanla sülh müqaviləsinin imzalanması prosesini müxtəlif bəhanələrlə uzatmağa xidmət edir.

Bu mənzərə Ermənistanın beynəlxalq öhdəliklərdən və regional inteqrasiyadan yayınmaq üçün daxili böhranları bir “qalxan” kimi istifadə etmək taktikasının davamıdır. Hakimiyyət və müxalifət arasındakı bu radikal qarşıdurma Ermənistanın bir dövlət kimi öz gələcəyi ilə bağlı hələ də vahid və rasional bir qərara gələ bilmədiyini göstərir. Məğlub ölkənin içində boğulduğu seçki xaosu və hakimiyyətin öz rəqiblərinə qarşı tətbiq etdiyi daxili repressiya metodları Ermənistanı daha dərin siyasi və mənəvi böhrana sürükləməklə yanaşı, onun regionun yeni reallıqlarına uyğunlaşma imkanlarını da məhdudlaşdırır. Azərbaycanın qətiyyətli mövqeyi qarşısında manevr imkanlarını itirən İrəvan daxili "döyüşləri" ilə sülh prosesini ləngitsə də, bu yolun sonu Ermənistan üçün yalnız daha böyük təcrid və geriləmə ilə nəticələnə bilər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Ermənistan üçün təhlükəsizlik

## *Suların aynasında özünə baxan quzu gülümsəsə...*



**Ermənistanda yaxınlaşmaqda olan parlament seçkiləri ilə bağlı bir sıra vacib suallar ortaya çıxır və bu suallara verilən cavablar ölkənin bir dövlət kimi perspektiv inkişaf trayektoriyası, ümumən, gələcəyi ilə bağlı formalaşmaqda olan baxışlar sisteminin tərkib hissəsidir. Niyə formalaşmaqda olan, bu barədə sonda söz açacağıq.**

Gələcəkdən söz düşmüşkən, hazırda Ermənistanda hələ rəsmi şəkildə start verilməmiş seçki təbliğatı fonunda müzakirəsi aparılan başlıca mövzu ölkənin təhlükəsizliyidir. Mövzunu ön plana həm iqtidar, həm də müxalifət çəkir. Əlbəttə, tərəflərin məsələyə baxışları tamamilə fərqlidir. İqtidarın baxışı aydındır və onu bu ayın əvvəlində ölkə parlamentinin sədri Alen Simonyan açıq şəkildə ifadə etdi. O bildirdi ki, Ermənistanın təhlükəsizlik təminatı Azərbaycandır.

Əlbəttə, Simonyan, eyni zamanda, Azərbaycanın təhlükəsizlik qarantının Ermənistan olduğunu vurğuladı. Spikeri, müəyyən mənada, haqlı saymaq mümkündür. Çünki Azərbaycan və azərbaycanlılar üçün təhlükə həmişə ermənilər və Ermənistan olub. Azərbaycanın Ermənistan üçün təhlükəsizlik təminatı olmasına gəlincə, ermənilər və Ermənistan Azərbaycana qarşı çıxmayınca, Azərbaycanın da əks tədbirlərə əl atmasına ehtiyac qalmayacaq. Söhbət Ermənistana təhlükə yaradan tədbirlərdən gedir.

Erməni müxalifətinin isə təhlükəsizlik məsələsinə baxışı fərqlidir. Bu kəsimin təmsilçiləri hesab edirlər ki, Azərbaycan və Türkiyə Ermənistan üçün təhdiddir. Hay müxaliflər seçkiqabağı dövrdə bu ideyanı daxili ictimai rəyə yeritmək üçün dəridən-qabıqdan çıxır, beləliklə, qonşulara münasibətdə aqressiv ritorika formalaşdırmağa çalışırlar. O ritorika ki, müasir dövrdə 1988-ci ildən başlamışdı və nələrə, hansı faciə və məşəqqətlərə gətirib çıxardığı gün kimi aydındır.

Deməli, indiki halda, erməni cəmiyyətinin qarşısında dayanan başlıca vəzifə təhlükəsizlik məsələsinə ümumi baxışı dəyişməkdir. Bunun üçün isə ənənəvi klişelərdən uzaqlaşmaq şərtdir. O klişelər ki, mahiyyətcə erməni varlığı üçün kənarda hazırlanıb və bu varlığın öz xalqına xayinlik edən azlığı tərəfindən kütləvi düşüncə dövriyyəsinə yeridilib. Həm yeridilib, həm də pataloji xəstəlik halına gətirilib.

Bəli, Ermənistanda seçki öncəsi Azərbaycanı və Türkiyəni düşmən qiyafəsində görmək kimi pataloji xəstəlik yayıcılarını görürük. Daha doğrusu, xəstəliyi körükləməyə baş vuranları. Onların apardıqları təbliğat Bakının və Ankaranın Ermənistanın bir dövlət olaraq silinməsinə dair planının mövcudluğu tezisinə söykənir. İstər-istəməz, sual yaranır: Azərbaycan və Türkiyə dövlətini bir kənara qoyaq, hər iki ölkənin cəmiyyətində nə zamansa Ermənistanı yer üzündən silmək baxışına əsaslanmış fikir səslənibmi? Əlbəttə ki, yox. Ancaq hay avantürislərin qonşu torpaqları hesabına “dənizdən dənizə böyük Ermənistan”, həmçinin “azərbaycanlıları Kür çayınadək qovmaq” kimi ambisioz şüarları yaddan çıxmayıb. Çünki bu şüarlar 2 qanlı müharibəyə, məhrumiyyət və acılara səbəb olmuşdu.

İkincisi, Azərbaycan Ermənistanı bir dövlət kimi yer üzündən silmək istəsəydi, bunu 44 günlük müharibə zamanı edərdi. Özü də durumu əsaslandırmaq heç də çətin olmazdı. Məsələn, SSRİ İkinci Dünya müharibəsi zamanı torpaqlarını işğal etmiş Hitler Almaniyasını yalnız öz sərhədlərindən uzaqlaşdırmadı, eyni zamanda, işğalçını düz Berlinədək qovdu, onu rüsvayçı kapitulyasiya aktına imza atmağa məcbur etdi. Sovet tankları alman şəhərlərinin küçələrində at oynatdılar. Amma bütün dünya bunu təcavüz kimi qiymətləndirmədi, çünki əsl təcavüzkara yeri göstərilməli idi. Nəzərə alaq ki, Almaniya SSRİ torpaqlarını cəmi 3 ildən bir az çox, Ermənistan isə Azərbaycan ərazisinin 20 fazinin 30 ilə yaxın işğalda saxlamışdı.

Sözümüz ondadır ki, ölkəmizin Ermənistanı işğal etmək kimi niyyəti olmayıb və indi də yoxdur. Ancaq hazırda Azərbaycanın Ermənistanın təhlükəsizliyi üçün təhdid olduğunu düşünən ölkənin revanşist və şovinist kəsimi belə bir ideya yayır ki, İrəvan Bakının tələblərini yerinə yetirir. Bu yerdə az-çox normal düşünən erməni analitiklərindən birinin bu günlərdə sosial şəbəkələrdə geniş yayılmış və obrazlı şəkildə ifadə olunmuş fikrini diqqətə çatdıraq: Hesab edin ki, hündürmərtəbəli binadakı mənzilinizin eyvanına çıxıb özünüzü ordan yerə atmaq istəyirsiniz və güclü qonşunuz Sizə bunu etməyin düzgün olmadığını uca səslə bildirir. Yəni, analitik Azərbaycan rəhbərliyinin Ermənistana müraciət tərzini məhz bu cür qiymətləndirmişdi.

Həqiqətən, Prezident İlham Əliyevin istər 44 günlük müharibə, istərsə də ondan sonra Ermənistana ünvanlanmış bütün çağırışları ölkəni qəflət yuxusundan ayıltmağa və Azərbaycanın səbrini sınağa çəkməməyə hesablanmışdı. Əlbəttə ki, burada təhdid mahiyyəti ola bilməzdi və yox idi. Dövlətimizin başçısı, sadəcə, reallığa düzgün yanaşma tələb etmişdi ki, rəsmi İrəvan bu yanaşma üzərinə Bakı ilə sülhə razılaşmaqla gəldi. Yəni gec də olsa, gəldi. Ona görə hazırda erməni iqtidarının reallaşdırdığı hansısa tədbirin Azərbaycanın diktəsi olduğunu vurğulamaq yerinə düşmür.

Amma Nikol və tərəfdarlarının pozitiv yol tutmaları, konstruktiv mövqe nümayiş etdirmələri Ermənistanda və ölkədən kənarda kimlərisə möhkəm narahat etməkdədir. Bakının İrəvan üçün təhlükə yaratmasına dair tezis də məhz onların yastıqlarının altından çıxır. Bu yerdə başqa bir misalı da xatırladaq: Quzu dəryaya baxıb öz kölgəsindən qorxub qaçanda anası onu saxlayır və dəryaya yenidən, özü də gülümsəyərək nəzər yetirməyi təklif edir. O zaman isə vəziyyət dəyişir.

Bəli, əsas məsələ dəryaya, yaxud güzgüyə düzgün nəzərlərlə baxmaq və orada öz təsvirini görməkdir. Yəni erməni cəmiyyəti, ilk növbədə, özünə doğruluq və səmimiyyət pəncərəsindən baxmağı öyrənməldir. Bunun üçün isə həm də əlahəzrət tarix var. Söhbət zori balayanların və digər avantüristlərin yazdıqları deyil, real faktlara əsaslanmış tarixdən gedir. Söhbət ayrı-ayrı imperialist kluarlarda haylara yazılmış tarixdən də getmir.

Əlahəzrət tarix göstərir ki, hazırda Ermənistanın, sözün həqiqi mənasında, dövlət olmaq, erməni cəmiyyətinin isə qövmlükdən xalqa çevrilmək şansı yaranıb. Nəzərə alaq ki, belə bir şans heç zaman olmamış, haylar bütün dövrlərdə Cənubi Qafqazda avantüra gerçəkləşdirmək istəyən böyük güclərin alətinə çevrilmişdilər.

Sonda onu da bildirək ki, sadaladıqlarımız problemlərin bir çoxunun, o cümlədən təhlükəsizlik məsələsinə yanlış baxışın bir böyük səbəbi var. Yazımızda əslində, o səbəbdən də söz açdıq.

Bu barədə bir qədər ətraflı söz açaraq deyək ki, tarixdə ilk dəfədir Ermənistanın əsl dövlətə çevrilmək şansı yaranıb. O dövlətə ki, qonşularına qarşı ərazi iddiasına köklənmir, kin və kudərət bəsləmir, düşmən axtarışından, işğalçılıqdan imtina edir və bütün tərəflərlə normal, bərabər münasibətlərə can atır. O dövlətə ki, obrazlı desək, arabanın kölgəsini öz kölgəsi saymır, yalnız daxili potensialına arxalanaraq adekvat fəaliyyət kursu seçir. Hər halda, Paşinyan iqtidarının son zamanlarda reallaşdırdığı xətt Ermənistanın sadaladığımız məqamlara nəzər yetirdiyini söyləməyə əsas verir.

Hesab edirik ki, erməni cəmiyyəti ayıq davranaraq təxribata uymamalı, qarşıdakı parlament seçkilərində məhz bu xətti rəhbər tutmalıdır. Bu xətt ölkənin gələcəyi, dövlətçiliyin yaşam fəlsəfəsidir. Başqa yol yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

*Qarabağda mina təhdidi*

# Yeraltı cəbhədə savaş davam edir




**(əvvəli 1-ci səhifədə)**

Xarici İşlər Nazirliyinin bununla bağlı yaydığı məlumatda qeyd olunur ki, Azərbaycanda minalar hələ də insanların həyatını itirməsinə səbəb olur. Qeyd edilib ki, bu faciə minaların yaratdığı davamlı humanitar təhlükəni və azad edilmiş əraziləri təhlükəsiz etmək üçün çalışan insanların hər gün üzləşdiyi riskləri bir daha göstərir. "2020-ci il müharibəsindən sonra indiyədək 422 Azərbaycan vətəndaşı mina qurbanı olub. Minatəmizləmə işlərinin genişləndirilməsi üçün beynəlxalq dəstəyin artırılmasına təcili ehtiyac var", – deyə məlumatda vurğulanıb.

***

Yüksək texnologiyalar əsrində minalar daha dəqiq silahların, necə deyərlər, kölgəsinə düşmüşdü. Bununla belə, son illərin təcrübəsi göstərir ki, minalar hələ də böyük təhlükələrə və faciələrə səbəb olur. Hətta ən son yüksək texnologiyanın tətbiqi bu sahənin də "inkişafı" üçün əlavə imkanlar yaradıb. Mina silahları bu gün güclü hərbi potensiala malik olmayan ölkələr, o cümlədən üçüncü dünya ölkələri adlanan dövlətlər və ya müasir yüksək dəqiqlikli silahlar almaq imkanından məhrum terrorçu qruplar arasında xüsusilə populyardır. Minaların populyarlığının əsas səbəbləri onların digər silah növləri ilə müqayisədə dizaynının sadəliyi və istismarının asanlığı, eləcə də qiymətinin ucuz olmasıdır. Onları quraşdırmaq asandır və əlavə texniki xidmət tələb etmədən və ya hər hansı əmrə ehtiyac olmadan bir çox aylar, hətta illər ərzində öz mövqelərində sabit qala bilərlər. Müharibənin vəziyyəti (davam etməsi, yaxud dayanması) və ölkənin siyasi kursunun dəyişməsi onlara təsir etmir. Minalar basdırıldıqları yerlərdə, necə deyərlər, səssiz-səmirsiz dayanaraq, öz qurbanlarının yolunu "gözləyirlər". Buna görə də BMT hər il aprelin 4-də dünya ölkələrinin diqqətini həmin problemə cəlb etməyi nəzərdə tutur.

Təəssüf ki, Azərbaycan dünyada minalardan və partlamamış hərbi sursatlardan (PHS) zərər çəkən, müharibənin "mirası" ilə təqib olunan ölkələr sırasındadır. İstər Birinci, istərsə də İkinci Qarabağ müharibəsi zamanı bütün hərbi əməliyyatlar beynəlxalq səviyyədə tanınmış ərazilərimizdə aparıldığı üçün bu gün Azərbaycan dünyada mina və PHS ilə ən çox çirklənmiş ölkələrdəndir. Piyadalar Əleyhinə Minaların Qadağan Olunması üzrə Beynəlxalq Kampaniya – Kasetli Sursatlar Koalisiyasının "Landmine Monitor Report 2020" layihəsinin məlumatına əsasən, Azərbaycan ərazisində basdırılmış minaların sayına görə dünyanın ilk ölkələri sırasındadır. Vətən müharibəsindən sonra ərazimizin 12 faizdən çox hissəsinin minalarla çirkləndirildiyi məlum oldu. Azərbaycan ərazisində 1,5 milyon mina olmaqla dünyanın minalarla ən çox çirklənmiş ilk 5 ölkəsi sırasındadır. İşğaldan azad edilmiş 1 milyon 166 min 702 hektar ərazidə minaların olması güman edilir, bunun da 211 min 800 hektarı yüksək, 954 min 902 hektarı orta və aşağı çirklənmə səviyyəsindədir. Minalar üzrə ekspertlərin Beynəlxalq Böhran Qrupuna verdikləri məlumatlara görə, azad edilmiş ərazilərin təxminən 1/5-i yüksək dərəcədə çirklənib. Təxminən 2/3-si humanitar minatəmizləmə üçün prioritet sahə kimi təsnif edilir.

Müharibənin başa çatmasından sonra baş vermiş mina partlayışlarının qurbanlarının sayına dair rəsmi Bakının açıqladığı rəqəmlər həyəcan siqnalı kimi səslənir. 422 rəqəmi, sadəcə quru statistika deyil. Bu statistikanın arxasında bir ailənin faciəsi, yarımçıq qalan talelər, puç olmuş ümidlər, itkilərin sonsuz ağrısı və cəmiyyətin yaddaşına hopan kədər dayanır. Xüsusilə diqqətçəkən məqam ondan ibarətdir ki, mina qurbanları arasında mülki şəxslər üstünlük təşkil edir. Bu isə problemin sırf hərbi çərçivədən çıxdığını və humanitar böhran xarakteri aldığını göstərir.

Tam aydındır ki, mina təhlükəsi şovinist-revanşist hayların bizə qarşı davam edən müharibəsinin xüsusi bir formasıdır. Bu "yeraltı müharibə" nə əsgərlə mülki şəxsi ayırd edir, nə atəşkəs tanıyır, nə də siyasi razılaşmalara tabe olur. Minalar illərlə, hətta onilliklərlə torpaqda qalaraq azad edilmiş əraziləri ölüm tələsinə çevirir. Azərbaycan timsalında bu problem ərazilərin geniş miqyasda minalanması və mina sahələrinin xəritələrinin, demək olar, mövcud olmaması, daha doğrusu, bizə dəqiq mina xəritələrinin verilməməsi ilə daha da ağırlaşır ki, bu da mühəndis istehkam bölüklərinin, mülki minaaxtaranların işini son dərəcə çətin və təhlükəli edir. Hər addım risk, hər səhv isə faciə deməkdir. Eyni zamanda, başa düşmək vacibdir ki, minalar yalnız insan həyatı üçün təhlükə yaratmır. Bu, həm də humanitar, iqtisadi və sosial məsələdir. Onlar keçmiş məcburi köçkünlərin geri dönüşünü ləngidir, infrastrukturun bərpasını əngəlləyir və kənd təsərrüfatının inkişafına mane olur. Problem geniş ərazilərin iqtisadi dövriyyədən kənarda qalmasına səbəb olur. Kənd təsərrüfatı üçün yararlı torpaqlar istifadəsiz qalır, infrastruktur layihələrinin icrası gecikir, investisiya mühiti riskli hesab olunur. Bu isə azad edilmiş bölgələrin sürətli bərpası və iqtisadi inteqrasiyası prosesini ləngidən əsas amillərdən biridir. Halbuki həmin ərazilər həm təbii resursları, həm də coğrafi mövqeyi baxımından ölkə iqtisadiyyatı üçün mühüm potensiala malikdir.

Göründüyü kimi, ərazilərimizin minalarla çirkləndirilməsinin yaratdığı problem hazırda ölkəmiz üçün son dərəcə aktualdır. Minaların təmizlənməsi uzun zaman, ağır zəhmət, böyük vəsait tələb edən yorucu prosesdir. Ermənistan isə özünü sülhpərvər kimi göstərsə də, minalanmış ərazilərin dəqiq xəritəsini verməkdən bugünədək imtina edir. İrəvan iki ölkə arasında etimad mühitinin yaradılması üçün minalarla çirkləndirilmiş ərazilərin dəqiq xəritəsini ləngimədən ölkəmizə verməli, heç olmasa bu məsələ ilə bağlı dürüstlük nümayiş etdirməlidir. Rəsmi İrəvanın bu məsələdə atacağı konstruktiv addım sonradan iki ölkə arasında digər sahələrdə əməkdaşlıq üçün də baza rolunu oynaya bilər. Bu gün mina təhlükəsinə qarşı mübarizədə Azərbaycana dəstək olmaq sülhə, insan haqlarına və təhlükəsiz həyata dəstək olmaq deməkdir.

***Səxavət HƏMİD***
***XQ***

*Ekspert rəyi*



**Umud MİRZƏYEV,**
**Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti**

Azərbaycan mina təhlükəsinin ən ağır nəticələrini yaşayan ölkələrdən biridir və minalarla ən çox çirklənmiş ölkələr arasında ilk onluqdadır. Rəsmi məlumatlara görə, işğaldan azad olunmuş ərazilərdə təxminən 11667 kvadratkilometr sahə mina və partlayıcı ilə çirklənib. Bu, ölkə ərazisinin 13 faizindən çoxu deməkdir. Həmin ərazilərdə təxminən 1,5 milyon mina və naməlum sayda partlayıcı sursatın mövcud olduğu bildirilir. 2020-ci ildən bu günədək 422 nəfər mina qurbanı olub. Onlardan 73 nəfəri həlak olub, 349 nəfəri müxtəlif dərəcəli xəsarət alıb. Son 30 ildə isə Azərbaycanda mina qurbanlarının sayı 3500 nəfərdən artıqdır. Onların 362 nəfəri uşaq, 38 nəfəri qadınlardır.

# Seçim Parisin, qərar isə Bakınındır...



**(əvvəli 1-ci səhifədə)**

Müzakirələrin həlledici mərhələsi kimi Azərbaycanın 28 May – Müstəqillik Gününü qeyd etməyə hazırlaşdığı dövr diqqət mərkəzindədir. Azərbaycanın dövlətçilik ənənəsində mühüm bayramlar ərəfəsində əfv sərəncamlarının imzalanması və humanizm prinsiplərinin ön plana çəkilməsi ənənəvi hal alıb. Fransa tərəfi məhz bu tarixdə rəsmi Bakının növbəti dəfə humanist addım ataraq Martin Rayanı azad edəcəyinə ümidlənir. Xatırladaq ki, 2025-ci il mayın 26-da Prezident İlham Əliyevin imzaladığı əfv sərəncamı ilə digər bir Fransa vətəndaşı – metro deposuna gizli daxil olaraq vaqonları boyadığı üçün əmlaka ziyan vurma ittihamı ilə saxlanılaraq həbs edilən Teo Klerk azadlığa buraxılmışdı. Bu baxımdan, gözlənilən yeni əfv sərəncamının Martin Rayana da şamil olunma ehtimalı nə dərəcədə realdır?



**Hüquqşünas Əkrəm Həsənov** XQ-ya açıqlamasında qeyd etdi ki, Martin Rayana qarşı irəli sürülən ittihamlar kifayət qədər ağırdır: "Məlum olduğu kimi, martın 16-da "Merkorama" MMC-nin baş direktoru Martin Rayanın Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 276-cı maddəsi (casusluq) ilə təqsirli bilinərək 10 il müddətinə azadlıqdan məhrum edilməsi barədə hökm oxunub. İstintaq zamanı Rayanın Fransanın Xarici Təhlükəsizlik Baş İdarəsi (DGSE) tərəfindən məxfi əməkdaşlığa cəlb edildiyi və onlardan aldığı tapşırıqlar əsasında fəaliyyət göstərdiyi sübuta yetirilib. O, Azərbaycanın hərbi sahədə Türkiyə, Pakistan və digər tərəfdaş ölkələrlə əməkdaşlığı, hərbi sənaye məhsullarının istehsalı və ordu quruculuğu ilə bağlı strateji məlumatların toplanılmasında ittiham olunub. Həmçinin Rayanın Azərbaycan vətəndaşlarının Fransa kəşfiyyatı ilə əməkdaşlığa cəlb edilməsi prosesində vasitəçilik etdiyi müəyyən edilib.

Bəli, ittihamlar kifayət qədər ağırdır. Onu da nəzərə almalıyıq ki, ötən il əfv edilən digər Fransa vətəndaşı Teo Klerk Cinayət Məcəlləsinin 186.2.2-ci maddəsi ilə ittiham olunaraq 3 il müddətinə azadlıqdan məhrum edilmişdi. Hüquqi baxımdan bu iki iş arasındakı fundamental fərq ondan ibarətdir ki, Martin Rayanın əməli xüsusilə ağır cinayət hesab edildiyi halda, Teo Klerkin əməli isə mülkiyyətə zərər vuran az ağır cinayət kateqoriyasına aiddir".

Bununla belə, Ə.Həsənov növbəti əfv sərəncamının Martin Rayana şamil edilməsi ehtimalını şərh edərkən bu addımın hüquqi və siyasi tərəflərini belə əsaslandırdı: "Hesab edirəm ki, bu cür qərarın verilməsi iki əsas səbəbdən mümkün ola bilər. Birincisi, Azərbaycan Prezidentinin humanist siyasəti hər kəsə bəllidir. Bu siyaət xüsusilə xarici vətəndaşlara şamil olunduqda, Azərbaycanın beynəlxalq imicinə birbaşa müsbət təsir göstərir. Törədilən əməlin dövlətə vurduğu ziyandan və şəxsin milli mənsubiyyətindən asılı olmayaraq, ölkə başçısı bu cür humanist addımları dəfələrlə atıb. Digər tərəfdən, hazırda Fransa ilə münasibətlərdəki kəskin gərginliyin nisbətən səngidiyi və müəyyən təmasların yarandığı müşahidə olunur. Azərbaycan qanunvericiliyinə görə, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmə proseduru üçün xüsusilə ağır cinayət törətmiş şəxs cəzasının ən azı üçdə iki hissəsini çəkməlidir. Rayanın 10 illik cəzasını nəzərə alsaq, o, təxminən 6 il 8 aydan sonra məhkəməyə müraciət etmək hüququ qazanır. Lakin Konstitusiyanın 109-cu maddəsinə əsasən, Prezidentin əfv sərəncamı cəzanın çəkilmiş hissəsindən asılı olmayaraq tətbiq edilə bilər".

**Milli Məclisin deputatı Zahid Oruc** qeyd etdi ki, Fransa vətəndaşı Martin Rayanın Azərbaycanda casusluq ittihamı ilə məhkum olunması həm hüquqi, həm də siyasi baxımdan olduqca həssas və geniş ictimai rezonans doğuran mövzulardan biridir: "Martin Rayanın uzun illər Azərbaycanda fəaliyyət göstərdiyi, biznes strukturlarında təmsil olunduğu və 2015-ci ildən etibarən ölkəmizdə müxtəlif iqtisadi əlaqələr qurduğu bildirilir. Lakin 2023-cü ilin dekabr ayında onun saxlanılması ilə vəziyyət tamamilə dəyişdi və ona qarşı casusluq



ittihamı irəli sürüldü, məhkəmə qərarı ilə 10 il müddətinə azadlıqdan məhrum edildi.

Məsələni hüquqi çərçivədən çıxarıb ona siyasi məna qataraq, ölkəmizə qarşı müxtəlif beynəlxalq təşkilatların apardığı gözdənsalma kampaniyalarının Yelisey sarayı tərəfindən idarə olunduğu şübhə doğurmur. Çünki Vətən müharibəsinin gedişi və savaşın bitməsindən cəmi 10 gün sonra Ermənistanın müraciəti olmadan Qarabağın müstəqilliyinin tanınması haqqında Fransa Senatının çıxardığı qərar, ardınca 4 il ərzində ölkəmizə qarşı çirkin xarakterli hibrid fəaliyyətlər, xüsusilə, "terror mediası"nın əli ilə aparılan məqsədyönlü informasiya kampaniyaları Qələbəmizin hansı qüvvələrin maraqlarına zərbə vurğdunu açıq göstərir".

Z.Orucun fikrincə, Azərbaycan dövləti öz prinsipial mövqeyini qoruyub saxlayaraq, qətiyyət göstərdi və Parisi səhv siyasətindən geri çəkməyi bacardı: "İndi münasibətlər normallaşıb. Dövlət başçısı dəfələrlə bəyan edib ki, Azərbaycan heç bir təzyiq qarşısında geri çəkilməyəcək, milli maraqlarını qətiyyətlə müdafiə edəcək və beynəlxalq münasibətlərdə qarşılıqlı hörmət prinsipinə əsaslanacaq. Eyni zamanda, ölkəmiz humanist siyasətə sadiqliyini də daim nümayiş etdirir. Mütəmadi olaraq, imzalanan əfv sərəncamları cəmiyyətə reinteqrasiya, sosial ədalət və mərhəmət prinsiplərinə əsaslanır. Bayramlar ərəfəsində verilən əfv qərarları dövlətimizin humanist xarakterinin göstəricisidir.

Belə mürəkkəb siyasi və hüquqi fonda Martin Rayan kimi şəxslərə münasibətdə də humanist yanaşma tətbiq oluna bilərmi? Qərar dövlət başçısının kompetensiyasındadır. Çünki bu, yalnız hüquqi deyil, eyni zamanda, siyasi və diplomatik mahiyyətli məsələdir. Nəticə etibarilə, Azərbaycan dövləti bir tərəfdən milli təhlükəsizliyini qətiyyətlə qoruyur, digər tərəfdən zəruri hallarda mərhəmətli addımlar ataraq siyasi iradə nümayiş etdirir".



**Milli Məclisin deputatı, Azərbaycan–Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupunun keçmiş üzvü Aydın Mirzəzadə** məsələ ilə bağlı qəzetimizə açıqlamasında dedi ki, Fransa hökuməti Azərbaycanla, demək olar ki, bütün mədəni körpüləri yandırıb: "Azərbaycan və Fransa arasında münasibətlərin müəyyən dövrdə gərginləşməsinin səbəbkarı rəsmi Bakı deyil, Parisdir. Paris uzun müddət Ermənistanın işğalçılıq siyasətini dəstəkləyib, Vətən müharibəsi və antiterror əməliyyatları dövründə isə ölkəmizə qarşı radikal mövqe nümayiş etdirib. Lakin artıq həmin mərhələ geridə qalıb və hazırda bu əlaqələri normal müstəviyə keçirməyin vaxtı çatıb, üstəlik, Fransadan da münasibətlərin bərpasına dair müəyyən siqnallar daxil olur".

Konkret cinayətlərə görə həbs edilmiş Fransa vətəndaşının azad edilməsi məsələsinə gəlincə, A.Mirzəzadə bu prosesin Azərbaycanın daxili məsələsi olduğunu dedi: "Onlar əvvəlcə qanunla müəyyən edilmiş cəzalarını çəkməli, gələcəkdə isə onların əfv edilib-edilməməsi yalnız ölkə başçısının müstəsna səlahiyyətləri çərçivəsində həll olunmalıdır. Hesab edirəm ki, iki dövlət arasında əlaqələrin yaxşılaşdırılması prosesi hansısa məhbusun azadlığa buraxılması şərti ilə əlaqələndirilməməlidir. Əgər Fransa tərəfi keçmiş günahlarını yumağa çalışsa, həm məhbus məsələsində müsbət addımlar atıla, həm də gələcəkdə Milli Məclisdə Azərbaycan-Fransa parlamentlərarası işçi qrupunun fəaliyyəti bərpa oluna bilər".

Belə məlum olur ki, Martin Rayan məsələsi Paris üçün sınaq mərhələsidir. Əgər Azərbaycan dövləti növbəti dəfə ali humanizm nümayiş etdirərək müsbət qərar verərsə, bu, Fransanın regiondakı siyasətinə güzəşt deyil, Bakının öz suveren gücünə və mənəvi üstünlüyünə olan inamının təzahürü sayılacaq. Bu düyünün açılması rəsmi Parisin Azərbaycanın milli maraqlarına və bölgədə yaratdığı yeni reallıqlara nə dərəcədə hörmətlə yanaşmağa hazır olmasından birbaşa asılı olacaq. Qısaca, seçim Parisindir, qərar isə Bakının...

***Tacir SADIQOV***
***XQ***

***Replika***

# Alen Simonyanın arxayınçılığı

## *Yaxud Rusiyanın "erməni sevdası"na güvənmək olarmı?*



**"Bütün məsələlər müzakirə olunacaq və həll ediləcək. Biz heç bir məsələ üzrə Rusiya ilə qarşıdurmaya getməyəcəyik, mübahisə etməyəcəyik". Bu fikri Ermənistan parlamentinin sədri Alen Simonyan jurnalistlərə açıqlamasında səsləndirib. Əlbəttə, Simonyan hansısa məqamı mübahisə kontekstindən kənar qiymətləndirə bilər. Başlıca məqam Rusiya tərəfinin Ermənistanla əlaqəli durumu məhz mübahisə və qarşıdurma olaraq görməsidir. Ən başlıca məqamı isə sonda açıqlayacağıq.**

Nəzərə alaq ki, 30 ilə yaxın müddətdə Ermənistan rəsmiləri nəinki Rusiya dövlətinin təmsilçiləri ilə hansısa mübahisə yaratmamışdılar, az qala, məzuniyyətə çıxanda da Moskvadan icazə almışdılar. Ona görə də hazırda rəsmi İrəvan təmsilçilərinin rahat davranmaları anti-Rusiya ritorikası kimi qəbul edilir. Hərçənd, sözügedən ritorikanın həqiqi mənada mövcudluğu da diqqətdən yayınmır. O zaman Simonyan iz azdırmaqlamı məşğuldur? Fikrimizcə, belə bir durum yoxdur. O zaman nə? İpucu verək ki, sonda açıqlayacağımız başlıca məqam məhz bu suala cavabla bağlıdır.

Məsələ ondadır ki, hazırda Ermənistan Rusiya üçün, bir növ, şıltaq, yolunu azmış uşaq kimidir. Şimalda ölkənin Kremlin orbitindən çıxması reallığı ilə heç cür barışmırlar, üstəlik, "bəlkə də qayıtdılar" gözləntisi var. Təbii ki, rəsmi Moskva vurğunu bu məqamın üzərinə qoya bilməz. Hərçənd, rus ictimai rəyində Ermənistanı və erməniləri nankor obrazında qələmə verən təqdimatlara da rast gəlinməkdədir. Məsələn, Rusiya dövlətinin nümayəndələri qurumdakı təsirlərini nəzərdə alaraq dəfələrlə bildiriblər ki, Ermənistanın təhlükəsizliyinin qarantı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatıdır. O təşkilat ki, İrəvan ora üzv olsa da, faktiki olaraq, fəaliyyətini dondurub. Simonyanın isə bu il aprelin 4-də bir açıqlaması var ki, spiker həmin açıqlamada ölkəsinin təhlükəsizlik qarantı olaraq Azərbaycanın adını çəkir. Bəs Rusiya? Bəs KTMT?

Ermənistan Milli Assambleyası sədrinin bu fikri Rusiyada heç cür xoş qarşılanmadı. Hətta haqqında söz açdığımız nankor damğalarının sıralandığını da gördük. Ümumən, rəsmi İrəvan tərəfindən Moskvada qıcıq doğuran çoxsaylı açıqlamalar verilib və onların hər birinin üzərində dayanmaq lüzumsuzdur. Görünən dağa nə bələdçi? O zaman Simonyanın əvvəldə diqqətə çatdırdığımız fikri konkret hansı səbəbdən dilə gətirdiyi üzərində dayanaq. Amma əvvəlcə bir məqama toxunaq.

Məlumdur ki, hazırda Azərbaycan–Rusiya münasibətləri rəvan müstəvidə deyil. 2024-cü ilin dekabrındakı məlum təyyarə olayı ilə bağlı tərəflər arasında hələ aradan qalxmayan soyuqluq yaranıb. Bununla əlaqəli bir sıra hadisə və prosesləri də görmüşük. Məsələn, Rusiyada Azərbaycana qarşı hərbi müdaxilə hədəli çağırışlar eşidilib. Bundan başqa, ölkənin ayrı-ayrı yerlərində, belə demək mümkünsə, azərbaycanlılara qarşı ayrı-seçkilik həyata keçirilib. Soydaşlarımız qəddar və qanunsuz münasibətlə, aşkar ədalətsizliklərlə üzləşiblər. O soydaşlarımız ki, iş adamları və sahibkarlardırlar. Görünür, Rusiyada kimlərsə zənn edib ki, bu sayaq davranışlarla ölkəmizə təzyiq göstərmək mümkündür. Əlbəttə, belə hesablamalar heç bir fayda vermədi və verə də bilməz. Azərbaycanın tutduğu ədalətli yoldan dönməsi mümkünsüzdür.

Əlqərəz, indi erməni jurnalistlər İrəvanın Moskva ilə münasibətlərindəki gərginliyə fokuslanaraq Rusiyanın ənənəvi davranış xəttini yada salır və Simonyana təxminən belə bir sual ünvanlayırlar: erməni biznesmenlər Rusiyada problemlərlə üzləşə bilərmi? Spiker cavabında əvvəldə diqqətə çatdırdığımız fikri dilə gətirib və eyni zamanda, bunları deyib: "Biz bütün məsələləri aradan qaldıracağıq və onları həll etməyə çalışacağıq. Biz Rusiya üçün heç bir təhlükə yaratmırıq, belə bir niyyətimiz də yoxdur.

Əgər hansısa problemlər varsa, onlar bütün ölkələr arasında mövcuddur, müəyyən vaxtlarda kəskinləşir, digər vaxtlarda isə səngiyir". Əlbəttə, A.Simonyan problemlərin istənilən dövlətin digər dövlətlə münasibətlərində meydana çıxa bilməsinin mümkünlüyünü çox doğru vurğulayır. Başqa nə desin? Şübhəsiz ki, o da Rusiya ilə bağlı durumun fərqli olduğunun fərqindədir. Axı Kremlin problemləri həlletmə sahəsində öz metodları var. Bunu erməni jurnalistlər də anlayırlar. Ola bilər, onlar azərbaycanlı biznesmenlərə və iş adamlarına təzyiqləri görüblər və eyni halın erməni biznesmenlər və iş adamları üçün yaşanacağından ehtiyatlanırlar. Elə isə keçək əvvəldə anons etdiyimiz başlıca məqama.

Hesab edirik ki, nəinki hay jurnalistlərin, eləcə də Ermənistanın ictimai rəyinin digər təmsilçilərinin rəsmi İrəvanın Moskva ilə münasibətlərinə görə Rusiyadakı ermənilərin xoşagəlməz durumla üzləşəcəyini ehtimal edib ehtiyatlanmalarına əsas yoxdur. Çünki Rusiyada erməni sevdası var. O sevda o dərəcədə güclü fazaya malikdir ki, azərbaycanlı sahibkarların başlarına gətirilən oyunlarla erməni sahibkarların üzləşmələri qeyri-mümkündür. Şübhəsiz, A.Simonyanın jurnalistlərin suallarını son dərəcə rahat və arxayın tərzdə cavablandırması da bu reallıqla, yəni Rusiyada olan və bitib-tükənmək bilməyən erməni sevdası ilə bağlıdır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# TDT və yeni çağırışlar



**II MƏQALƏ**

## Türk ölkələri: doğma münasibətlər

Hazırda bu məsələ siyasi, geosiyasi və qarşılıqlı faydalı əməkdaşlığın perspektivi baxımından çox önəmlidir. Həm də vəziyyət bununla məhdudlaşmır – çağdaş qlobal geosiyasətin şərtləri sosial anlamı olan "çox xoş və isti münasibətlərin" ölkələrarası münasibətlərə gerçək proyeksiyasını tələb edir. Bu, özlüyündə asan proses deyil.

Çünki əgər söhbət həqiqi anlamda siyasi və geosiyasi müstəvidə çox xoş və isti münasibətlərdən gedirsə, məsələnin emosional tərəfi arxa plana keçməli və vurğulanan vəziyyətin yaranmasını motivə edə biləcək siyasi, geosiyasi, informasiya, ideoloji, mənəvi-əxlaqi və mədəni faktorları müəyyənləşdirilməlidir. Bu da öz növbəsində, dərindən düşünülmüş siyasi, mədəni, mənəvi, ideoloji proqramların həyata keçirilməsini tələb edir.

Azərbaycan Prezidentinin Türk dünyası üçün siyasi təşkilatlanma, ona konkret və dəqiq siyasi-hüquqi, mədəni, mənəvi, əxlaqi və ideoloji yön vermə istiqamətlərində verdiyi əvəzolunmaz töhfələrin sırasında xüsusi yer tutur. Bu fikrimizi zamanın gedişatının əyani, konkret və dəqiq təsdiq edəcəyinə qətiyyən şübhə etmirik. Bir qayda olaraq "strateji zamanı" heç də hər kəs "indi də" tam dərk edə bilmir. Burada hər hansı metafizik mübahisələr də faydasızdır. Yalnız əlahəzrət təcrübə, feili fəaliyyətin verdiyi praktiki nəticələr və onlardan milyonlarla sadə insanın faydalanma dərəcəsi həqiqəti "zamanın üfüqündə" parladır.

Türk dünyasının bu cür xidmətə nə qədər ehtiyacı olduğunu sübut etməyi lazım bilənlər sadəcə xəyalən və fikrən 300 il bundan əvvələ dönüb baxsınlar. Orada fərd kimi türkün əzabı, əziyyəti, hüququnun pozulması, aşağılanması, yurdundan kütləvi şəkildə qovularaq həm də günahkar çıxarılması, bir qövm olaraq (türk müsəlman) dövlətçiliyimizə olan qəddar qəsdləri, tayfaları, regionları, bölgələri bir-birinə düşmən etmək üçün min bir hiylələri, xanları və bəyləri bir-birinə qarşı qoymağı görsünlər!

Bunlar bizim acı həqiqətlərimizdir, bir başqasının deyil! Azərbaycan Prezidenti İlham Əliyev çox dəyərli və adekvat dərk edilməsi zərurəti gün kimi aydın olan bir anlayış daxil etmişdir: "milyonlarla insanın etnik təmizləməyə məruz qaldığı işğal şəraitində yaşamaq təcrübəsi".

Bu fikri daha geniş zaman kontekstinə proyeksiya etdikdə aktuallığı çox önəmli olan bir müddəa alırıq – 10 milyonlarla türk insanının (azərbaycanlılar, türkiyəlilər, qazaxıstanlılar, özbəkistanlılar, qırğızıstanlılar, türkmənistanlılar, kiprlilər və müstəqil dövlətləri olmayan çoxlu sayda türk toplumları) etnik təmizləmədən tutmuş siyasi, sosial, hüquqi, mənəvi, mədəni, əxlaqi haqsızlıqlara, ədalətsizliklərə düçar olmalarının dəqiq məzmunlu təcrübəsi konseptual səviyyədə yenidən dərk edilməlidir! Sözün həqiqi mənasında türk xalqları vurğulanan aspektdə "dünya miqyasında nadir bir təcrübəyə malikdir"lər və onun mərkəzində, nüvəsində azərbaycanlıların acı təcrübəsi dayanır! Bu, tarixi, geosiyasi, siyasi və dövləti mənası çox dərin olan məsələni gündəmə məhz Azərbaycan Prezidenti gətirmişdir.

Deməli, məsələ TDT kontekstində "çox acı təcrübədən" "çox xoş və isti münasibətlərə" keçidin fəlsəfi və siyasi-nəzəri adekvat dərki ilə sıx bağlıdır. Bunun iki tərəfi mövcuddur - birincisi, əsaslı və çağdaş elmi kriteriyalarla konseptuallaşdırma, ikincisi, konkret proqramlarla reallaşdırma. Çünki nəzəri-konseptual elmilik baxımından nə qədər əsaslı və ciddi olsa da, onu praktiki həyata keçirmək proqramları olmadan faydasız olacaqdır! Prezident İlham Əliyev bu məsələni "çox xoş və isti münasibətlər" tezisi ilə aktuallaşdırır.

İndi bu tezisin ümumi siyasi və geosiyasi anlamları çərçivəsində müxtəlif aspektlərinə baxaq.

## Kim və nə?

Əlbəttə, hər şeydən öncə liderlər bu prosesi aparmalı və istiqamətləndirməlidirlər. Onun nümunəsini Prezident İlham Əliyev artıq bir neçə ildir ki, siyasi təcrübə səviyyəsində göstərir. Azərbaycan lideri həmin məqamı həm vurğulayır, həm də mütləq ona uyğun proqramlar həyata keçirir. Bu baxımdan İlham Əliyevin Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumət başçılarının/Vitse-prezidentinin görüşünün iştirakçılarını qəbulu zamanı ifadə etdiyi aşağıdakı fikirləri bir daha vurğulamağa dəyər.

Dövlət başçısı demişdir: "Bütövlükdə Azərbaycan Türk Dövlətləri Təşkilatının inkişafına əvvəllər və bu gün böyük töhfə verir və verəcək. Bu, bizim xarici siyasətimizdə prioritet məsələlərdən biridir... Xarici siyasətimizdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə bizim əlaqələrimiz prioritet təşkil edir. Bu ölkələrlə bizim tarixi, mədəni, etnik köklərimiz gözəl təməl formalaşdırır və bu gün müstəqil dövlətlər kimi biz bütün beynəlxalq təşkilatlarda da vahid mövqedən çıxış edirik, bir-birimizi dəstəkləyirik. Təbii ki, təşkilatımızın gələcək inkişafı ilə bağlı növbəti addımlar atılacaq".

Dövlət başçısının bu sözlərinin arxasında həm şəxsi təşəbbüsləri, həm də onların nəticəsi olan konkret proqramlar dayanır. Azərbaycan TDT-nin təşkilat olaraq inkişaf etməsi üçün həm siyasi-hüquqi baza yaratmaq istiqamətində addımlar atır (məsələn, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanla ikitərəfli və üçtərəfli formatda siyasi-hüquqi, əməkdaşlıq, layihələr, təhlükəsizlik sazişlər imzalayır), həm də onların həyata keçməsi üçün konkret istiqamətlər üzrə praktiki layihələri həyata keçirir.

Nümunə kimi, informasiya, elm, təhsil, nəqliyyat, loqistika, rəqəmsallıq, gömrük və digər sferalar üzrə artıq işlək olan proqramları göstərə bilərik. Onu vurğulayaq ki, Türkiyə ilə əlaqələr daha öndədir, lakin son illər xüsusilə, Qazaxıstan və Özbəkistan istiqamətləri də xeyli fəallaşmışdır. Hər iki türk dövləti ilə strateji müttəfiqlik haqqında müqavilə imzalanmışdır. Ən əsası odur ki, bu proses çoxyönlü olaraq davam etdirilir. Həmin bağlılıqda liderlərin fəaliyyətlərini xarakterizə edən faktlara nəzər salaq.

## TDT-də türk özəlliyi

Azərbaycan Prezidenti İlham Əliyev 2025-ci ildə Qazaxıstanın "Kazinform" agentliyinə verdiyi müsahibədə vurğulamışdır ki, "son onilliklər ərzində tarixi qardaşlıq, dostluq və qarşılıqlı dəstək bağlarına, ortaq türk identikliyinin möhkəm təməlinə, xalqlarımız arasında oxşar mədəni ənənələrə və mənəvi dəyərlərə əsaslanaraq, həqiqətən strateji və müttəfiq tərəfdaşlıq qurmuşuq".

2024-cü ildə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Astanada Prezident İlham Əliyevlə apardığı müzakirə zamanı ifadə etmişdir ki, Bakıya və Şuşaya səfərim "həqiqətən də dönüş nöqtəsi, vacib bir səfər idi - mübaliğəsiz, əhəmiyyətinə görə tarixi bir səfər".

Çox maraqlıdır ki, bir sıra böyük dövlətlərin rəsmi dairələrinə yaxın olan informasiya agentlikləri Azərbaycan Prezidentinin Astanaya səfərini yüksək qiymətləndirmiş və informasiyalar yaymışlar. Bu sırada bütövlükdə TDT üçün əhəmiyyəti olan rəsmi Pekinin mövqeyi diqqəti çəkir.

Çin hökumətinin "Sinxua" İnformasiya Agentliyi vurğulamışdır ki, səfər çərçivəsində dövlət başçıları siyasi dialoqun daha da gücləndirilməsinə, ticarət-iqtisadi əlaqələrin genişləndirilməsinə, tranzit və nəqliyyat potensialının inkişaf etdirilməsinə sadiq olduqlarını bir daha təsdiqləmişlər. Bunun təsdiqi kimi Azərbaycanla Qazaxıstanın 15 sənəd imzaladığı xüsusi qeyd edilmişdir.

Eyni fikirləri Azərbaycan-Özbəkistan əlaqələrinin inkişaf xüsusiyyətləri haqqında söyləmək olar. TDT-nin bu iki üzvü arasında hazırda ciddi siyasi-hüquqi bazası olan çoxlu sayda sənədlər imzalanmış, münasibətlərin inkişaf kursu dəqiq müəyyən edilmişdir. Həmin kurs siyasəti, iqtisadiyyatı, ticarəti, nəqliyyatı, loqistikanı, təhlükəsizliyi, informasiyanı, rəqəmsallaşmanı və regionlararası mahiyyəti olan geosiyasi prosesləri əhatə edir.

Bütün bunların fonunda TDT çərçivəsində Azərbaycan-Mərkəzi Asiya türk dövlətləri arasında münasibətlərin inkişaf dinamikası Prezident İlham Əliyevin aşağıdakı fikirlərində dolğun ifadə edilmişdir.

2025-ci ildə Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət görüşündə Azərbaycan lideri demişdir: "Azərbaycan Mərkəzi Asiya ölkələri ilə müttəfiqlik və strateji tərəfdaşlıq, o cümlədən birgə investisiya fondlarının yaradılması haqqında müqavilə və bəyannamələr imzalayıb. Mütəmadi olaraq keçirilən mədəniyyət günləri, sərgilər, konsertlər xalqlarımızı daha da yaxınlaşdırır, bizim yaxınlığımızı, dostluğumuza verdiyimiz dəyəri nümayiş etdirir. Xüsusilə qeyd edək ki, artıq Füzuli şəhərində Mirzə Uluqbəy adına məktəb və Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzi, Ağdamda isə Manas məktəbi fəaliyyət göstərir. Bu, özbək, qazax və qırğız qardaşlarımızın hədiyyələridir.

Bu ilin oktyabrında Füzulidə Türkmənistanın qardaşlıq dəstəyinin rəmzinə çevriləcək məscidin təməli qoyulub. Bütün bunlar qardaşlığımızın və həmrəyliyimizin sübutu kimi qədirbilən Azərbaycan xalqının yaddaşında qalacaqdır.

Bu gün Azərbaycan və Mərkəzi Asiya Şərqlə Qərb, Şimalla Cənub arasında birləşdirici bənd və körpüdür".

Vurğulanan məqamlar yeni çağırışlar fonunda liderlərin TDT-nin inkişafı üçün davamlı, əsaslı və siyasi-hüquqi bazası möhkəm olan proqramlar həyata keçirdiyini göstərir. Onları ən azı iki istiqamətdə ümumiləşdirmək mümkündür.

Birincisi, TDT-də inteqrasiya prosesini konkret və dəqiq müəyyən edilmiş strateji məqsədi olan və ardıcıl qaydada həyata keçirilən vahid proses kimi xarakterizə etmək olar. Yəni həmin prosesin geosiyasi, iqtisadi, mədəni, mənəvi, siyasi, hüquqi və kommunikativ bazası artıq xeyli dərəcədə formalaşmışdır. Bu proses dinamik olaraq davam edir.

İkincisi, türk dövlətləri liderləri TDT-də geosiyasi və siyasi anlamda çox xoş və isti münasibətlərin qalıcı olması üçün mümkün olan bütün addımları atırlar. Bu zaman, qlobal geosiyasətdə özünü göstərən sürətli dəyişmələr faktoru əsaslı şəkildə nəzər alınır. Onun əlamətlərindən biri 2026-cı ildə İrandan Azərbaycan tərəfə buraxılan dronlara TDT-nin verdiyi kollektiv və qəti reaksiyada ifadə olundu. TDT göstərdi ki, üzv dövlətlərin hər birinin təhlükəsizliyinin təmini həm də TDT-nin məsələsidir.

Bunlar liderlərin yeni çağırışlar fonunda TDT-nin inkişafı ilə bağlı atdıqları addımları geosiyasi kontekstdə ümumiləşdirməyə imkan verir. Eyni zamanda, təşkilatın gələcəyi üçün türk toplumlarının əhəmiyyətinin aktuallığı ön sıraya çıxır. Onu nəzərə almaq lazımdır ki, TDT kontekstində türk toplumlarının siyasi, ideoloji, ünsiyyət aspektləri ilə yanaşı, media (informasiyanın məzmunu və mübadiləsi zamanı TDT faktorunun nəzərə alınması baxımından) sferasında tutulan mövqe ciddi əhəmiyyət kəsb etməkdədir. Bu, türk dövlətlərinin vahid məqsəd ətrafında toparlanması müstəvisində prinsipial məqamdır. Onun üzərində geniş dayanmaq lazımdır.

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Avropa sağçılarının populizm "güzgüsü" niyə çat verir?

## *Orbanın məğlubiyyəti Polşa üçün də siyasi xəbərdarlıqdır*

**Viktor Orbanın Macarıstanda məğlubiyyəti Avropa siyasətində uzun müddət gizli şəkildə formalaşan tarazlığı pozdu, sağ-populist idarəetmə modelinin dayanıqlılığı barədə ciddi suallar yaratdı. Orban illər boyu Avropada alternativ siyasi yolun mümkünlüyünü sübuta yetirmiş lider kimi təqdim edilirdi. Onun hakimiyyət modeli qitə daxilində ideoloji istinad nöqtəsinə çevrilmişdi. Ona görə də Orbanın məğlubiyyəti daha geniş ideoloji narrativin zəifləməsi kimi dəyərləndirilir.**




Macarıstanda seçkilərin nəticələrinin təsiri ən çox Polşada hiss olunur. Çünki "Hüquq və ədalət" (PiS) partiyası uzun müddətdir Orbanın siyasi təcrübəsini öz strategiyasına yaxın model kimi qəbul edirdi. Üstəlik, 2 siyasi qüvvə arasındakı oxşarlıq ritorik səviyyə ilə yekunlaşmır, onlar Avropa İttifaqına qarşı skeptik mövqe, milli suverenliyin önə çəkilməsi, liberal institutların tənqidi və güclü icra hakimiyyəti anlayışı ilə eyni siyasi istiqamətdə hərəkət edirdilər. Həmin oxşarlıq zamanla ideoloji həmrəyliyə çevrilmişdi və Orban PiS üçün "uğurlu model" funksiyasını daşıyırdı. Lakin Budapeştdəki seçkilər sözügedən modelin sabit olmadığını göstərdi. Orbanın məğlubiyyəti yığılan narazılıqların nəticəsi kimi qiymətləndirildi. İqtisadi problemlər, institusional etimadın zəifləməsi, korrupsiya iddiaları və siyasi yorğunluq bu nəticənin əsas fonunu təşkil etdi. Qeyd etdiyimiz amillər bir araya gəldikdə isə ideoloji sabitlik öz yerini praktik narazılığa verdi. Bu isə Avropada sağçıların uzun müddət nəzərə almaq istəmədiyi bir həqiqəti üzə çıxardı. Bir daha məlum oldu ki, siyasi ideologiya nə qədər güclü görünürsə-görünsün, gündəlik idarəetmə keyfiyyəti onu məhv etmək gücünə malikdir.

Ona görə də Polşada Macarıstanda baş verən siyasi hadisələr diqqətlə izlənilir. Qısa bir xatırlatma edək ki, PiS daxilində Orbanla münasibət strateji güvən hissi yaratmışdı. Hesab edilirdi ki, guya Avropada liberal mərkəzə alternativ bir blok formalaşır və bu blok uzunmüddətli perspektivdə siyasi üstünlük qazana bilər. Orban isə həmin blokun ən sabit fiquru kimi qəbul olunurdu. Onun uzunmüddətli hakimiyyəti dayanıqlılıq ideyasını gücləndirirdi. Lakin situasiyanın anidən dəyişməsi Polşada sağ qüvvələrin öz strategiyasını yenidən düşünməsini qaçılmaz edib. Əslində, məsələni daha dərindən təhlil etsək görərik ki, PiS üçün əsas problem Orbanın məğlubiyyətinin ideoloji tərəflərindən çox, strateji nəticələridir. Çünki partiyanın son illərdə qurduğu siyasi xəritədə Macarıstan mühüm yer tutur, sağ populist hökumətlər bir-birini gücləndirən mərkəzlər kimi təsəvvür edilirdi. Brüsselə qarşı ortaq mövqe, suverenlik ritorikası və Qərb liberalizminə tənqidi yanaşma həmin mərkəzləri birləşdirirdi.

Paraleldə partiya daxilində yeni narahatlıqlar da formalaşıb. Orbanın Rusiyaya yanaşması Polşada həmişə mübahisəli olub. Onun Moskva ilə daha yumşaq və praqmatik münasibəti Varşavada strateji uyğunsuzluq kimi qəbul edilirdi. Maraqlıdır ki, bu uyğunsuzluq ideoloji yaxınlıq fonunda ikinci plana keçmişdi.

"Vətəndaş Platforması" (PO) partiyası isə Macarıstandakı dəyişimi Avropa miqyasında siyasi dönüş kimi təqdim etməyə çalışır. Partiyanın lideri Donald Tusk üçün Orbanın məğlubiyyəti həm də Avropada siyasi normallığın yenidən mümkünlüyü kimi dəyərləndirilir. O, siyasi mübarizəni institusional səmərəlilik məsələsi kimi qələmə verməklə ölkədəki seçici davranışında tədrici dəyişiklik yaranacağına inanır. Çünki bir çox seçici üçün ideoloji kimlikdən daha vacib gündəlik həyatın stabilliyidir. Qiymətlərin sabitliyi, dövlət xidmətlərinin keyfiyyəti və institusional etimad bu baxımdan həlledici rol oynayır. Bu nöqtədə PiS üçün də əsas çağırış dəyişir. Partiya bir tərəfdən Orban modelinə daha yaxın qalaraq öz elektoratını qorumağa çalışa bilər ki, bu, Avropa daxilində daha çox təcrid riski yaradar. Digər tərəfdən, sözügedən modeldən uzaqlaşmaq partiyanın daxili elektoratının bir hissəsini itirməsi ilə nəticələnə bilər.

Ümumən Avropa miqyasında daha geniş dəyişiklik hiss olunur. Sağ–populist hərəkatlar artıq özlərini qalib dalğa kimi təqdim etməkdə çətinlik çəkirlər. Siyasi proseslərin qaçılmazlığı ideyası yerini daha qeyri-müəyyən bir reallığa verir. Seçkilərə gəldikdə, proses situativ qərarların nəticəsi kimi görünür. Nəzərə alsaq ki, Polşada siyasi sistem artıq uzun müddətdir güclü qütbləşmə ilə xarakterizə olunur. Belə sistemlərdə siyasi dəyişikliklər çox vaxt kəskin dönüşlər şəklində baş verir. Orbanın məğlubiyyəti bu baxımdan potensial siqnal rolunu oynayır. Məsələyə beynəlxalq faktorlar da təsir göstərir. ABŞ ilə münasibətlər, xüsusilə Trampla siyasi əlaqələr Polşa sağının ideoloji çərçivəsində mühüm yer tutsa da, Avropa daxilində həmin əlaqələrin interpretasiyası fərqlidir. ABŞ-a yaxınlıq əksər hallarda Avropa institutlarına qarşı alternativ mərkəz kimi qəbul edilir. Nəticədə əlavə balans problemi yaranır.

Sonda bu qənaətə gəlmək olar ki, Budapeştdəki seçkilərin nəticələri Avropada sağ-populist idarəetmə modelinin sərhədlərinin yenidən müəyyənləşdirilməsi prosesidir. Çünki ideoloji sabitlik seçici davranışını daimi şəkildə yönləndirməyə kifayət etmir. Siyasi üstünlük institusional etimad və gündəlik idarəetmənin keyfiyyəti ilə qorunur. Avropa siyasətində güc balansı artıq daha çevik və dəyişkən xarakter almağa başlayır.

*Nəzrin ELDARQIZI*
*XQ*

*Ekspert rəyi*



**Stüard DOUELL, siyasi şərhçi, Polşa İctimai Televiziyasına açıqlamasından:**

– Polşada sağçılar hazırda üç əsas dilemma ilə üz-üzədir. Birincisi, artıq eyni istiqamətə yönəlməyən ideoloji dayaqların uyğunsuzluğudur. Ölkədə mühafizəkarlar uzun müddət eyni vaxtda bir neçə dayağa söykənmişdilər. Daha dəqiq desək, Roma Papası II İoann Pavel, milli suverenlik ideyası və ABŞ ilə strateji ittifaq modelinə. Sözügedən elementlər bir-birini gücləndirdiyi müddətdə işlək idi, lakin Orbanın məğlubiyyəti və Trampın Vatikanla açıq ziddiyyətə girməsi göstərdi ki, həmin dayaqlar həmişə eyni istiqamətdə hərəkət etmir.

İkinci dilemma seçici koalisiyasının getdikcə daha çətin idarə olunmasıdır. "Hüquq və ədalət" (PiS), eləcə də ümumilikdə sağ blok ənənəvi katolik seçiciləri, güclü anti-Rusiya mövqeyinə malik mühafizəkarları, həmçinin Tramp üslublu daha radikal və qarşıdurma yönümlü siyasətə meyilli gənc seçici qruplarını bir arada saxlamağa çalışır. Həmin gərginlik artıq açıq şəkildə müşahidə olunur. Maraqlıdır ki, sağ düşərgəyə yaxınlığı ilə tanınan tarixçi Slavomir Çenkyeviç Karol Navrotski ilə bağlı çevrədə yer alaraq Rusiya məsələsində Orban xəttindən uzaqlaşdı. Paraleldə Roma Papası məsələsində də Trampın mövqeyi ilə açıq şəkildə razılaşmadığını bəyan etdi.

Üçüncü dilemma isə "dinamika və yüksəliş" anlayışının zəifləməsidir. Son illərdə Polşa sağçıları ABŞ və Macarıstanı daha geniş sağ-populist dalğanın tərkib hissəsi kimi təqdim edirdilər. Lakin Orbanın məğlubiyyəti bu xətti pozdu. Trampın mövqeyi isə sağ düşərgənin dayandığı əsasları sarsıda biləcəyini göstərməklə vəziyyəti daha da mürəkkəbləşdirdi.

# Dövlət idarəetməsində rəqəmsallaşma

*Müsahibimiz Azərbaycan Qiymətləndiricilər Palatasının sədr müavini Günay İsmayılqızıdır*

**Azərbaycan Respublikasında dövlət idarəetməsində rəqəmsallaşma son illərdə yeni inkişaf mərhələsinə qədəm qoyub. Xüsusilə Prezident İlham Əliyev tərəfindən imzalanan fərman və sərəncamlar bu sahənin artıq strateji prioritet kimi müəyyən olunduğunu göstərir. Bu yanaşma yalnız texnoloji yenilənməni deyil, bütövlükdə idarəetmə sisteminin daha çevik, şəffaf və vətəndaşyönümlü modelə keçidini təmin edir.**




Bu kontekstdə rəqəmsallaşmanın qiymətləndirmə sahəsinə təsiri və bu istiqamətdə aparılan institusional işlər xüsusi diqqət mərkəzindədir.

***–Son dövrlərdə qiymətləndirmə sahəsində rəqəmsallaşma istiqamətində hansı işlər görülür?***

–Hazırda qiymətləndirmə sahəsində rəqəmsallaşma istiqamətində çox ciddi və sistemli işlər həyata keçirilir. Xüsusilə vurğulamaq istərdim ki, Qiymətləndiricilər Palatası tərəfindən dövlət qurumları ilə mütəmadi və məqsədyönlü rəsmi yazışmalar aparılır. Bu yazışmaların əsas məqsədi qiymətləndirmə fəaliyyətinin tam elektron formata keçirilməsini təmin etməkdir. Qarşıya qoyulan əsas hədəf kağız daşıyıcıların minimuma, perspektivdə isə sıfıra endirilməsidir.

Artıq qiymətləndirmə sifarişlərinin qəbulu, icrası və nəticələrin təqdim olunmasının tam rəqəmsal platformalar üzərindən həyata keçirilməsi istiqamətində intensiv işlər gedir.

***–Sözügedən proses qiymətləndirmə fəaliyyətində hansı keyfiyyət dəyişikliklərinə səbəb olacaq?***

–Tam rəqəmsallaşma qiymətləndirmə fəaliyyətində fundamental dəyişikliklərə səbəb olacaq. Bu dəyişikliklər, ilk növbədə, vahid elektron platformanın yaradılması ilə özünü göstərəcək. Bütün sifarişlərin və hesabatların mərkəzləşdirilmiş sistemdə toplanması proseslərin daha səmərəli idarə olunmasına imkan verəcək.

Rəqəmsal mühitdə qiymətləndirmə proseslərinin izlənilə bilən olması hər bir mərhələnin şəffaf şəkildə monitorinqini təmin edəcək. Bu isə həm nəzarət mexanizmlərini gücləndirəcək, həm də ümumi etibarlılığı artıracaq. Eyni zamanda, standartlaşma prosesi sürətlənəcək, qiymətləndirmə metodlarının vahid sistem əsasında tətbiqi təmin olunacaq.

Operativlik və dəqiqlik də rəqəmsallaşmanın əsas üstünlüklərindən biri kimi önə çıxır. İnsan faktorundan qaynaqlanan gecikmələr və səhvlər minimuma enəcək, proseslər daha sürətli və dəqiq icra olunacaq.

***–Bələdiyyə torpaqlarının qiymətləndirilməsi və sənədsiz tikililər məsələsində rəqəmsallaşmanın rolu nədən ibarətdir?***

–Bu məsələ xüsusi aktuallıq kəsb edir. Ölkədə mövcud olan sənədsiz tikililər problemi uzun müddətdir ki, həm vətəndaşlar, həm də dövlət üçün müəyyən çətinliklər yaradır. Bu tikililərin böyük hissəsinin bələdiyyə torpaqları üzərində yerləşməsi isə məsələni daha da mürəkkəbləşdirir. Rəqəmsallaşma bu istiqamətdə əsas həll alətlərindən biri kimi çıxış edir.

Elektron xəritələşdirmə, məlumat bazalarının inteqrasiyası və avtomatlaşdırılmış qiymətləndirmə sistemlərinin tətbiqi bir sıra mühüm üstünlüklər yaradır. Bu yanaşma sayəsində torpaq sahələrinin dəqiq identifikasiyası mümkün olur, tikililərin real vəziyyəti obyektiv şəkildə qiymətləndirilir. Sənədləşmə prosesləri sürətlənir və sadələşir ki, bu da ümumi idarəetmə səmərəliliyini artırır. Rəqəmsal alətlərin tətbiqi məlumatların daha operativ emalına və daha etibarlı nəticələrin əldə olunmasına imkan verir. Bu proseslər həm vətəndaşların hüquqlarının daha effektiv təmin olunmasına, həm də dövlət uçot sisteminin dəqiqləşdirilməsinə xidmət edir.

***–Qiymətləndiricilərin bu prosesdə rolu və məsuliyyəti necə dəyişir?***

–Yeni mərhələdə qiymətləndiricilərin rolu daha da artır. Onlar artıq yalnız qiymət müəyyən edən mütəxəssis deyil, həm də rəqəmsal sistemlər üzərində işləyən, analitik yanaşma tətbiq edən peşəkarlar kimi çıxış edəcəklər. Xüsusilə nəzərə almaq lazımdır ki, dövlət tərəfindən qiymətləndirmə fəaliyyətinə göstərilən etimad və gözlənti kifayət qədər yüksəkdir. Bu isə qiymətləndiricilərin üzərinə həm peşəkar, həm də mənəvi məsuliyyət qoyur. Bu məsuliyyətin əsas mahiyyəti ondan ibarətdir ki, proseslər obyektiv və peşə etikası çərçivəsində həyata keçirilsin və peşənin nüfuzu qorunsun.

***–Rəqəmsallaşma ümumilikdə dövlət idarəetməsinə hansı yenilikləri və sıçrayışları gətirəcək?***

–Rəqəmsallaşma dövlət idarəetməsində keyfiyyətcə yeni mərhələnin əsasını qoyur. Bu proses yalnız modernləşmə ilə yekunlaşmır, eyni zamanda, idarəetmə sistemində sıçrayış effekti yaradır və bir sıra istiqamətlər üzrə özünü aydın şəkildə göstərir. İlk olaraq, məlumat əsaslı idarəetmə prinsipi güclənir. Qərarların qəbulu artıq real statistik göstəricilər və analitik təhlillər əsasında həyata keçirilir ki, bu da idarəetmədə dəqiqliyi və effektivliyi artırır. Bununla yanaşı, inteqrasiya olunmuş sistemlərin tətbiqi dövlət qurumları arasında əlaqəni yeni səviyyəyə qaldırır. Məlumat mübadiləsinin sürətlənməsi idarəetmədə çevikliyi təmin edir və vaxt itkilərini minimuma endirir. Rəqəmsallaşma, həmçinin obyektivlik və hesabatlılıq mexanizmlərini gücləndirir. Proseslərin izlənilə və ölçülə bilən olması şəffaflığı artırır, ictimai nəzarət imkanlarını genişləndirir.

Eyni zamanda, vətəndaş mərkəzli xidmət modelinin inkişafı diqqət mərkəzinə keçir. Dövlət xidmətləri daha əlçatan, operativ və rahat formaya salınır. Bu da vətəndaş məmnuniyyətini yüksəldir. Bu yanaşma dövlətlə vətəndaş arasında münasibətləri yeni keyfiyyət müstəvisinə çıxararaq daha müasir və effektiv idarəetmə modelinin formalaşmasına zəmin yaradır.

***–Dövlət qurumları üçün bu transformasiyanın əsas faydaları nələrdir?***

–Dövlət qurumları üçün rəqəmsallaşma resursların daha səmərəli idarə olunması iş yükünün optimallaşdırılması, qərarvermə sürətinin artırılması, korrupsiya risklərinin azaldılması, kimi mühüm üstünlüklər yaradır. Eyni zamanda, bu proses dövlət aparatının çevikliyini artırır və onu müasir çağırışlara daha uyğun edir.

***–Sonda bu proseslə bağlı əsas mesaj nədir?***

–Əsas mesaj ondan ibarətdir ki, rəqəmsallaşma artıq gələcəyin deyil, bu günün reallığıdır. Azərbaycan bu istiqamətdə ardıcıl və məqsədyönlü siyasət həyata keçirir və bu siyasət dövlət idarəetməsinin bütün sahələrində, o cümlədən qiymətləndirmə sektorunda öz real nəticələrini verməkdədir. Əminliklə demək olar ki, bu yanaşma nəticəsində həm dövlətin institusional gücü artacaq, həm də vətəndaş məmnuniyyəti daha yüksək səviyyəyə çatacaq.

***Söhbəti qələmə aldı:***
***Musa BAĞIRLI***
***XQ***

*Milli valyutada yenilik*

# Azərbaycanın təzələnmiş 100 manatlığı

**Azərbaycan Mərkəzi Bank (AMB) tərəfindən tədavülə yenilənmiş pul nişanı buraxılır. Bu barədə AMB məlumat verib. Bildirilib ki, beynəlxalq təcrübədə pul nişanlarının saxtalaşdırılmasına qarşı mübarizənin gücləndirilməsi, ən son texnologiya və innovasiyaların tətbiqi və insanların məmnunluğunun təmin edilməsi məqsədilə mərkəzi banklar tərəfindən dövri olaraq pul nişanlarının dizaynında və mühafizə sistemlərində yenilənmələr aparılır.**







Azərbaycan Mərkəzi Bankı da beynəlxalq təcrübəni nəzərə alaraq, pul nişanları sahəsində ən son innovasiyaların, nano və mikro texnologiyaların tətbiqi ilə milli pul nişanlarımızın mövcud konsepsiya çərçivəsində yenilənməsi proseslərinə başlamış və 2021-ci ildən yenilənmiş 1, 5, 10, 20 və 50 manatlıq kağız pul nişanları tədavülə buraxılıb.

Proseslərin davamı olaraq, "İqtisadiyyat və inkişaf" mövzusuna həsr olunan 100 manatlıq pul nişanının mühafizə sistemi və dizaynı mövcud konsepsiya çərçivəsində ən son texnologiya və innovasiyalar tətbiq edilməklə yenilənib.

Azərbaycan Mərkəzi Bankı yenilənmiş dizayna və ən son mühafizə elementlərinə malik 100 manatlıq pul nişanının 15 iyul 2026-cı il tarixindən tədavülə buraxılmasını elan edir.

Yenilənmiş 100 manatlıq pul nişanında ən son mühafizə elementləri olaraq üçölçülü mikrogüzgü effektində rəngi dəyişən holoqram, möcüzəvi "Spark Flow Prime" elementi (dinamik işıq effekti saçan, rəngi dəyişən Manat simvolu), su nişanı (pul nişanını işığa tutduqda Azərbaycan Respublikasının Dövlət Gerbi və nominalın rəqəmi), görmə qüsuru olanlar üçün tanıma elementi (pul nişanının ön tərəfində sağ və sol kənarlarda görmə qüsuru olanlar üçün xüsusi qabarıq xətlər yerləşir ki, bu xətlərə toxunmaqla pul nişanının həqiqiliyini və nominalını müəyyən etmək mümkündür), şaquli dizayn (banknot istehsalı sahəsində dünyada ən müasir trendə uyğun olaraq pul nişanının arxa tərəfi şaquli olaraq dizayn edilmişdir), mühafizə sapı, mürəkkəbsiz çap, mikromətnlər və s. tətbiq olunub.

Yenilənmiş 100 manatın üzərində Azərbaycan Respublikası Mərkəzi Bankının sədri Taleh Tahir oğlu Kazımovun imzası əks olunub və imza ön tərəfdə sol yuxarı küncdə yerləşir.

Hazırda ölkə ərazisində istifadə edilən bütün nağd pul sistem və avadanlıqlarının yenilənmiş 100 manatlıq pul nişanına uyğunlaşdırılması (adaptasiyası) proseslərinə başlanılıb.

Bildiririk ki, yenilənmiş 100 manatlıq kağız pul nişanı hazırda tədavüldə olan eyni nominallı pul nişanı ilə paralel olaraq dövriyyədə olacaq və tədavül vasitəsi kimi məhdudiyyətsiz istifadə ediləcək.

***XQ***

# Energetika Nazirliyinin bp ilə yeni layihə müzakirəsi




**Dünən energetika naziri Pərviz Şahbazovla bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Ciovanni Kristofoli arasında görüş keçirilib. Bu barədə XQ-yə Energetika Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, görüşdə bp şirkəti ilə strateji tərəfdaşlıq çərçivəsində neft-qaz və bərpaolunan enerji sahələrində həyata keçirilən layihələrin icra vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub. Bu kontekstdə "Azəri-Çıraq-Günəşli" (AÇG) yatağında hasilatın sabit saxlanılması, yeni texnologiyaların tətbiqi və əməliyyat səmərəliliyinin artırılması istiqamətində görülən işlər nəzərdən keçirilib.

Eyni zamanda, "Şahdəniz" yatağında aparılan fəaliyyətlər, "Şahdəniz Kompressiya" layihəsinin inkişafı və AÇG-dən sərbəst təbii qazın işlənməsi layihəsi çərçivəsində ilk qazın əldə olunması ilə bağlı yeniliklər diqqətə çatdırılıb. Söhbət əsnasında, həmçinin "Şəfəq-Asiman", "Qarabağ" və "Babək" yataqlarının işlənməsi ilə bağlı məsələlərə toxunulub, bu sahədə perspektiv imkanlar dəyərləndirilib. Qeyd olunub ki, sözügedən layihələr ölkənin qaz ixrac potensialının artırılmasına mühüm töhfə verəcək.

Görüşdə neft-qaz platformalarının və "Səngəçal" terminalının elektrikləşdirilməsi, eləcə də "Şəfəq" Günəş Elektrik Stansiyasının 2027-ci ildə istismara verilməsi istiqamətində görülən işlər də nəzərdən keçirilib.

Söhbət zamanı enerji bazarlarında mövcud vəziyyət fonunda enerji təhlükəsizliyinin prioritetliyi, enerji mənbələrinin, marşrutlarının və təchizatın şaxələndirilməsinin əhəmiyyəti vurğulanıb. Bərpaolunan enerji sahəsində sürətli inkişafla yanaşı, karbohidrogenlərin hələ də qlobal enerji istehlakında əsas paya malik olduğu və gələcəkdə də mühüm rol oynamaqda davam edəcəyi bildirilib. Azərbaycanın neft, qaz, elektrik enerjisi və bərpaolunan enerji sahələrində diversifikasiya siyasətini ardıcıl şəkildə davam etdirdiyi qeyd olunub.

Görüşdə qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi, regional enerji təhlükəsizliyinin gücləndirilməsi və Azərbaycanın beynəlxalq enerji mərkəzi kimi rolunun daha da möhkəmləndirilməsi istiqamətində birgə səylərin davam etdirilməsinin vacibliyi ifadə olunub.

***XQ***

# Dünya Bankının enerji sektoruna texniki dəstəyi

**Dünən maliyyə nazirinin birinci müavini Anar Kərimov Dünya Bankının enerji üzrə baş mütəxəssisləri, hazırkı tapşırıq qrupunun rəhbəri Rocer Koma Kunilin və yeni tapşırıq qrupunun rəhbəri Sameh Mobarekin təmsil olunduğu enerji sektoru üzrə missiya heyəti ilə görüşüb.**



Görüşdə Dünya Bankının "Bərpaolunan Enerji Mənbələrinin Şəbəkəyə İnteqrasiyası (AZURE)" layihəsinin icrası ilə bağlı ölkəmizə göstərdiyi dəstək, eləcə də Azərbaycan hökuməti ilə Dünya Bankı arasında tərəfdaşlıq çərçivəsində həyata keçirilən texniki yardım üzrə əldə olunmuş nəticələr müzakirə edilib.

Anar Kərimov Azərbaycan ilə Dünya Bankı arasında 30 ildən artıq davam edən uğurlu əməkdaşlığın qurumu ölkəmizin əsas inkişaf tərəfdaşlarından birinə çevirdiyini qeyd edib. Bu əməkdaşlıq çərçivəsində strateji əhəmiyyət daşıyan AZURE layihəsinin "Masdar" şirkəti tərəfindən inşa edilən 1 giqavat gücündə günəş və külək elektrik stansiyalarının milli enerji sisteminə inteqrasiyasını təmin etməklə ötürücü şəbəkənin gücləndirilməsinə mühüm töhfə verildiyi diqqətə çatdırılıb.

"AZURE" layihəsi çərçivəsində Batareya Enerji Saxlama Sistemlərinin maliyyələşdirilməsi perspektivinə toxunan maliyyə nazirinin birinci müavini bu təşəbbüsün şəbəkə çevikliyinin artırılması, bərpaolunan enerji mənbələrinin daha geniş miqyasda inteqrasiyası və ümumi şəbəkə dayanıqlılığının gücləndirilməsi baxımından xüsusi əhəmiyyət qeyd edib.

Öz növbəsində, Dünya Bankının nümayəndələri ölkəmizlə enerji sektorunda əməkdaşlıqdan məmnunluqlarını ifadə edərək elektrik şəbəkəsinin modernləşdirilməsi, tarif islahatları və dənizdə külək enerjisinin inkişafı istiqamətlərində texniki dəstəyin davam etdiriləcəyini qeyd ediblər. Eyni zamanda, texniki yardım nəticələrinin daha dayanıqlı və səmərəli investisiya layihələrinə çevrilməsinin, eləcə də aidiyyəti qurumlar arasında koordinasiyanın gücləndirilməsinin vacibliyi vurğulanıb.

Görüş zamanı, həmçinin növbəti mərhələdə prioritet investisiya istiqamətlərinin müəyyənləşdirilməsi, bərpaolunan enerji layihələrinin inkişafı və Dünya Bankı ilə əməkdaşlığın daha da genişləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

***XQ***

# Yerli şirkətləri tanıtma sərgisinə hazırlıq

**Bu il iyunun 17-20-də "Bakı Ekspo Mərkəzi"ndə 7-ci "Yerli şirkətlərin tanıtım sərgisi" keçiriləcək. Sərginin əsas məqsədi Azərbaycan şirkətlərinin fəaliyyətini geniş auditoriyaya tanıtmaq, onların yeni bazarlara çıxışına dəstək olmaq və şirkətlər arasında qarşılıqlı faydalı əməkdaşlığı inkişaf etdirməkdir.**

4 gün davam edəcək sərgidə inşaat, qida, İKT, təhsil, sənaye, kənd təsərrüfatı, logistika, tekstil və digər sahələrdə fəaliyyət göstərən 300-dən çox yerli şirkət öz məhsul və xidmətlərini nümayiş edəcək. Sərgi çərçivəsində, həmçinin iştirakçılar üçün xüsusi ayrılmış "B2B zona"da iri şirkətlərin satınalma və təchizat üzrə rəhbər şəxsləri ilə qarşılıqlı və interaktiv işgüzar görüşlərin keçirilməsi nəzərdə tutulur. Bununla yanaşı, sərgidə "B2G zona" da fəaliyyət göstərəcək. Bu zonada isə sahibkarlar dövlət qurumlarının nümayəndələri ilə birbaşa ünsiyyət qurmaq, mövcud dəstək mexanizmləri ilə tanış olmaq və əməkdaşlıq imkanlarını müzakirə etmək imkanı əldə edəcəklər.

Qeyd edək ki, "Yerli şirkətlərin tanıtım sərgisi" Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və "Marsol Group"un birgə təşkilatçılığı, "Birbank Biznes"in rəsmi tərəfdaşlığı ilə keçiriləcək. Bundan əlavə, İş adamları Cəmiyyətinin Milli Assosiasiyası, Dövlət Məşğulluq Agentliyi və Azərbaycan Dövlət Reklam Agentliyi sərginin tərəfdaşları sırasında yer alıb. Sərginin promo tərəfdaşı "Moon Group", media tərəfdaşı isə "BHB Strategic and Creative CO"dur.

***XQ***

# Milli energetikanın "aprel" sınağı

## *Güclülər daha güclü olacaq*




**Qlobal iqtisadiyyatın nəbzini tutan əsas amillərdən biri olan enerji bazarları yenidən qeyri-müəyyənlik burulğanına daxil olub. Dünya Bankının prezidenti Ajay Banganın son açıqlamaları bu gərginliyin miqyasını daha aydın şəkildə ortaya qoyur. Onun fikrincə, ABŞ–İsrail əməliyyatı fonunda formalaşan yeni geosiyasi reallıq neft bazarına təsirsiz ötüşməyəcək və aprel ayı martla müqayisədə daha mürəkkəb sınaqlarla yadda qala bilər.**

Beynəlxalq Valyuta Fondu və Dünya Bankının Vaşinqtonda keçirilən yaz iclasları çərçivəsində səsləndirilən fikirlər qlobal iqtisadiyyat üçün bir xəbərdarlıq siqnalıdır. Prezident Banga diqqəti xüsusilə Yaxın Şərqdə artan gərginliyə yönəldərək qeyd edir ki, mart ayında nisbətən sabit görünən mənzərə artıq dəyişmək üzrədir. Onun vurğuladığı mühüm məqam ondan ibarətdir ki, mart ayında dənizdə daşınan neft yüklərinin böyük hissəsi artıq təyinat nöqtələrinə çatıb və həmin dövrdə Hörmüz boğazı üzərindən əlavə ciddi təzyiq müşahidə olunmayıb. Lakin aprel ayına keçidlə birlikdə bu strateji marşrut üzərində risklərin artması ehtimalı yüksəlir. Bu isə qlobal bazarlarda qiymət dalğalanmalarını qaçılmaz edir.

Əslində, enerji bazarları çox vaxt siyasi gərginliklərin ən həssas göstəricisinə çevrilir. Yaxın Şərqdə baş verən hər bir hadisə, xüsusilə də əsas nəqliyyat arteriyalarından biri olan Hörmüz boğazında mümkün risklər neftin qiymətinə birbaşa təsir göstərir. Banga da məhz bu incə məqama toxunaraq bildirir ki, bazar müəyyən riskləri artıq qiymətlərdə əks etdirsə də, tam mənzərə hələ də qeyri-müəyyən olaraq qalır.

Bu qeyri-müəyyənlik isə təkcə enerji sektorunu deyil, eyni zamanda, inflyasiya, ticarət balansı və iqtisadi artım tempinə də təsir etmək gücünə malikdir. Aprel ayı bu baxımdan qlobal iqtisadiyyat üçün bir növ sınaq mərhələsinə çevrilə bilər.

Ümumiyyətlə, enerji bazarlarında dalğalanmaların artdığı bir dövrdə, hər bir ölkə və hər bir iqtisadi sistem bu dəyişkənliyə hazır olmalıdır. Aprel ayı isə bu hazırlığın nə dərəcədə yetərli olduğunu ortaya qoyacaq. Yeri gəlmişkən, Beynəlxalq Valyuta Fondunun son hesabatı da göstərir ki, 2026-cı il enerji daşıyıcılarının qiymətləri baxımından sistemli sarsıntıların başlanğıcı kimi tarixə düşə bilər. Bu dəfə artımın səbəbi adi bazar dinamikası deyil – hasilat və daşınma zəncirində yaranan qırılmaların yığılmış təsiridir.

Proqnozlara görə, enerji xammalının qiyməti il ərzində orta hesabla 19 faiz yüksələcək. Bu göstərici ötən ilin payızında səsləndirilən azalma gözləntiləri ilə kəskin ziddiyyət təşkil edir və bazar iştirakçıları üçün yeni reallığın formalaşdığını açıq şəkildə nümayiş etdirir. Neft bazarında isə artım daha qabarıq hiss olunacaq – qiymətlərin 21,4 faiz yüksələcəyi, bir barelin orta dəyərinin isə təxminən 82 dollar səviyyəsində qərarlaşacağı gözlənilir. Bu rəqəmlərin arxasında isə yenə də geosiyasi gərginliyin mərkəzinə çevrilmiş Yaxın Şərq dayanır.

Enerji xəritəsində daha dramatik dəyişiklik isə təbii qaz sektorunda gözlənilir. BVF-nin qiymətləndirməsinə görə, qaz qiymətləri neftdən də sürətlə yüksələcək. Bunun səbəbi hasilatın bərpasının ləng getməsi və ehtiyatların məhdud olmasıdır. Xüsusilə Avropa və Asiya bazarlarında qazın qiymətinin 160 faizə qədər artması ehtimalı enerji təhlükəsizliyi məsələsini yenidən gündəliyin ən həssas mövzusuna çevirir.

Lakin əsas narahatlıq doğuran məqam ssenarilərin sərtləşmə ehtimalıdır. Əlverişsiz variantda neft qiymətləri 2026-cı ilin ikinci rübündən başlayaraq 80 faizə qədər sıçrayaraq ilin ortalamasında 100 dollara yaxınlaşa bilər. Daha sonra müəyyən korrektə baş versə də, 2027-ci ildə belə qiymətlər baza səviyyəsindən xeyli yüksək qalacaq. Bu, qlobal inflyasiya təzyiqlərinin uzunmüddətli xarakter alacağına işarədir.

Strateji risklər də mövcuddur. Bu halda neft qiymətləri, faktiki olaraq, ikiqat artaraq 110–125 dollar diapazonuna yüksələ bilər. Qaz bazarında isə artımın 200 faizə çatması ehtimalı dünya iqtisadiyyatının dayanıqlılığına ciddi suallar doğurur. Belə bir mənzərə sənaye istehsalından tutmuş gündəlik istehlaka qədər bütün zəncirə təsir göstərəcək genişmiqyaslı enerji şokunun konturlarını cızır.

Qeyd edək ki, mövcud vəziyyəti nəzərə alaraq Azərbaycan da enerji siyasətində əsaslı manevrlər edir. Qlobal enerji bazarlarında qeyri-müəyyənliklərin artdığı bir dövrdə ölkəmizin neft sektoru sabitlik nümayiş etdirən nadir istiqamətlərdən biri kimi diqqət çəkir. Beynəlxalq Enerji Agentliyinin aprel ayı hesabatına görə, 2026-cı ildə ölkədə gündəlik neft hasilatının orta hesabla 0,58 milyon barel səviyyəsində qalacağı gözlənilir. Bu, əvvəlki proqnozlarla müqayisədə dəyişməz qalaraq sektorun dayanıqlılığını təsdiqləyir.

İlin ilk rübünün nəticələri də bu sabitliyin real əsaslara söykəndiyini göstərir. Azərbaycan Respublikası Energetika Nazirliyinin məlumatına əsasən, yanvar-mart aylarında ölkədə 6,6 milyon ton neft və kondensat hasil olunub. Bu həcmin əsas yükünü isə ənənəvi olaraq "Azəri-Çıraq-Günəşli" yataqlar bloku daşıyıb. Eyni zamanda, "Şahdəniz" və "Abşeron" kimi strateji yataqlar da ümumi hasilata öz töhfəsini verib.

Hasilatla yanaşı, ixrac göstəriciləri də diqqətəlayiqdir. Hesabat dövründə 5,2 milyon ton neft dünya bazarlarına çıxarılıb ki, bunun böyük hissəsi beynəlxalq konsorsiumların payına düşür. Bu fakt Azərbaycanın qlobal enerji təchizatında etibarlı tərəfdaş mövqeyini qoruduğunu bir daha nümayiş etdirir.

Ümumilikdə, rəqəmlər göstərir ki, Azərbaycan enerji sektorunda kəskin artım mərhələsindən daha çox sabit və balanslaşdırılmış inkişaf modelinə keçid edir. Bu isə dəyişkən qlobal enerji mənzərəsində ölkənin mövqeyini qoruması baxımından strateji əhəmiyyət daşıyır.

***Nurlan ABDALOV***
***XQ***

*"Şəhərsalma və Memarlıq İli"*

# Paytaxtdaxili hərəkət yenidən tənzimlənir

## *Bakı meqalayihəsinin iqtisadi və sosial hədəfləri*



**"Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"na uyğun olaraq, paytaxtın mərkəzi hissəsində piyada infrastrukturunun əsaslı şəkildə genişləndirilməsi, eləcə də rahat və müasir hərəkət mühitinin yaradılması, şəhər mərkəzində fasiləsiz marşrutların formalaşdırılması nəzərdə tutulur. Bütün bunlarla yanaşı, paytaxtın mərkəzi ərazilərindəki küçə və prospektlərdə nəqliyyat vasitələrinin sürət həddinin saatda 50 kilometrə qədər endirilməsi, yağmurlu və küləkli hava şəraitində isə magistral yollarda sürətin 20 km/saat aşağı salınması da planlaşdırılır. Bu dəyişikliklər fonunda Bakıda yol təhlükəsizliyinin artması və tıxacların azalması kimi problemlərin aradan qalxması gözlənilir.**

**Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Orucun** bildirdiyinə görə, Bakı şəhərinin Baş planı çərçivəsində həyata keçiriləcək genişmiqyaslı yenidənqurma və söküntü prosesi təkcə tikinti sektoru üçün deyil, bütünlüklə, ölkə iqtisadiyyatı və şəhər idarəetmə modeli baxımından dönüş nöqtəsi hesab oluna bilər.

### 100 min binaya yeni həyat

Planlaşdırılan layihənin miqyası kifayət qədər böyükdür. Paytaxt üzrə 100 mindən artıq binanın ya sökülməsi, ya da rekonstruksiya edilməsi nəzərdə tutulur. Bu isə, əslində, şəhər mühitinin strukturunun yenidən formalaşdırılması deməkdir. Mütəxəssislərin yanaşmasına görə, bütün binaların tam sökülməsi iqtisadi və sosial baxımdan səmərəli deyil. Buna görə də istifadəyə yararlı binaların gücləndirilməsi, eləcə də görünüş cəhətdən təmirli və qəzalı, habelə istismar müddətini başa vurmuş tikililərin tam sökülməsi müəyyənləşdirilib.

**Memar Abdul Qəniyev** bildirir ki, 2040-cı ilə qədər davam edəcək tikinti prosesi mərhələli şəkildə həyata keçiriləcək. Birinci mərhələdə (2030-cu ilə qədər), əsasən, qəzalı 10-12 min bina söküləcək, ikinci mərhələdə (2030-2040-cı illər) daha geniş rekonstruksiya və şəhər yenilənməsi reallaşdırılacaq, nəhayət, sonuncu mərhələdə isə şəhərin tam balanslaşdırılması öz həllini tapacaq. Artıq bəzi ərazilərdə söküntü işlərinə başlanılması prosesi kağız üzərindən real icra mərhələsinə keçib.

Belə bir genişmiqyaslı layihənin gerçəkləşdirilməsi üçün ciddi maliyyə resursları tələb olunduğundan tikinti prosesi dövlət büdcəsi, dövlət-özəl tərəfdaşlığı, tam özəl investisiyalar kimi müxtəlif modellərin tətbiqi ilə gerçəkləşdiriləcək. Bu zaman investor seçimi və maliyyə mənbələrinin məhdudluğu səbəbindən proses sürətli deyil, mərhələli şəkildə irəliləyəcək. Bu isə bazarda tikinti qiymətlərinə, torpaq dəyərinə və daşınmaz əmlak sektoruna uzunmüddətli təsir göstərəcək.

Memarın sözlərinə görə, Baş planın əsas prinsiplərindən biri nəqliyyat infrastrukturunun yenilənməsidir. Bu çərçivədə magistral yolların genişləndirilməsi, yeni metro stansiyalarının tikintisi, tramvay xətlərinin bərpası və ya yaradılması prioritet istiqamətlər kimi diqqət çəkir. Dünya təcrübəsi də göstərir ki, meqapolislərdə tıxac probleminin həlli yalnız yol genişləndirməsi ilə həllini tapmır. Məsələn, London və Paris kimi şəhərlərdə ictimai nəqliyyatın payının artırılması əsas prioritet kimi çıxış edir. Bakıda da oxşar yanaşmanın tətbiqi nəqliyyat yükünün balanslaşdırılmasına xidmət edə bilər.

### "Yaşıl şəhər" və ekoloji dönüş

Yeni layihələrdə tikintinin aparılması ilə bərabər, ekoloji amillər də əsas yer tutur. Bu baxımdan plan çərçivəsində yeni parkların və yaşıllıq zonalarının salınması, ictimai istirahət məkanlarının yaradılması, alternativ enerji mənbələrinin işə salınması da mühüm önəm daşıyır. Mütəxəssislərin qənaətincə, belə bir yanaşmaya üstünlük verildiyi təqdirdə Bakının tədricən "beton şəhər"dən "yaşıl şəhər"ə keçidi sürətlənə bilər. Bildirilir ki, məhz Sinqapur şəhəri də urban yaşıllaşdırma siyasəti ilə dünyanın ən yüksək ekoloji səviyyəli paytaxtlarından birinə çevrilib.

Meqapolislərin əsas problemlərindən biri də həddindən artıq əhali sıxlığıdır. Bakı da bu baxımdan istisna deyil. Yeni Baş planda da məhz bu məsələ – mərkəzdə sıxlığın azaldılması, şəhərin kənar zonalara balanslı genişlənməsi və yeni yaşayış massivlərinin yaradılması hədəfləri qarşıya əsas prioritetlər kimi qoyulur. Bu yanaşma İstanbul və Seul kimi şəhərlərdə tətbiq olunan "çoxmərkəzli şəhər" modelinə uyğun gəlir.

Bakıda yenidənqurma prosesinin məqsədi təkcə köhnə binaları sökmək deyil. Burada əsas hədəf vətəndaşların yaşayış şəraitinin yaxşılaşdırılması, sosial infrastrukturun (məktəb, xəstəxana, ictimai xidmətlər) inkişaf etdirilməsi, təhlükəsiz və rahat şəhər mühitinin yaradılması, ənənəvi iş proseslərinin, eləcə də idarəetmənin rəqəmsal texnologiyalar vasitəsilə köklü şəkildə dəyişdirilməsidir. Bu baxımdan ekspertlər tərəfindən layihə həm də sosial rifah proqramı kimi qiymətləndirilir.

Qeyd edək ki, sözügedən layihənin həyata keçiriləcəyi ərazilər sırasında Yasamal, Nəsimi və Nərimanov rayonları xüsusi yer tutur. Bununla yanaşı, mərkəzə yaxın, plansız və sıx tikilmiş məhəllələrdə də genişmiqyaslı dəyişikliklər gözlənilir. Layihənin uğurunu isə bir sıra amillərin şərtləndirəcəyi bildirilir. Eyni zamanda, bu məsələdə maliyyə resurslarının davamlı olması, investor marağının qorunması, əhalinin köçürülməsi prosesində sosial ədalətin diqqət mərkəzində saxlanılması, şəhərsalma qərarlarının şəffaflığına xüsusi önəm verilməsi kimi prinsiplərin önə çəkilməsi zəruriliyi vurğulanır, əks halda isə layihənin uzunmüddətli gecikmələrlə üzləşə biləcəyi deyilir.

Beləliklə, paytaxtın yenidən qurulması layihəsi genişmiqyaslı tikinti proqramının icrası olmaqla bərabər, həm də şəhərin gələcək inkişaf modelinin formalaşdırılmasıdır. Əgər planlaşdırılan layihələr ardıcıl və balanslı şəkildə həyata keçirilərsə, Bakı regionun ən müasir və dayanıqlı meqapolislərindən birinə çevrilə bilər. Bu proses isə yalnız fiziki məkanın deyil, həm də iqtisadi strukturun, sosial münasibətlərin və şəhər mədəniyyətinin yenilənməsi deməkdir.

Mövcud qiymətləndirmələr göstərir ki, Bakı şəhərində yaşayış fondunun əhəmiyyətli hissəsi köhnəlmiş tikililərdən ibarətdir. Hesablamalara görə, bu cür binalarının 30-35 faizi sovet dövründə inşa olunub, onun çox hissəsi nəzərdə tutulan istismar müddətini artıq başa vurub, paytaxt üzrə bəzi mərkəzi rayonlarda əhali sıxlığı normadan 2-3 dəfə yüksəkdir. Fərdi yaşayış evlərinin bir hissəsi isə plansız və nəzərdə tutulan normalara uyğun gəlməyən şəkildə tikilib.

Belə bir statistika yenidənqurma prosesi zamanı genişmiqyaslı söküntü və tikinti prosesinin həyata keçiriləcəyini göstərir. Bu isə layihənin tikinti sektoruna investisiyaları artıracağını, xarici investorlar üçün yeni imkanlar yaradacağını deməyə əsas verir. Bu baxımdan Bakı bazarının regionda daha cəlbedici mərkəzlərdən birinə çevriləcəyi proqnozlaşdırılır.

Yenidənqurma prosesinin ən həssas tərəfi isə vətəndaşların köçürülməsi və kompensasiyası ilə bağlıdır. Beynəlxalq təcrübəyə əsasən, bu prosesin düzgün idarə olunması ciddi sosial narazılıqların qarşısının alınmasını şərtləndirir. Bu məsələdə ən səmərəli model bərabər dəyər prinsipinin qorunmasıdır. Başqa sözlə, sakinlərə əvvəlki yaşayış sahələrinə bərabər tutulan, onu hər hansı bir cəhətdən əvəz edə bilən, dəyərcə bərabər olan mənzillərə bazar qiyməti əsasında maliyyə kompensasiyası verilməsidir. Sakinlərin tikinti dövründə müvəqqəti yerləşdirilməsi, kirayə xərclərinin qarşılanması, alternativ yaşayış sahələri ilə təmin olunması da vacib şərtlər sırasında yer alır.

Sonda xatırlatmaq yerinə düşər ki, Bakı şəhərinin 2040-cı ilədək olan dövrünü əhatə edən və dayanıqlı inkişaf, tarixi irsin qorunması və "yaşıl enerji"yə keçid kimi mühüm prinsipləri özündə birləşdirən, eləcə də paytaxt ərazilərinin nizamlı inkişaf prioritetlərini müəyyənləşdirən Baş plan uzunmüddətli, strateji və konseptual bir sənəddir.

Baş planda Bakının inkişaf konsepsiyası 4 prioritetə – şəhərin dayanıqlı inkişafı, ətraf mühitin regenerasiyası, paytaxtın tarixi memarlıq siması, tarixi irsin qorunması və bu ərazidə yeni şəhər iqtisadiyyatının yaradılmasına əsaslanır. Sənədin təməl prinsiplərindən biri şəhərin dayanıqlı və tarazlı inkişafının gerçəkləşdirilməsidir. Bu prinsipin həyata keçirilməsi üçün paytaxtın çoxmərkəzli inkişafı əsas prioritetdir. Əsas məqsəd isə mərkəzdəki yükün (sıxlığın) digər regional mərkəzlərə yönləndirilməsi ilə Bakının bütün ərazilərinin dayanıqlı, tarazlı inkişafını təmin etməkdir.

***Vaqif BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*



**Rauf AĞAMİRZƏYEV,**
**nəqliyyat eksperti**

"Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"na əsasən, yaxın perspektivdə şəhər mərkəzində daha təhlükəsiz, daha rahat və daha müasir paytaxt mühiti yaratmaq məqsədilə genişmiqyaslı dəyişikliklər planlaşdırılır. Bunlara piyada infrastrukturunun genişləndirilməsi, sürət limitlərinin azaldılması və avtomobilsiz yeni məkanların yaradılması daxildir.

Baş planda əsas məqsədlərdən biri də 2027-ci ilə qədər paytaxtda hərtərəfli piyada şəbəkəsinin yaradılmasıdır. Başqa sözlə, bu, Bakının mərkəzi hissəsində təkcə yeni səkilərin tikintisi deyil, həm də şəhər mühitinin hərtərəfli yenilənməsi, ənənəvi iş proseslərinin, idarəetmənin və ya strukturların rəqəmsal texnologiyalar vasitəsilə köklü şəkildə dəyişdirilməsi, mövcud sahədə səmərəliliyin artırılması prosesidir.

Bu dəyişikliklərin bir hissəsi kimi, şəhər mərkəzində maksimum sürət həddinin 50 km/saata endirilməsi planlaşdırılır. Bu isə yol-nəqliyyat hadisələri sayının azalacağı və piyada təhlükəsizliyinin artacağı anlamına gəlir. Bundan əlavə, piyada zonasının cənuba doğru genişləndirilməsi nəzərdə tutulur. Mövcud məhdud piyada zonalarının daha geniş və daha davamlı marşrut şəbəkəsinə inteqrasiya olunacağı da gözlənilir.

Yenidənqurma dövründə xüsusi diqqət şəhərin tarixi ərazilərindən birinə – Neftçilər prospektinin şimalına və Bülbül prospektinin qərbinə yönəldilir. Bu ərazinin avtomobilsiz "sakit zona"ya çevrilməsi planlaşdırılır, eyni zamanda, burada nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılacağı və piyadalara üstünlük veriləcəyi nəzərdə tutulur.

Onu da qeyd edim ki, piyada zonasının şəhərin digər mərkəzi əraziləri ilə daha geniş şəkildə inteqrasiyası planlaşdırılır. Sözügedən Baş planda, eyni zamanda, müxtəlif nöqtələr arasında əlavə avtomobilsiz hissələr yaradılacağı və bitişik küçələrin minimum sürət həddinin aşağı salınması ilə piyadalar üçün "sakit küçələrə" çevriləcəyi qeyd edilir. Bununla bərabər, yerli küçələrdə sürət həddinin saatda 30 kilometr ilə məhdudlaşdırılacağı, əsas küçələr üçün yeni piyada keçidlərinin planlaşdırıldığı və mövcud olanların optimallaşdırılacağı da bildirilir.

*Zəlzələ mesajları*

# Son vaxtlar Xəzər niyə narahatdır?

## *Alimlər yeraltı təkanların lal dilini anlamağa çalışırlar*

**Son günlər Xəzər dənizində müşahidə olunan seysmik fəallıq diqqət çəkir. Qısa zamanda ardıcıl baş verən yeraltı təkanlar, xüsusilə bir neçə bölgədə 5,2 bal gücündə zəlzələnin hiss olunması bu mövzunu həm elmi, həm də ictimai təhlükəsizlik prizmasından aktuallaşdırır. Tarixi təcrübə də göstərir ki, bu ərazi seysmik baxımdan həmişə həssas olub, 2000-ci ildə Bakıda qeydə alınan 6,8 bal gücündə zəlzələnin episentri də məhz Xəzərin Azərbaycan sektoruna düşürdü.**



Mütəxəssislər bildirirlər ki, Xəzər regionu mürəkkəb tektonik quruluşa malikdir. Ərazi Avrasiya tektonik plitəsi ilə Ərəb tektonik plitəsinin qarşılıqlı təsir zonasında yerləşir. Plitələrin toqquşması nəticəsində yer qabığında gərginlik yaranır və zaman-zaman bu enerji zəlzələlər şəklində boşalır. Xəzərin dibində isə fəal qırılma xətləri, palçıq vulkanları və müxtəlif geoloji strukturlar mövcuddur. Azərbaycan dünyada palçıq vulkanlarının ən çox yayıldığı ərazilərdən hesab olunur. Bu vulkanların fəaliyyəti də müəyyən hallarda seysmik aktivliklə əlaqəlidir.

Dənizdə baş verən seysmik hadisələr qurudakı analoji proseslərdən bir sıra xüsusiyyətlərinə görə fərqlənir. Xəzər dənizi kimi qapalı hövzələrdə zəlzələlər çox vaxt daha dərin qatlarda, yəni yer qabığının alt hissələrində olur. Bu isə onların səthdə hiss olunan təsirini nisbətən zəiflətsə də, ümumi risk faktorunu aradan qaldırmır. Əksinə, belə dərinliklərdə baş verən proseslər daha geniş geoloji strukturları əhatə edir. Xəzərin dibində yerləşən qırılma xətləri, çökəkliklər və palçıq vulkanları kompleks sistem təşkil edir. Bu sistemdə baş verən hər hansı aktivlik bir neçə fərqli seysmik ocağın eyni vaxtda "oyanmasına" səbəb ola bilər.

**Mövzu ilə bağlı Azərbaycan Milli Elmlər Akademiyası nəzdində fəaliyyət göstərən Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli dedi ki, aprelin 8-də Xəzər dənizində qeydə alınan 5,3 maqnitudalı zəlzələ təkcə lokal hadisə deyil, əksinə, regionda mövcud tektonik sistemin, bütövlükdə fəallaşmasına səbəb olub:**

– Həmin zəlzələdən sonra qeydə alınan 500-dən çox təkan da klassik afterşok (təkrar təkanlar) mexanizmidir. Güclü zəlzələ zamanı yer qabığında yığılan enerji kəskin şəkildə boşalır, lakin bu, bir dəfə ilə yekunlaşmır, əsas təkan ətrafındakı qırılma zonalarında balans pozulur və nəticədə daha kiçik ölçülü, çoxsaylı təkanlar meydana gəlir. Təkanların böyük hissəsi 3–5 bal intervalında dəyişir və onların dağıdıcı potensialı yüksək deyil. Bu baxımdan, hazırda müşahidə olunan seysmik



aktivlik təhlükəli prosesin başlanğıcı deyil, baş vermiş güclü enerji boşalmasının "ardıcıl dalğaları" kimi qiymətləndirilir.

Zəlzələlərin mahiyyətini anlamaq üçün dərin qatlarda gedən proseslərə nəzər salmaq vacibdir. Geodinamika və seysmologiya sahəsində aparılan tədqiqatlar göstərir ki, Yer qabığı monolit deyil, müxtəlif ölçülü tektonik plitə və bloklardan ibarətdir. Tektonik plitələr həm horizontal (yan istiqamətli), həm də vertikal (yuxarı-aşağı) istiqamətlərdə daim hərəkətdədir. Xəzər regionunda isə bu proseslər daha mürəkkəb xarakter daşıyır. Məsələn, parçalanma və bloklaşma zamanı böyük tektonik plitələr daha kiçik bloklara ayrılır, sıxılma və gərginlikdə isə plitələrin toqquşması nəticəsində enerji yığılır. Bunlardan fərqli olaraq gərginlik kritik həddə çatdıqda qırılma baş verir və bu, zəlzələ kimi qeydə alınır. Məhz bu nöqtəyə ocaq deyilir. Burada ayrılan enerji dalğalar şəklində ətrafa yayılır və biz bunu yer səthində təkan kimi hiss edirik.

Zəlzələ yalnız qırılma ilə bitmir. Prosesdən sonra yerin dərin qatlarında layların genişlənməsi və yenidən tarazlaşma mərhələsi başlayır. Bu isə afterşokların əsas səbəblərindəndir. Başqa sözlə desək, Yer qabığı "yenidən düzülür". Qırılmış bloklar yeni mövqelərini tapmağa çalışır və bu zaman kiçik ölçülü təkanlar davam edir. Proses bəzən günlərlə, hətta həftələrlə davam edir. Artıq əsas enerji boşalması baş verib və yaxın müddətdə 5 baldan yuxarı güclü zəlzələ ehtimalı aşağıdır. Hər bir seysmik aktiv dövrün son mərhələsi "fon səviyyəsinə qayıdış" adlanır. Yəni təkanların sayı və gücü tədricən azalır və region yenidən nisbi sabit vəziyyətə keçir. Hazırda Xəzər dənizində müşahidə olunan proseslər də məhz bu mərhələyə doğru istiqamətlənib.

Xəzər dənizində müşahidə olunan mütəmadi zəlzələlər regionun geodinamik baxımdan aktiv zona olduğunu bir daha təsdiqləyir. Statistikaya görə, yanvar ayından bu günə qədər respublikamızın seysmik zonalarında 3 mindən çox zəlzələ qeydə alınıb ki, bu da aktivliyin yüksək olduğunu göstərir. Son zəlzələlərin mühüm xüsusiyyətlərindən biri onların təxminən 70 kilometr dərinlikdə baş verməsidir. Məhz bu günlərdə baş verən zəlzələlər 2000-ci ildə Bakıda ciddi şəkildə hiss olunan və dağıntılara səbəb olan hadisə ilə eyni səviyyədə qiymətləndirilmir. Həmin zəlzələnin episentri və enerji paylanması fərqli geoloji şəraitdə formalaşmışdı.

Qeyd edim ki, hazırda AMEA nəzdində RSXM-nin 84 seysmik stansiyası fəaliyyət göstərir. İl ərzində respublika ərazindəki 300-ə yaxın poliqonda geofiziki-tədqiqat işləri görülür. Bundan başqa, mərkəzin bölgələrdə geokimyəvi stansiyaları da var və orada kimyəvi tədqiqatlar aparılır. Seysmik stansiyalar şəbəkəsi peyk rabitəsi ilə real vaxt rejimində işləyir və bu cür şəbəkə dünyanın aparıcı bir neçə ölkəsində var. Alınmış məlumatların emalı çoxfunksiyalı və ən müasir texnologiyalarla işləyən ANTİLOPE proqramı ilə həyata keçirilir.

**Davamlı yeraltı təkanlarla bağlı Geologiya və Geofizika İnstitutunun şöbə müdiri, seysmoloq Qulam Babayev bildirdi ki, zəlzələlərin dəqiq vaxtını əvvəlcədən proqnozlaşdırmaq bu gün də elmin qarşısında duran ən çətin məsələlərdən biri olaraq qalır:**



– Yeraltı proseslər nə qədər dərindən öyrənilsə də, konkret olaraq "nə vaxt" sualına dəqiq cavab vermək hələlik mümkün deyil. Bu baxımdan, proqnoz anlayışı daha çox ehtimallar və uzunmüddətli müşahidələr üzərində qurulur. Müasir seysmologiya sahəsində zəlzələlərin öyrənilməsi ehtimal və deterministik yanaşmalara əsaslanır. Alimlər zəlzələlərin başvermə ehtimalını qiymətləndirmək üçün seysmik dərəcəni, zəlzələ ocağının həndəsəsini və proseslərin dinamikasını təhlil edirlər. Lakin bu, yalnız ümumi tendensiyanı müəyyən etməyə imkan verir. Yəni qısa və ortamüddətli proqnozlar müəyyən qədər mümkün olsa da, konkret gün və ya saat üzrə proqnoz vermək hazırda real deyil.

Qlobal təcrübədə zəlzələlərin öyrənilməsi və risklərin qiymətləndirilməsi üç əsas istiqamət üzrə aparılır. Bu istiqamətdə seysmik aktivliyin davamlı monitorinqi həyata keçirilir. Qırılma xətləri öyrənilir, həmçinin əsas zəlzələdən əvvəl baş verə biləcək kiçik təkanlar, yəni ilkin zəlzələlər izlənilir. Bundan əlavə, yer qabığının deformasiyası xüsusi cihazlarla müşahidə olunur, məlumatlar əsasında zəlzələlərin təkrarlanma intervalları analiz edilir.

Müxtəlif dövrlərdə baş vermiş seysmik hadisələr müqayisə olunur və ehtimal modelləri qurulur. Yeni texnologiyaların inkişafı isə seysmologiyada peyk müşahidə sistemləri, GPS ölçmələri və InSAR texnologiyalarının istifadəsini artırıb. Bu texnologiyalar yer səthindəki ən kiçik deformasiyaları belə aşkar etməyə imkan verir. Bununla yanaşı, süni intellekt və maşın öyrənməsi alqoritmləri də artıq seysmik tədqiqatlarda geniş tətbiq olunur.

Region ölkələri ilə müqayisədə ölkəmizin seysmik fonu ümumilikdə daha az riskli hesab olunur. Lakin bu tam təhlükəsizdir demək deyil, sadəcə, risk səviyyəsi Türkiyə və İran kimi yüksək seysmik aktivliyə malik ölkələrlə müqayisədə nisbətən aşağıdır. Azərbaycan ərazisində də tektonik proseslər aktivdir, lakin plitələrin hərəkət sürəti və qırılma zonalarının intensivliyi regionun digər hissələri ilə müqayisədə daha zəifdir. Bu isə o deməkdir ki, ölkədə güclü və dağıdıcı zəlzələlər nadir hallarda baş verir. Daha çox hiss olunan, lakin dağıdıcı olmayan orta və zəif təkanlar müşahidə olunur. Xəzər dənizi geoloji və geodinamik baxımdan olduqca mürəkkəb regiondur, şimal, orta və cənub hissəsi seysmik baxımdan aktivdir. Dənizin müxtəlif sahələrində paralel şəkildə zəlzələlər baş verə bilər.

Müasir seysmologiya elmində son illər "seysmik sürü" (yaxud "seysmik fırtına") anlayışı geniş istifadə olunur. Yəni bu, qısa müddət ərzində eyni bölgədə ardıcıl və çoxsaylı zəlzələlərin baş verməsi deməkdir. Son günlər Xəzərdə müşahidə olunan aktivlik də məhz buna uyğun gəlir. 2026-cı ilin ilk aylarında Şamaxı və İsmayıllı ərazilərində qeydə alınan zəlzələlər, eləcə də hazırda Xəzərdə davam edən aktivlik göstərir ki, region yaxın aylarda da seysmik baxımdan aktiv qala bilər. Hiss olunan təkanlar təbii proses kimi qəbul olunmalıdır, heç bir narahatlığa əsas yoxdur.

Lakin qeyd etmək lazımdır ki, Bakı və Abşeron yarımadası üçün seysmik risk daim aktivdir. Bunun səbəbləri isə əhalinin sıxlığı, tikililərin çoxluğu və müxtəlifliyi, geoloji quruluşun fərqliliyidir.

Xəzər dənizində ardıcıl qeydə alınan təkanların xarakterini düzgün təhlil etmək vacibdir. Unutmaq olmaz ki, tez-tez təkrarlanan belə hallar bəzən daha böyük proseslərin xəbərçisi ola bilər.

***Ləman TƏHMƏZ***
***XQ***

# “Yaddaşa həkk olunan təsvir”in həqiqətləri



**Azərbaycan Milli Xalça Muzeyində .ART qlobal domeninin dəstəyi ilə multidisiplinar rəssam Mədinə Qasımovanın “Yaddaşa həkk olunan təsvir” adlı fərdi sərgisi açılıb.**



Tədbirdə Leyla Əliyeva və Alena Əliyeva iştirak ediblər.

Sərginin açılış mərasimində çıxış edən Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova qeyd edib ki, sərgidə rəssamın son beş ildə yaratdığı 28 əsər nümayiş olunur. “Muzeyin ənənəvi texnologiya şöbəsində rəssamın eskizləri əsasında toxunan beş yeni xalça ekspozisiyanın mühüm hissəsini təşkil edir. Bu əsərlər müasir obrazın tekstildə ifadə imkanlarını nümayiş etdirərək ənənəvi sənət ilə çağdaş incəsənət arasında məzmunlu dialoq yaradır. Sərgi çərçivəsində “Analar üçün çiçəklər” əsərinin dörd təcəssümü – rəngkarlıq, xalça, vitraj və rəqəmsal interpretasiya muzeyin daimi kolleksiyasına daxil ediləcək”, - deyə Ə.Məlikova əlavə edib.



Layihə çərçivəsində eyni obrazın müxtəlif formalarda təcəssüm etdiyini vurğulayan direktor deyib: “Obraz rəngkarlıqdan rəqəmsal müstəviyə keçir, daha sonra vitraj, mozaika və ya xalça kimi maddi daşıyıcılarda yeni məna qazanır. Beləliklə, obraz sabit çərçivədə qalmır, transformasiya olunaraq fərqli materiallarda həyatını davam etdirir. Ekspozisiyanın daxili ritmini formalaşdıran təkrarlanan motivlər fəsillərin dəyişməsi, gül kompozisiyaları, qadın və kişi portretləri, Bakının şəhər mənzərələri və abstrakt formalar müxtəlif material və texnikalarda təqdim olunaraq vizual, emosional, immersiv mühit yaradır. Burada xalçatoxuma prosesinin səsyazması əsasında sərgi üçün xüsusi hazırlanmış səs instalyasiyası təqdim olunur”.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova bildirib ki, bu sərgi müəllifin zəngin və güclü yaradıcı enerjisindən xəbər verir. “Mədəniyyət Nazirliyi yaradıcı insanlara xüsusi diqqət göstərir, istedadlı gənclərin yaradıcılığının dəstəklənməsi üçün geniş imkanlar yaradır. Gənc rəssamların beynəlxalq səviyyədə tanınmasına şərait yaradılması prioritet məsələdir. Müəllifin fərqli vizual dili, sənətə cəsarətli yanaşması onu yaradıcılıq baxımından seçilən və yenilikçi edir. Əminik ki, sərgi həm yerli, həm də xarici ziyarətçilər üçün yaddaqalan olacaq və müasir incəsənətin inkişafına öz töhfəsini verəcək”, - deyə S.Yusifova əlavə edib.

Sərginin kuratoru, Almatı İncəsənət Muzeyinin inkişafı üzrə direktoru, muzeylərdə innovasiya sahəsində ekspert Vladimir Opredelenov söyləyib ki, rəssamın yaradıcılığı ənənələrə söykənərək tarixdən süzülüb gəlir və eyni zamanda, müasir texnologiyalarla vəhdət təşkil edir.

Sərgi mayın 15-dək davam edəcək.

*XQ*

# “Akinak” tarixi-bədii filminin premyerası böyük maraqla qarşılanıb












**Aprelin 15-də Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin dəstəyi ilə lentə alınan “Akinak” tammetrajlı bədii filminin premyerası keçirilib.**

Tədbirdə Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli, tanınmış mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin dəstəyi ilə “Narimanfilm” MMC tərəfindən istehsal olunan ekran əsərinin quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Elxan Cəfərov, ssenari müəllifləri İlqar Safat, Azər Ziyadlı, İrəvani və Lətif Lətifsoy, quruluşçu operatoru Ruslan Ağazadədir.

Fentezi elementləri ilə zəngin olan tarixi macəra filmində Azərbaycanın qədim dövlətçilik keçmişinə tamamilə yeni ideoloji prizmadan yanaşılır. Ekran əsəri əsasən gənc auditoriya üçün nəzərdə tutulsa da, süjet xətti və vizual həlli ilə bütün yaş qruplarından tamaşaçıların marağına səbəb olacaq.

Filmdə hadisələr indiki Azərbaycan ərazilərində vaxtilə mövcud olmuş qədim İşquz (İç Oğuz) dövlətində cərəyan edir. Düşmən hücumuna məruz qalan dövləti və xalqı xilas etmək üçün vaxtilə Göylərdən göndərilmiş dörd müqəddəs əmanətdən biri olan “Akinak” qılıncını tapmaq lazımdır. Bu ağır və taleyüklü missiyanı yerinə yetirmək üçün dörd cəsur gənc təhlükələrlə dolu yola çıxır. Onlar hədəfə çatmaq üçün həm real düşmənlərlə, həm də onların qurduğu qaranlıq tilsimlərlə mübarizə aparmalı olurlar.

Filmin premyerası böyük maraqla qarşılanıb, yaradıcı heyət alqışlarla səhnəyə dəvət olunub.

Qeyd edək ki, bədii film may ayından etibarən ölkənin bütün kinoteatrlarında geniş tamaşaçı kütləsinə təqdim olunacaq.

Tədbir zamanı, həmçinin Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin dəstəyi ilə hazırlanan və bu il təqdimatları keçiriləcək animasiya və filmlərin treylerləri nümayiş etdirilib.

Ekran əsərinin quruluşçu rejissoru, Əməkdar incəsənət xadimi Elxan Cəfərov AZƏRTAC-a açıqlamasında filmin qədim tariximizə ekskursiya olduğunu deyib: “Filmdəki hadisələr təqribən eramızdan əvvəl VIII-VII əsrlərə aiddir. Əlbəttə, tarixi bilmək, keçmişimizə arxalanıb irəliyə getmək daha məqsədəuyğundur. Filmdəki Ata Arbak obrazı qədim dildə idarəçi, rəhbər deməkdir, Qoytasar bizim qədim türk mədəniyyətinə, türk tarixinə aid bir personajdır. Ekran işindəki qəhrəmanlar daha çox mifik personajlardır. Yəni film sırf tarixi deyil, macəra və nağıl filmidir. Daha çox gənclər və yeniyetmələr üçün nəzərdə tutulub. Çox istərdik ki, ilk növbədə, məhz gənc nəsil və yeniyetmələrimiz filmi izləsin, dəyərləndirsin və ondan bəhrələnsinlər”.

Ekran işinin çoxkoloritli olduğunu qeyd edən bəstəkar-musiqişünas Məryəm Əlibəyli isə deyib: “Mənim öhdəmə düşən məsuliyyət Azərbaycanın tarixi, qədimliyi ilə bağlı özəllikləri film üçün bəstələdiyim musiqilərə yansıtmaq idi. Azərbaycan kino ənənələri musiqisindən kənara çıxmamaq şərti ilə musiqilər yaratdım. Burada bir çox qədim alətlərdən istifadə olunub. Yallı janrında da musiqi bəstələnib. Musiqiləri filmin süjet xəttinə uyğun yazaraq onun gözəlliyinə bir az da ahəng qatmağa çalışmışam. Ümid edirəm ki, hər kəs ekran işindən məmnun olacaq və Azərbaycan filminin möhtəşəmliyini görəcək”.

# Leyla Əliyevanın Albaniyada Xəstəxana Mərkəzinə humanitar dəstəyi



**Albaniyanın paytaxtı Tirana şəhərində yerləşən “Mother Teresa” Universitet Xəstəxana Mərkəzində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə yeni təchiz olunmuş pediatrik sedasiya otağının açılışı olub.**



Bu humanitar təşəbbüs çərçivəsində Heydər Əliyev Fondu tərəfindən müasir anesteziya aparatı və sedasiya otağının tam təchiz edilməsi üçün zəruri avadanlıqlar təqdim edilib. Tibbi və cərrahi prosedurlar zamanı sedasiyaya ehtiyacı olan pasiyentlər üçün nəzərdə tutulan otağın yaradılması Albaniya dövlət xəstəxanasında pediatrik xidmətlərin keyfiyyətinin artırılmasına bir töhfədir.

Bu təşəbbüs Heydər Əliyev Fondunun uşaqların sağlamlığı və rifahına yönələn fəaliyyətinin, eləcə də Azərbaycan ilə tərəfdaş ölkələr arasında humanitar əlaqələrin möhkəmləndirilməsində fəal rolunun daha bir təsdiqidir.

Açılış tədbirində Azərbaycanın Albaniyadakı səfiri Anar Hüseynov, “Mother Teresa” Universitet Xəstəxana Mərkəzinin direktoru və tibb müəssisəsinin kollektivi iştirak ediblər.

Səfir Anar Hüseynov Azərbaycan ilə Albaniya arasında münasibətlərin əhəmiyyətini vurğulayaraq bildirib ki, belə təşəbbüslər iki ölkə arasında dostluq münasibətlərinin genişlənməsinə yönəlib.

“Mother Teresa” Universitet Xəstəxana Mərkəzinin direktoru və tibb heyəti Heydər Əliyev Fonduna təşəkkürünü ifadə edərək, bu təşəbbüsü Albaniyada pediatrik səhiyyə xidmətlərinin inkişafına töhfə kimi yüksək qiymətləndirib.

*XQ*

# Dövlət mədəni irsi himayə edir





**Mədəniyyət Nazirliyi yanında Daşınmaz mədəni sərvətlərin müəyyən edilməsi üzrə Ekspert Şurasının növbəti iclası keçirilib.**

İclasda mədəniyyət nazirinin müavini Səadət Yusifova Ekspert Şurası tərəfindən həyata keçirilən işlərin nəticələri barədə məlumat verib. Qeyd edib ki, bu günə qədər müzakirə edilən 681 abidə və yeni aşkar edilmiş nümunəyə dair qanunvericiliyə uyğun olaraq Azərbaycan Milli Elmlər Akademiyasından rəy alınıb. Ümumilikdə isə 4000-ə qədər abidə və yeni aşkar edilmiş nümunə barədə Ekspertiza aktı hazırlanıb.

Ekspert Şurasının sədri, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova müzakirəyə çıxarılan məsələlər haqqında məlumat verib.

İclasda 4 şəhər və 15 rayon üzrə 70 yeni aşkar edilmiş nümunənin dövlət mühafizəsinə götürülməsi, eləcə də Naxçıvan Muxtar Respublikasında yerləşən dövlət mühafizəsində olan 10 abidənin məlumatlarına dəyişiklik edilməsi müzakirə olunub. Tarixi, memarlıq və arxeoloji əhəmiyyəti daşıyan obyektlərin dövlət qeydiyyatına alınması üçün müvafiq tədbirlərin görülməsi barədə qərarlar qəbul edilib.

*XQ*

*Ümummilli hədəflər*

# Qərbi Azərbaycana Qayıdışa ölkəmizdə ictimai dəstək

## *İcmanın Quba rayon nümayəndəliyi də hərəkata öz töhfəsini verir*



**Qərbi Azərbaycan İcmasının (QAİ) Quba rayon nümayəndəliyi 5 aya yaxındır ki, fəaliyyətə başlayıb. Bu qısa müddət ərzində nümayəndəlik QAİ-nin ən fəal və təşəbbüskar qurumlarından birinə çevrilib. Ona görə çevrilə bilib ki, burada öz üzərinə düşən mühüm vəzifə və missiyanın fərqində olan vətənpərvər və səriştəli bir komanda çalışır.**

Nümayəndəliyin rəhbəri Qubada yerləşən Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun direktoru, biologiya üzrə fəlsəfə doktoru, professor İlham Qaraqurbanlı bildirdi ki, Qərbi Azərbaycan məsələsi Prezident İlham Əliyevin müdrik və uzaqgörən siyasətinin prioritet istiqamətlərindən biri səviyyəsinə yüksəlib. Bu uzaqgörən müdrik siyasət ölkə əhalisinin, eləcə də Qərbi Azərbaycan (indiki Ermənistan ərazisi) əsilli vətəndaşlarımızın ürəyindən xəbər verir və dərin razılıq hissilə ilə qarşılanır.

İlham Qaraqurbanlı sonra vurğuladı ki, 2022-ci il dekabrın 24-də dövlətimizin başçısının Qərbi Azərbaycan əsilli ziyalıların bir qrupu ilə keçirdiyi görüş olduqca böyük tarixi əhəmiyyəti olan hadisədir. Bu görüşdən əxz etdiyimiz əsas qənaət budur ki, Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə öz doğma tarixi torpaqlarına qayıtmaq haqqı var və bu hüququ onların əlindən heç bir qüvvə ala bilməz.

QAİ-nin Quba rayon nümayəndəliyinin əməkdaşı, vətənpərvər şair, möhtəşəm "Vətən" poemasının müəllifi Ramiz Qusarçaylı isə qeyd etdi ki, Qərbi Azərbaycan əsilli azərbaycanlıların Quba rayonuna məskunlaşması əsasən XX əsrin müxtəlif dövrlərində, xüsusilə də kütləvi deportasiya və köçürülmə hadisələri zamanı baş verib. Belə ki, 1918, 1948–1953,1988–1991-ci illərdə on minlərlə azərbaycanlı Ermənistan ərazisindən Azərbaycanın müxtəlif bölgələrinə, o cümlədən Quba rayonuna köçürülüb.

Ramiz müəlim sonra məlumat verdi ki, hazırda Quba rayonunda 4 min 228 nəfər Qərbi Azərbaycan əsilli vətəndaşımız yaşayır və rayon üzrə 101 ailə Qərbi Azərbaycan əsilli kimi qeydə alınıb. Onlar rayonun ictimai-siyasi, mədəni həyatına dərindən inteqrə olunaraq milli dövlətçilik quruculuğuna mühüm töhfə verirlər. Qərbi azərbaycanlıların hər birinin ən böyük arzusu doğma ata-baba yurdlarına qayıtmaq, orada yenidən məskunlaşaraq qurub-yaratmaqdır.

Bu məqamda bildirmək istərdik ki, QAİ-nin Quba rayon nümayəndəliyinin səmərəli fəaliyyət göstərməsi üçün burada hər cür şərait yaradılıb. Yeri gəlmişkən, ötən il noyabrın 30-da nümayəndəliyin yeni ofisinin açılış mərasimi olub. Tədbirdə Quba Rayon İcra Hakimiyyətinin başçısı İlqar Mahmudov, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, Milli Məclisin deputatları Hikmət Babaoğlu, Məlahət İbrahimqızı, Əlibala Məhərrəmzadə, Müşviq Məmmədli, Şahin İsmayılov, Günay Ağamalı, eləcə də respublikamızın bir sıra tanınmış elm xadimləri, Qərbi Azərbaycan İcmasının üzvləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Quba RİH başçısı İlqar Mahmudov mərasimdəki çıxışında bildirib ki, QAİ-nin fəaliyyəti durmadan genişlənərək artıq ölkənin bütün bölgələrini əhatə edir. Yeni ofislərin açılması Qayıdış prosesinin möhkəmlənməsinə, ictimai həmrəyliyin genişlənməsinə xidmət edir. RİH başçısının fikrincə, Qubada da belə bir ofisin fəaliyyə göstərməsi nümayəndəliyin qarşısında duran mühüm vəzifələrin uğurla yerinə yetirilməsinə şərait yaradacaq. Nümayəndəliyin ofisini ziyarət edən tanınmış alim və ziyalılar, media mənsubları buranı yaxşı düşünülmüş, mükəmməl dizayn edilmiş mədəniyyət mərkəzinə bənzədirlər.

AMEA Arxeologiya və Antropologiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor Qafar Cəbiyev nümayəndəliyi araya-ərsəyə gətirənlərin əməyini yüksək qiymətləndirərək dövri mətbuatda belə yazıb: "Orada (nümayəndəlik nəzərdə tutulur – M.A.) Qərbi Azərbaycan reallaıqlarından xəbər verən nələr yoxdur?! İrəvan xanlığı, onun mahalları və digər yaşayış məntəqələrinin əyani şəkildə təqdim olunduğu xəritələr, diaqramlar və fotostendlər nələrdən xəbər vermir?!".

Təqdirəlayiq haldır ki, ofis açıldığı andan bu günə qədər burada, demək olar ki, hər həftə, bəzən isə həftədə bir neçə dəfə bir-birindən maraqlı, yaddaqalan tədbirlər təşkil olunur. Məsələn, ofisin fəaliyyətə başlamasından cəmi 4 gün sonra, yəni 2025-ci il dekabrın 4-də nümayəndəlikdə rayon icra hakimiyyətinin, idarə, müəssisə və təşkilatların nümayəndələri, "Vətən naminə" Şəhid Analarına Dəstək İctimai Birliyinin üzvləri və qazilərin iştirakı ilə görüş keçirilib. Görüş iştirakçıları nümayəndəliyin yeni yaradılmış ofisi ilə yaxından tanış olublar, yaxın gələcəkdə görüləcək işlər barədə məlumatlandırılıblar.

2026-cı il dekabrın 6-da isə Elm və Təhsil Nazirliyi tərəfindən keçirilən "Qərbi Azərbaycana Qayıdış" adlı olimpiadanın qalibi, Abuzər Əliyev adına Əliməmmədoba kənd tam orta məktəbin 11-ci sinif şagirdi Aydan Rəcəbova nümayəndəliyə dəvət olunub. Görüşdə iştirak edən ziyalılar Aydan Rəcəbovanı təbrik ediblər, ona yeni uğurlar arzulayıblar. Milli Məclisin deputatı Əlibala Məhərrəmzadə olimpiada qalibinə hədiyyələr təqdim edib. Aydan Rəcəbova ona göstərilən bu diqqət və qayğıya görə təşəkkür edib.

XX əsrdə Qərbi azərbaycanlıların doğma yurd yerlərindən zorla köçürülməsi bütün Türk dünyasının, xüsusilə də qardaş Türkiyə xalqını çox narahat edib. Onlar imkanları daxilində bu problemin beynəlxalq müstəviyə çıxarılaraq müzakirə olunmasına çalışıblar. Şair Ramiz Qusarçaylı dedi ki, bundan sonra bu sahədə fəaliyyəti birgə səylərlə daha da genişləndirməyə böyük ehtiyac var. Bu istiqamətdə gənc ədiblər, şair və media mənsubları da çox iş görə bilər.

Təsadüfi deyil ki, 2026-cı il fevralın 27-də nümayəndəlikdə Dünya Gənc Türk Yazarlar Birliyinin (DGTYB) yaradıcı heyəti ilə görüş keçirilib. DGTYB-nin rəhbəri, Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair İntiqam Yaşar başda olmaqla birliyin üzvlərindən Qarabağ müharibəsi qaziləri, şairlər Oğuz Arparslan və Təhməz Türkoğlu nümayəndəliyin fəaliyyəti ilə yaxından tanış olublar.

Görüşdə iştirak edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru Aysel Şeydayeva, Amsar kənd tam orta məktəbin direktoru, Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvü, şair Sərvinaz Şükürova, AYB-nin üzvü, Qarabağ müharibəsi qazisi, şair Ayaz Səlimxanoğlu və nümayəndəliyin əməkdaşları Qərbi Azərbaycanın tarixi torpaqları, doğma yurdlarına qayıdış hüquqları barədə hərarətli çıxışlar ediblər.

2026-cı il martın 5-də QAİ-nin Quba rayon nümayəndəliyində Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Quba filialının direktoru, fizika elmləri doktoru, professor Yusif Alıyevin təqdimatında "Müasir təhsil və Qərbi Azərbaycana qayıdış konsepsiyası" mövzusunda ustad dərsi keçirilib. Professor çıxışında Azərbaycan tarixinin müxtəlif mərhələlərinə ekskursiya edərək hadisələri Yaxın Şərq və dünya tarixi kontekstində müqayisəli şəkildə şərh edib.

Yusif müəllim qeyd edib ki, 1991-ci ildə Azərbaycanın öz dövlət müstəqilliyini bərpa etməsindən sonra dahi siyasətçi, ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi müdrük dövlətçilik siyasəti milli ideologiyanın möhkəmlənməsində mühüm rol oynayıb. Professor, həmçinin möhtərəm Prezidentimiz İlham Əliyevin liderliyi ilə icra olunan "Böyük Qayıdış" strategiyasının milli yaddaşın və tarixi ədalətin bərpası baxımından böyük əhəmiyyət daşıdığını vurğulayıb.

Maraqlı hal həm də budur ki, son vaxtlar QAİ-nin Quba rayon nümayəndəliyinin ofisi rayonun ən çox ziyarət edilən məkanlarından biridir. Qubaya təşrif buyuran qonaqların böyük bir qismi nümayəndəliyi ziyarət etməyi özlərinə mənəvi borc bilirlər. Yeri gəlmişkən, bu il martın əvvəllərində nümayəndəlikdə Ukraynada müharibə nəticəsində valideynlərini itirmiş uşaqlar qonaq olublar.

Milli Məclisin deputatı, iqtisad elmləri doktoru, professor Əlibala Məhərrəmzadə bildirdi ki, Ukraynada müharibə nəticəsində hər iki valideynini itirmiş uşaqlar Quba "Şahdağ–Truskovets" sanatoriyasında müalicə kursları keçirlər. Əlibala müəllim vurğuladı ki, ukraynalı qonaqlar Quba Soyqırımı Memorial Kompleksini və rayonun digər tarixi və gəzməli yerlərini böyük maraqla ziyarət ediblər: "Qonaqlar hər yerdə xoş üz, mehribanlıq görüblər. Vaxt gələcək, Ukraynada müharibə bitəcək, amma ukraynalı dostlarımız Azərbaycan xalqının humanizmini unutmayacaqlar!".

Azərbaycanın tanınmış ziyalıları, elm, incəsənət xadimləri, media mənsubları QAİ-nin Quba rayon nümayəndəliyində qonaq olur, icma üzvləri ilə görüşürlər. Bu il martın 12-də nümayəndəlikdə "Xalq qəzeti"nin baş redaktoru, Əməkdar jurnalist Əflatun Amaşov ilə görüş keçirilib. Görüş zamanı Əflatun müəllim deyib ki, QAİ-nin yaradılması milli yaddaşın qorunması, tarixi həqiqətlərin öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Unutmaq olmaz ki, Qərbi Azərbaycan məsələsi yalnız keçmişlə bağlı deyil, həm də gələcəyə yönəlmiş taleyüklü bir məsələdir. Bu sahədə cəmiyyətin bütün potensialı səfərbər edilməlidir.

Sonda bildirək ki, bu gün QAİ-nin və onun bölgələrdəki qurumlarının qarşısında duran vəzifələr adi hədəflər deyil, bunlar böyük strateji hədəflərdir. Bu yolda əzm və səbir, səriştə və fədakarlıq, ən başlıcası, hünər və təəssübkeşlik tələb olunur. Azərbaycan vətəndaşları humanist bəşəri prinsiplərdən çıxış edərək tarixi ədalətin bərpa olunması naminə əllərindən gələni etməyə hazırdırlar. Bu, ədalətli və şərəfli missiyadır!

***Məsaim ABDULLAYEV***
***XQ***

**Bakı-Quba-Bakı**

*Qəmbər Hüseynli – 110*

# Xalq ruhunun mahir bəstəçisi

## *Kiçik bir uşaq nəğməsi "Cücələrim" sənətkara böyük dünya şöhrəti gətirib*

**"Cücələrim" uşaq mahnısının adı gələndə dodaqlarda təbəssüm, qəlblərdə bir doğmalıq yaranır. Bu ad bizi uşaqlığımızın ən bəxtəvər çağlarına aparır. Dilimiz topuq vura-vura, hələ sözləri tam tələffüz edə bilmədiyimiz illərdə də həvəslə oxuduğumuz, hətta böyüdükdən sonra belə zövqlə dinlədiyimiz "Cücələrim" mahnısı tez-tez yada düşür.**



Hər bir uşaq ilk dəfə piano arxasına keçəndə, balaca barmaqları ilə məhz bu melodiyanı ifa etməyi öyrənməyə calışır. "Cücələrim" sadəcə bir musiqi deyil, hər birimizin içində yaşayan o təmiz, qayğısız uşağın səsi, onun saflığını dünyaya tanıdan və sevdirən mənəvi vizit vərəqimizdir. Bəli, söhbət bu ölməz əsərin müəllifi, milli musiqi xəzinəmizin unudulmaz bəstəkarı Qəmbər Hüseynlidən gedir…

Qəmbər Hüseynli 16 aprel 1916-cı ildə Gəncədə dəmirçi Məşədi Muxtarın ailəsində dünyaya göz açıb. 1927-ci ildə məktəbdə oxuya-oxuya Gəncə orta ixtisas musiqi məktəbinin tar sinfinə qəbul olunub. 1929-cu ildə isə təhsilini Gəncə Pedaqoji Texnikumunda davam edib. 1934-cü ildə tar sinfini fərqlənmə diplomu ilə bitirən Qəmbər pedaqoji kollektivin qərarı ilə Bakı Musiqi Texnikumunun violonçel sinfində təhsil almaq üçün Bakıya göndərilir. Burada iki il müddətində tanınmış pedaqoq A.S.Şvartsın violonçel sinfinə qəbul olunur.

Lakin Qəmbərin musiqiyə olan hədsiz marağı onu bir an belə, rahat buraxmır. Bu, müəllimlərinin də diqqətindən yayınmır. Onu bəstəkarlıq şöbəsinə keçirirlər. Gələcəyin bəstəkarı burada Q.Z.Buruşteynin sinfində təhsilini davam etdirir. Çox keçmir ki, Qəmbərin bəstəkarlıq qabiliyyəti də özünü göstərir. O, görkəmli dramaturq Cəfər Cabbarlının sözlərinə "Tellər oynadı" romans-mahnısını bəstələyir. Bununla da istedadlı bəstəkar olacağını təsdiqləyir.

1939-cu ildə Qəmbər Hüseynli milli musiqimizin beşiyi olan Şuşanın Musiqi Texnikumuna direktor vəzifəsinə göndərilir. Burada cəmi bir il çalışsa da, qısa müddətdə əhəmiyyətli işlər görür. Bir il sonra Qəmbər Hüseynlini yenidən Bakıya dəvət edirlər. O, filarmoniyanın nəzdində fəaliyyət göstərən Azərbaycan Xalq Çalğı Alətləri Orkestrində dirijor köməkçisi vəzifəsində çalışmaqla yanaşı, Üzeyir bəyin tövsiyəsi ilə həmin illərdə yaranan Sazçı Qızlar Ansamblının həm təşkilatçısı, həm də bədii rəhbəri işləyir.

Görkəmli bəstəkarın fəaliyyətində mahnı və romans yaradıcılığı mühüm yer tutur. O, "Ay işığında", "Gecələr uzanaydı", "İlk məhəbbət", "Düşür yadıma", "Gülə-gülə", "Sən-sən" kimi əsərlərin altına imza atır. Bəstəkarın "Tellər oynadı" romans-mahnısı uzun illərdir sevə-sevə dinlənilir. Ancaq onun mahnı çələngindəki öz təravətini hər zaman qoruyan, bütün dünyanı diyar-diyar dolaşan "Cücələrim" mahnısı yaradıcılığının vizit kartına çevrilmiş, Azərbaycan musiqisini beynəlxalq aləmdə tanıdan ən parlaq sənət incisi kimi tarixə düşmüşdür. Sənətşünasların yekdil rəyinə görə, indiyə kimi bu mahnı qədər öz müəllifini bütün dünyada tanıtdıran ikinci mahnı olmayıb. 1948-ci ildə şair Tofiq Mütəllibovla birgə ərsəyə gətirdikləri bu ölməz əsər, sadəcə, bir uşaq nəğməsi deyil, həm də yüzdən çox xalqın dilinə tərcümə olunaraq milyonlarla insanın qəlbinə yol tapan milli qürur mənbəyimizdir.

Tofiq Mütəllibov xatirələrində yazır: "Bir gün Qəmbər Hüseynli mənə zəng edib evlərinə dəvət etdi. "Cücələrim" mahnısının melodiyasını çaldı. Dedi ki, bu musiqiyə mətn yaza bilərsənmi? Razılıq verdim. Bir neçə gündən sonra mətn hazır oldu. Onunla birlikdə mətndə bir sıra dəyişikliklər etdik. Beləliklə, məşhur "Cücələrim" meydana gəldi. O, həmişə deyərdi: "Mən əminəm ki, "Cücələrim"in səyahəti böyük olacaq". Görkəmli bəstəkar sözlərində yanılmamışdı. Əgər o, ömrü boyu "Cücələrim" mahnısından başqa heç bir əsər yazmasaydı, yenə də musiqi tarixində layiqli yer tutacaqdı. Bir əsərlə dünyada məşhurlaşmaq hər sənətkara nəsib olmur. Qəmbər Hüseynli "Cücələrim" mahnısı ilə sağlığında özünə abidə ucaltdı".

Hətta dahi Çarli Çaplin belə fransalı qonaqların Azərbaycandan gəldiyini eşidəndə piano arxasına keçib bu melodiyanı ifa etmiş və "Məndən o bəxtəvər bəstəkara salam yetirin" demişdi. Yeri gəlmişkən, Sovet "multfilm" sənayesinin şedevrlərindən olan "Nu, poqodi!" silsilə cizgi filminin məşhur seriyalarından birində də məhz bu mahnı doğma dilimizə səsləndirilərək bütün SSRİ-ni fəth etmişdi.

Qeyd edək ki, 1950-ci illərin sonundan etibarən Çində bu mahnı "Mənim kiçik cücələrim" adı ilə geniş yayılıb. Çin dilinə tərcümə olunub və hətta bu ölkənin musiqi dərsliklərinə də daxil edilib. Tez-tez Çin televiziyalarında və qala-konsertlərdə uşaqların ifasında eşidilir. Kolumbiyada isə "Cücələrim" bir dövr uşaq bağçalarında və ibtidai məktəblərdə musiqi dərslərinə salınmışdı.

Mahnı ispan dilinə "Mis Pollitos" (mənim cücələrim) adıyla tərcümə olunub. Maraqlısı odur ki, Kolumbiyada bu mahnı o qədər məşhurlaşıb ki, bəzi bölgələrdə insanlar onun məhz öz xalq mahnıları olduğunu düşünürlər. Melodiyanın sadəliyi və ritmi Latın Amerikası musiqi ruhuna çox yaxın olduğu üçün orada hələ də uşaq şənliklərində səsləndirilir.

Lakin Qəmbər Hüseynlinin taleyi "Cücələrim" qədər şən və qayğısız olmayıb. Jurnalist Müsəllim Həsənovun arxiv sənədlərinə istinadən apardığı araşdırmalar bəstəkarın həyatındakı qaranlıq səhifəyə işıq salır. Uzun illər dolaşan şayiələrin əksinə, sənətkarın həbsi məşhur "Cücələrim" mahnısı ilə deyil, İkinci Dünya müharibəsinin başladığı dövrlə bağlıdır. Çoxları elə bilir ki, o, bu mahnıya görə həbs edilib, amma həqiqət tam başqadır.

Arxiv sənədləri və bəstəkarın dahi sənətkar Üzeyir Hacıbəyliyə ünvanladığı məktublar sübut edir ki, o, 1941-ci ilin dekabrında, müharibənin ən ağır dövründə həbs olunub. Həbsin əsl səbəbi isə nə siyasi baxışlar, nə də yaradıcılıqla əlaqəlidir – hərbi çağırışdan yayınmadır. Bəstəkar öz məktubunda bu hadisəni "qorxaqlıq ucundan törədilmiş bir cinayət" kimi səmimi şəkildə etiraf edib. Məhz bu xətasına görə 3 il 8 ay məhbus həyatı yaşayıb.

1945-ci ildə ümumi əfv fərmanı ilə azadlığa çıxan sənətkar üçün çətin günlər bununla bitməyib. Keçmiş məhkumluğu səbəbindən uzun müddət işsiz qalıb, radio və konsert proqramlarından kənarda saxlanılıb. Yalnız 1947-ci ildə Üzeyir bəyə yazdığı o məşhur məktubdan sonra ustadın himayədarlığı ilə yenidən sənətə qayıdıb. Maraqlıdır ki, xalq arasında həbsinə səbəb kimi göstərilən Cücələrim mahnısı bəstəkar azadlığa çıxdıqdan illər sonra – 1949-cu ildə yazılıb və qısa zamanda 148 dilə tərcümə olunaraq ona dünya şöhrəti qazandırıb.

O, cəmi 45 il ömür sürdü. Yaradıcılığının ən məhsuldar çağında, 1961-ci ilin iyulunda bu işıqlı dünyaya əlvida dedi. Lakin bu gün Gəncənin mərkəzində ucalan heykəli, dünyanın dörd bir yanında əks-səda doğuran "Cücələrim" nəğməsi və hər birimizin qəlbində iz qoyan o səmimi təbəssümü ilə Qəmbər Hüseynli hələ də bizimlədir. Ruhun şad olsun, nəğməkar sənətkar! Sənin "Cücələrin" hələ çox nəsilləri musiqinin sehri ilə böyüdəcək, Azərbaycanın səsini sərhədlərdən uzaqlara daşıyacaq.

***Elenora HƏSƏNOVA***
***XQ***

*Təqdimat*

# Qarabağ zəfəri "Bayatı-Araz"da



**Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda tanınmış nasir, AYB-nin üzvü Etibar Muradxanlının "Bayatı-Araz" kitabının təqdimatı keçirilib. Mərasimdə tanınmış aydınlar, ədəbiyyat və mədəniyyət xadimləri, Vətən müharibəsi iştirakçıları, media və QHT nümayəndələri, eləcə də oxucular iştirak ediblər.**

AYB-nin Bədii tərcümə və ədəbi əlaqələr mərkəzinin rəhbəri Əsəd Cahangir Etibar Muradxanlının yaradıcılığı barədə geniş məlumat verib, müəllifin Qarabağ mövzusunda qələmə aldığı əsərlərdən bəhs edib. Qeyd olunub ki, sənədlərə və faktlara əsaslanaraq yazılan roman əsgər və zabitlərimizin vətənpərvərlik ruhunu, qəhrəmanlıq salnaməsini əks etdirir. Əsərdə cəbhənin güney istiqamətində aparılan döyüş əməliyyatları, ordumuzun, sərhəd qoşunlarımızın keçdiyi şərəfli döyüş yolu, eləcə də Ali Baş Komandanın sərkərdəlik məharəti dolğun şəkildə təsvir olunub.

Bildirilib ki, "Bayatı-Araz" müəllifin Qarabağ müharibəsinə həsr olunmuş silsilə əsərlərinin davamıdır. Etibar Muradxanlı bundan öncə "Siz müharibədəsiniz, leytenant", "Tələbə taqımı" və "İlin beşinci fəsli" kimi əsərlərlə də bu mövzuya müraciət edib. Aparıcı Qarabağ müharibəsi şəhidi, müəllifin qardaşı oğlu, baş leytenant Əliqismət Yaqublunun şərəfli həyat yoluna da toxunub. Qeyd olunub ki, Etibar Muradxanlının ata-baba ocağından Vətən müharibəsində iştirak edən çoxsaylı oğullar olub. Bu baxımdan müəllif həm yazıçı kimi, həm də xalqımıza Zəfər qazandıran oğulların doğması olaraq müharibədən yazmağa və danışmağa mənəvi haqqı var.

Atatürk Mərkəzinin rəhbəri, AMEA-nın həqiqi üzvü Nizami Cəfərov, AYB katibləri – Elçin Hüseynbəyli və İlqar Fəhmi, Əməkdar jurnalist Nadir İsmayılov, eləcə də yazıçı və şairlər – Əli Rza Xələfli, Ağacəfər Həsənli, Arzu Nehrəmli, İlqar Türkoğlu, Ayaz Arabaçı, Qabil Nəbi, Qəni Camalzadə, Gəray Göyyurd, Güləmail Murad, Şəfəq Sahibli, Nüşabə Məmmədli və başqaları çıxış edərək müəllifin yaradıcılığını yüksək qiymətləndiriblər. Onlar Etibar Muradxanlının vətənpərvərlik ruhunda qələmə aldığı əsərlərin xüsusilə gənc nəslin tərbiyəsində mühüm rol oynadığını vurğulayıblar.

Qazaxıstandan gəlmiş şair-tərcüməçi, DGTYB Məsləhət Şurasının üzvü Sayat Kamşıger də ürək sözlərini söyləyib və Etibar Muradxanlıya qazax çapanı bağışlayıb.

Polkovnik Himayət Qubadov, əsərin canlı qəhrəmanları – gizir Mirzə Ağayev və




Cavidan Şərifov da çıxış edərək döyüş xatirələrini bölüşüb, müəllifə təşəkkürlərini bildiriblər. Sonda Etibar Muradxanlı xoş sözlərə görə minnətdarlığını ifadə edib, oxucular üçün kitablarını imzalayıb.

Qeyd edək ki, "Bayatı-Araz" sənədli romanı bu ilin fevralında "Apastrof-A" nəşriyyatında nəfis tərtibatla çap olunub.

***XQ***

*Kino tariximiz*

# Son səssiz və ilk səsli filmlər



**Bakıda anadan olmuş rus rejissor və ssenarist Aleksandr Litvinovun ekranlaşdırdığı "Müxtəlif sahillərdə" tammetrajlı səssiz bədii filminin bu il 100 yaşı tamam olur. "Azərkino"da istehsal edilən və ilk tamaşası həmin ilin aprelində göstərilən bu tarixi ekran əsərində Mirzəağa Əliyev, Mustafa Mərdanov, Mikayıl Mikayılov və başqaları çəkiliblər.**

Detektiv dram elementləri ilə zəngin bu filmin digər adı "Əlbəyaxa"dır. Əsas süjet xətti neft mədənlərində gərgin əməklə məşğul olan fəhlə və mühəndislərlə onlara qarşı çıxan qüvvələrin konflikti ətrafında qurulub. Sovet hakimiyyətinin ilk illərində Azərbaycanda fəhlə sinfinin neft sənayesinin inkişafı uğrunda gördüyü işlərdən söhbət açılır.

...Oktyabr çevrilişi nəticəsində dağıdılmış təsərrüfatı bərpa etmək üçün Bakıya Amerikadan mütəxəssislər dəvət olunurlar. Onların bəzisi tapşırılan işi qəsdən yerinə yetirmir. Bunu görən yerli mütəxəssislər özləri mədənlərdə qayda yaratmağa çalışırlar. Beləliklə, münaqişə yaranır və getdikcə kəskin şəkil alır. Məhz bu qarşıdurma filmin əsasını təşkil edir. Paralel olaraq, Amerikada işdən çıxaraq gəlib Bakıda işləyən neftçi Dik Tikstonla okeanın o üzündə qalmış nişanlısı Editin sevgi tarixçəsi kinolentə lirik ton qatır.

Amerikalı fəhlə rolunu canlandıran Mirzəağa Əliyev bu filmə qədər "Arşın mal alan" (ilk variant) və "Bismillah" adlı ekran əsərlərində çəkilmişdi. Məhz onun sənətkarlığı sayəsində "Müxtəlif sahillərdə" filmi daha dolğun təsir bağışlayıb. Təəssüf ki, dəyərli film günümüzə qədər gəlib çıxmayıb...

Bu il çəkilməsindən 95 il ötən "Nikita İvanoviç və sosializm" tammetrajlı bədii filmi də "Azərkino"nun məhsuludur və Bakıda neft sənayesi bumundan fərqli olaraq, Rusiyada kollektivləşən kənd təsərrüfatına, qolçomaqlara qarşı mübarizəyə həsr edilib. Digər adları "Rusiya məhv oldu" və "Yer üzündə insanlar" olan filmin quruluşunu Aleksandr Makovski verib. Aktyor heyəti arasında heç bir azərbaycanlı yoxdur.

Azərbaycan kinosunda sonuncu səssiz iş olan, Cəfər Cabbarlının eyniadlı pyesi əsasında lentə alınmış "Almaz" (1936) ekran əsəri isə bu baxımdan fərqli əhəmiyyət kəsb edir. Filmin rejissorları Ağarza Quliyev və Qriqori Braginski, operatorları Əsgər İsmayılov və İvan Frolovdur. Hadisələri bəstəkarlar Zülfüqar Hacıbəyov və oğlu Niyazinin musiqiləri müşayiət edir. Bu filmdə bütün aktyor heyəti soydaşlarımızdan ibarətdir. Baş rollarda İzzət Oruczadə, Hökumə Qurbanova, Xeyri Əmirzadə, Əlisəttar Məlikov, Ələkbər Hüseynzadə və İsmayıl Hidayətzadə oynayıblar. Mirzəağa Əliyev, Ələsgər Ələkbərov, Əhməd Qəmərlinski, Rza Təhmasib və başqaları da filmdə rol alıblar.

Bir əsr əvvəlki dövrdə kollektivləşmə ilə əlaqədar sinfi mübarizə və ucqar dağ kəndində işləməyə gəlmiş gənc müəllim Almazın burada qarşılaşdığı çətinliklər, şər-böhtan filmdəki həyat təzadlarının nüvəsini təşkil edir. Almaz min bir əzabla məktəbdə fəaliyyətə başlayır, sınaqlara sinə gərir. Onun keşməkeşli həyat yolu filmin əsas süjet xəttini təşkil edir. Yeni quruluşu və təhsili qətiyyətlə müdafiə edən Almaz obrazını İzzət Oruczadə məharətlə oynayır.

Qeyd edək ki, böyük dramaturq Cəfər Cabbarlı özü filmə quruluş verməli imiş. O, hətta ekran əsərinin bütün hazırlıq işlərini də görüb başa çatdırmışdı. Lakin qəfil ölümü bu işi yarımçıq qoyub. Dostları isə ona vəfa borcu olaraq "Almaz"ı tam ərsəyə gətiriblər və film C.Cabbarlının vəfatının 2-ci ildönümü münasibətilə ilk dəfə ekranlara buraxılıb. 2019-cu ildə Nazirlər Kabinetinin qərarı ilə "Almaz" ölkəmizdə dövlət varidatı elan edilmiş filmlərin siyahısına salınıb.

Daha bir yubilyar film "Səbuhi"dir. 1941-ci ildə tarixi-bioqrafik janrda çəkilib və böyük maarifçi, dramaturq, filosof Mirzə Fətəli Axundova həsr olunub. Filmdə onun xalqına olan sevgisi, sədaqəti, eyni zamanda, dövrünün qabaqcıl ideyaları uğrunda mübarizəsi öz əksini tapıb. Yazıçı Mikayıl Rəfilinin ssenarisi əsasında çəkilən filmə görkəmli rejissor Rza Təhmasib Amo Bek-Nəzərovla birlikdə quruluş verib. Operatorlar isə Dmitri Felman və Əsgər İsmayılov olublar. 85 yaşlı bu film həm də bəstəkar Tofiq Quliyevin ilk kino işidir.

Məlum olduğu kimi, Azərbaycan ədəbiyyatında azad düşüncə tərzinin ən böyük nümayəndəsi Axundov bədii yaradıcılığına "Səbuhi" təxəllüsü ilə şeirlər yazmaqla başlayıb. Səbuhi sübh sözündəndir, sübhə məxsus olan, səhər adamı deməkdir. O, İslam dünyasının ictimai, sosial və siyasi sahələrində radikal islahatların zəruriliyi fikrini müdafiə edib. "Səbuhi" filmində gənc Mirzə Fətəli öz xalqının sədaqətli oğlu, dövrünün qabaqcıl ideyaları uğrunda alovlu mübariz kimi göstərilib.

Tanınmış kinoşünas-jurnalist Aydın Kazımzadə yazır ki, filmdə qəhrəmanın həyatı və fəaliyyəti ilə bağlı çoxlu faktlardan istifadə olunub: "Onun 1834-cü ildə Tiflisə gəlməsi, ozamankı Cənubi Qafqazın qabaqcıl adamları və sürgündə olan rus dekabristləri ilə yaxınlaşması, Qafqaz canişininin baş dəftərxanasında mülki işlər sahəsində Şərq dilləri mütərcimi vəzifəsində çalışması, mütərəqqi rus və Qərbi Avropa ədəbiyyatını, ictimai-fəlsəfi fikrini öyrənməsi, evlənməsi, ərəb əlifbasının latın qrafikası ilə əvəz olunması üçün mübarizə aparması və s. hadisələr ekranda öz əksini tapmışdır".

Ekran əsərində Səbuhi rolunu İsmayıl Dağıstanlı, onun həyat yoldaşı Tubu xanımı Leyla Bədirbəyli, Abbasqulu ağa Bakıxanovu Ağadadaş Qurbanov, Mirzə Şəfini Ələsgər Şərifov, Vanonu Möhsün Sənani, Rzanı İsmayıl Əfəndiyev, Şeyx Əlini Kazım Ziya, akademiya rəisini Mustafa Mərdanov yaradıblar. Filmdə Aşıq Səttarın mahnılarını Zülfi Adıgözəlov oxuyub.

Bu da bir faktdır ki, İkinci Dünya müharibəsi dövründə belə bir film çəkmək çətin idi. Çünki, əsasən, hərbi-vətənpərvərlik mövzusuna üstünlük verilirdi. Üstəlik də, "Səbuhi"nin ssenarisi qəbul üçün müzakirə olunanda ciddi mübahisələr yaranıb və bəzi düzəlişlər edilib. Məsələn, M.F.Axundovun Bestujev-Marlinski və Tiflisdə sürgündə olan başqa dekabristlərlə olan görüş səhnələrinin artırılması, onun formalaşmasında rus ziyalılarının təsirinin aydın göstərilməsi xüsusi cidd-cəhdlə filmin müəlliflərinə tapşırılıb. Mikayıl Rəfili bunu könülsüz qəbul etsə də, amiranə şəkildə tövsiyə olunan səhnələrin filmdə çox yığcam şəkildə göstərilməsi gözdən qaçmır. Böyük milli ziyalımız olan Rza Təhmasib də cavabdehlik daşıdığı filmin yüksək səviyyədə alınması üçün xeyli əziyyət çəkib.

Nəhayət, qeyd edək ki, "Almaz" kimi, "Səbuhi" ekran əsəri də ölkəmizdə dövlət varidatı elan olunmuş filmlərdəndir.

***Ə.DOSTƏLİ***
***XQ***


Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Azərbaycan Memarlıq və İnşaat Universiteti**

*aşağıdakı vəzifələri tutmaq üçün*

**MÜSABİQƏ ELAN EDİR**

| № | Kafedranın adı | Vəzifə |
|---|---|---|
| 1. | Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrası | kafedra müdiri – 1 yer<br>baş müəllim 0,5 ştat – 1 yer |
| 2. | Memarlıq layihələndirilməsi və şəhərsalma kafedrası | baş müəllim – 2 yer |
| 3. | Memarlığın əsasları kafedrası | baş müəllim – 1 yer |
| 4. | İnşaat konstruksiyaları kafedrası | baş müəllim – 1 yer |
| 5. | Tikinti istehsalatının texnologiyası, təşkili və idarə olunması kafedrası | baş müəllim – 2 yer<br>baş müəllim – 0,5 ştat – 1 yer |
| 6. | Bina və qurğuların istismarı və rekonstruksiyası kafedrası | dosent – 1 yer |
| 7. | Materialşünaslıq kafedrası | baş müəllim – 1 yer |
| 8. | Mexanika kafedrası | dosent – 1 yer<br>dosent 0,5 ştat – 1 yer |
| 9. | İctimai fənlər kafedrası | dosent – 2 yer |
| 10. | Meliorasiya və su təsərrüfatı tikintisi kafedrası | dosent – 1 yer<br>baş müəllim – 1 yer |
| 11. | Mühəndis sistemləri və qurğuların tikintisi kafedrası | dosent – 1 yer |
| 12. | Ali riyaziyyat kafedrası | professor – 0,5 ştat – 1 yer |
| 13. | Ekologiya kafedrası | baş müəllim – 1 yer |
| 14. | Geomatika kafedrası | dosent 0,5 ştat – 1 yer<br>baş müəllim – 2 yer<br>assistent – 0,5 ştat - 1 yer |
| 15. | Fizika və Kimya kafedrası | professor 0,5 ştat – 1 yer<br>dosent – 3 yer |
| 16. | Mühit dizaynı kafedrası | baş müəllim - 1 yer |
| 17. | Təsviri incəsənət kafedrası | kafedra müdiri – 1 yer<br>baş müəllim – 2 yer |
| 18. | Sənayenin təşkili və idarə edilməsi kafedrası | dosent – 1 yer<br>müəllim – 1 yer |
| 19. | Biznesin iqtisadiyyatı və menecment kafedrası | kafedra müdiri – 1 yer<br>professor – 0,5 ştat - 1 yer<br>dosent - 2 yer<br>baş müəllim – 1 yer<br>baş müəllim 0,5 ştat – 1 yer |
| 20. | İqtisadi nəzəriyyə və menecment kafedrası | dosent – 1 yer |
| 21. | Əcnəbi dillər kafedrası | baş müəllim – 5 yer |
| 22. | İnformasiya texnologiyaları və sistemləri kafedrası | baş müəllim – 1 yer<br>assistent – 2 yer |
| 23. | Tərsimi həndəsə və mühəndis qrafikası kafedrası | dosent - 1 yer<br>baş müəllim – 1 yer |
| 24. | Azərbaycan dili və pedaqogika kafedrası | professor 0,5 ştat - 1 yer<br>baş müəllim – 2 yer |
| 25. | Əqli mülkiyyət kafedrası | baş müəllim 0,5 ştat - 1 yer |

**Müsabiqədə iştirak etmək üçün sənədlər mövcud Əsasnaməyə uyğun olaraq, bu elan dərc olunduğu gündən 1 ay müddətinə qəbul edilir.**

***Ünvan*: AZ 1073, Bakı şəhəri, Ayna Sultanova küçəsi 11, AzMİU.**

***Rektorluq***


*Qərbi Azərbaycana Qayıdış*

# Borçalıda Ağbaba həsrəti

**Qərbi Azərbaycandan zorla köçürülmüş yüz minlərlə azərbaycanlı hələ də doğma torpaqlarına qayıtmaq arzusu ilə yaşayır. Vaxtilə ata-baba torpaqlarını tərk etməyə məcbur edilmiş Ağbaba mahalının Öysüzlü kəndindən olan İlham və Rövşən Əhmədov qardaşları da illərdir bu həsrətlə yaşayırlar.**



Bu qardaşlar Qərbi Azərbaycandan azərbaycanlıların deportasiyası zamanı öz doğma kəndlərini, demək olar ki, ən sonda tərk edən ailələrdən olublar. Əhmədovlar ailəsi əvvəlcə Azərbaycanda məskunlaşıb, sonralar isə doğma yurdlarına daha yaxın olmaq üçün Gürcüstanın Marneuli rayonunun İmircala kəndinə köçərək burada özlərinə yeni yurd-yuva qurublar.

Axır uzun illərdən sonra bütün çətinliklərə baxmayaraq, Vətən və yurd həsrəti onları doğma kəndlərinə — Ermənistan ərazisinə getməyə vadar edib. Əhmədov qardaşları Gürcüstanın Ermənistanla sərhədindəki Sadaxlı gömrük-keçid məntəqəsindən keçərək Amasiya rayonunda yerləşən ata-baba torpaqlarını ziyarət etməyə nail olublar. Doğma kəndlərinə qayıdan qardaşlar üçün bu səfər ağır olub. Uşaqlıqlarının keçdiyi, hər daşında-divarında xatirələri yaşayan evlərinin sökülüb dağıdıldığını görmək onlar üçün təsirli olub. Lakin kənd qəbiristanlığı və ocaq yerlərinin hələ də yerində qaldığını görərkən bir qədər təsəlli tapıblar.

İlham və Rövşən Əhmədovlar ailələri ilə birgə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Qərbi Azərbaycan məsələsini beynəlxalq müstəviyə daşıdığına və soydaşlarımızın hüquqlarının müdafiəsini ali dövlət siyasəti səviyyəsinə qaldırdığına görə dərin minnətdarlıqlarını bildiriblər.

Onlar vurğulayıblar ki, məhz Azərbaycanın Prezidentinin qətiyyətli mövqeyi və "Qərbi Azərbaycana Qayıdış" konsepsiyası bütün qaçqın düşmüş soydaşlarımızda, o cümlədən Əhmədov qardaşlarında doğma yurd yerlərinə bir gün mütləq və əbədi qayıdacaqlarına böyük ümid və inam hissi yaradıb.

Əhmədov qardaşları indi reallaşdırdıqları bu ziyarəti, sadəcə, keçmişə səyahət deyil, gələcəkdə həyata keçiriləcək böyük qayıdışa mənəvi hazırlıq hesab edirlər...

***Nəriman ƏLİYEV***


**ODLAR YURDU UNİVERSİTETİ**

İnformasiya texnologiyaları və kibertəhlükəsizlik kafedrasında kafedra müdiri vəzifəsinə

**VAKANSİYA ELAN EDİR**

**Namizədə tələblər:**

Profilə uyğun ali təhsil, elmi dərəcə və elmi ad.

Ali təhsil müəssisəsində minimum 5 il elmi-pedaqoji təcrübə.

Rəhbər vəzifədə iş təcrübəsi.

Elmi nəşrlərin və tədqiqat işlərinin mövcudluğu.

Yüksək təşkilatçılıq və liderlik bacarıqları.

**Tələb olunan sənədlər:**

Şəxsiyyət vəsiqəsinin surəti.

Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.

Elmi və elmi-metodiki işlərin siyahısı.

Kadrlar uçotunun şəxsi vərəqəsi.

CV (tərcümeyi-hal).

**Müraciət qaydası:**

Namizədlər sənədlərini Odlar Yurdu Universitetinin rektorunun adına yazılmış ərizə ilə birlikdə info@oyu.edu.az elektron poçt ünvanına göndərə və ya universitetin inzibati binasında (Bakı, Koroğlu Rəhimov küçəsi 13) insan resursları departamentinə təqdim edə bilərlər.

**Son müraciət tarixi** 30 aprel 2026-cı ildir.


***Beynəlxalq həyat***

# Vaşinqtondan Tehrana sülh şərtləri

*ABŞ İranı nüvə proqramından imtina qarşılığında iqtisadi əməkdaşlığa çağırır*

**Yaxın Şərqdə ABŞ–İran qarşıdurması diplomatik mesajlar, hərbi ritorika və iqtisadi risklərin paralel artdığı mərhələdədir. Beynəlxalq media Vaşinqtonun Tehrana şərtli razılaşma təkliflərini və danışıqların davam etdirilməsi niyyətini ön plana çıxarır. Bununla yanaşı, bölgədə hərbi təzyiq, blokada iddiaları və qarşılıqlı ittihamlar gərginliyin hələ də yüksək səviyyədə qaldığını göstərir.**

**"BBC":** ABŞ İrana nüvə silahının hazırlanmasından qeyd-şərtsiz imtina müqabilində qlobal iqtisadiyyatın bir hissəsi olmaq şansı təklif edir. ABŞ-ın Vitse-prezidenti Ceymis Devid Vens bunu Corcia ştatında universitetdə keçirilən forumda çıxışı zamanı bildirib: "Biz danışıqları davam etdirmək və bu planı həyata keçirmək üçün çalışmaq niyyətindəyik, çünki bu, dünya, ölkəmiz, hər kəs üçün gözəl nəticə olardı. Buna görə də mən bunu reallaşdırmaq üçün hər cür səy göstərəcəyəm". Onun sözlərinə görə, Vaşinqton Tehranla danışıqları davam etdirmək niyyətindədir və güman edir ki, İran tərəfi də bunda maraqlıdır.

**"Fox News":** ABŞ Prezidenti Donald Tramp İranla münaqişənin sona yaxınlaşdığını, lakin hələ bitmədiyini bildirib. Ağ Ev rəhbəri bu barədə "Fox News"a müsahibəsində deyib. Telekanal müsahibənin fraqmentlərini yayıb, tam versiyası isə daha sonra yayımlanacaq. Jurnalist Mariya Bartiromo daha əvvəl Trampın İran münaqişəsinin bitdiyini elan etdiyini bildirmişdi.

**"Reuters":** ABŞ Mərkəzi Komandanlığının rəhbəri Bred Kuper İranın limanlarının və sahilyanı ərazilərinin genişmiqyaslı blokadası sayəsində əslində onun dəniz ticarətini kəsdiklərini bəyan edib. Bu barədə komandanlığın "X"dəki rəsmi məlumatında deyilir: "İran limanlarının blokadası tam həyata keçirilib, ABŞ isə Yaxın Şərqdə dəniz üstünlüyünü qoruyub saxlayır".

**"Al Jazeera":** Beynəlxalq Valyuta Fondu (IMF) Yaxın Şərqdə müharibənin daha da kəskinləşməsi və neft bazarında davam edən pozuntular səbəbindən dünya iqtisadiyyatının tənəzzül həddinə çatacağını gözləyir. Fond qeyd edir ki, ən pis ssenaridə enerji bazarında təkrarlanan şoklar qlobal iqtisadi artımı cari 3,1 faizdən 2 faizə qədər yavaşlada bilər. Bu halda neftin bir barelinin orta qiymətinin 2026-cı ildə 110 ABŞ dolları, 2027-ci ildə isə 125 ABŞ dolları təşkil edəcəyi ehtimal olunur. Ən əlverişli ssenaridə münaqişənin qısamüddətli olacağı, 2026-cı ilin II yarısında neft qiymətlərinin normallaşacağı və ilin yekunları üzrə bir barel neftin orta qiymətinin təxminən 82 ABŞ dolları olacağı gözlənilir.

**"Associated Press":** ABŞ və İran arasında mümkün sazişə Tehranın nüvə proqramının yoxlanılması üzrə ətraflı tədbirlər daxil edilməlidir. Bunu Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin (MAGATE) rəhbəri Rafael Qrossi jurnalistlərə açıqlamasında deyib: "İranın genişmiqyaslı və iddialı nüvə proqramı var, ona görə də bizim müfəttişlərin iştirakı tələb olunacaq. Əks halda, münaqişə tərəflərində saziş olmayacaq, bu, yalnız saziş illüziyası olacaq".

**"Xinhua":** Çin Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Lin Tszyan Pekinin İrana hərbi dəstək göstərməsi barədə məlumatı təkzib edib. O, bu barədə "X" sosial şəbəkəsindəki rəsmi səhifəsində yazıb: "Çini İrana hərbi dəstək göstərməkdə ittiham edən media xəbərləri sırf uydurmadır. Əgər ABŞ bu ittihamlar əsasında Çinə qarşı tarifləri artırmağa davam edərsə, Çin əks tədbirlərlə cavab verəcək". O əlavə edib ki, nüvə texnologiyaları sahəsində istənilən razılaşmalar ətraflı yoxlama mexanizmlərini tələb edir.



**"Anadolu Agentliyi":** Türkiyə ABŞ-İran müharibəsi fonunda əldə olunan atəşkəsin uzadılması üçün təklif və təşəbbüslər irəli sürür. Bunu hakim Türkiyə Böyük Millət Məclisi (TBMM) qrup toplantısında çıxış edən Prezident Rəcəb Tayyib Ərdoğan deyib. Onun sözlərinə görə, Pakistanın ev sahibliyi ilə baş tutan ABŞ-İran danışıqlarında gözlənilən nəticə əldə edilməyib, Hörmüz boğazında gərginlik daha da artıb. R.T.Ərdoğan əlavə edib ki, İkinci Dünya müharibəsinin qalibləri tərəfindən qurulan qlobal sistem dağılır.

**"Times of Israel":** İsrailin Xarici İşlər Nazirliyi (XİN) BMT-nin Baş katibi Antonio Quterreşi Livanla sülhün əldə olunması istiqamətində səyləri dəstəkləməyə çağırıb. İsrail XİN-in bəyanatında qeyd olunub ki, suveren BMT üzvü olan dövlətin terror təşkilatı ilə eyniləşdirilməsi BMT Baş katibinin uğursuzluğunun daha bir sübutudur.

**"Mehr":** İranın nüvə proqramının ABŞ silahlı qüvvələri tərəfindən məhv edilməsi barədə məlumat həqiqətə uyğun deyil. Bunu İran Xarici İşlər Nazirliyinin rəsmisi İsmayıl Bəqai bildirib. O vurğulayıb ki, Tehran ABŞ-ın İranın nüvə proqramının yaratdığı təhlükə ilə bağlı bütün bəyanatlarını ölkəyə təzyiq göstərmək üçün bəhanə kimi qiymətləndirir. Həmçinin deyib ki, İran öz nüvə proqramından imtina etmək niyyətində deyil.

**"The Washington Post":** ABŞ Prezidenti Donald Tramp Hörmüz boğazının blokadadan çıxarıldığını bəyan edib. O, bu barədə "Truth Social"da yazıb. "Çin mənim Hörmüz boğazını həmişəlik açmağımdan çox məmnundur. Mən bunu həm onlar, həm də bütün dünya üçün edirəm", - o yazıb. Tramp əlavə edib ki, yaxın həftələrdə Çində səmimi qarşılanmaya ümid edir.

***Hazırladı:***
***N.BEYDİYEVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 64 (31033) 16 aprel 2026-cı il, cümə axşamı

## İDMAN

### Avropa Atletikasının Bakı konfransı

**Dünən Bakıda Avropa Atletikasına üzv federasiyaların rəhbər şəxslərinin konfransı başlayıb. Açılış mərasimində Avropa Atletikasının prezidenti Dobromir Karamarinov Azərbaycan Atletika Federasiyasını fəal tərəfdaş kimi qiymətləndirərək yüksək təşkilatçılığa görə təşəkkürünü bildirib.**



Gənclər və idman naziri Fərid Qayıbov bu cür tədbirlərin ümumi inkişaf yolunda mühüm əhəmiyyətə malik olduğunu vurğulayıb. Mərasim iştirakçılarını Bakıda görməkdən məmnun olduğunu qeyd edən Azərbaycan Atletika Federasiyasının prezidenti Cavid Qurbanov konfransın işinə uğurlar arzulayıb.

Açılış mərasimindən sonra Avropa Atletikasının CEO-su Kristian Milsin qurumun strateji yol xəritəsinin yenilənməsi, azarkeşlərin cəlb olunması və rəqəmsallaşma ilə bağlı yeni layihələrə dair təqdimatı baş tutub.

Ardınca Sloveniya, İspaniya və Danimarkadan olan nümayəndələr Avropa Atletikasının strateji yol xəritəsinin üzv federasiyalarda tətbiqi ilə bağlı çıxışlar ediblər.

Daha sonra liderlər üçün etika üzrə idarəetmə sessiyasında yarış manipulyasiyası, təhlükəsizlik və maraqlar toqquşmasının idarə olunması, həmçinin üzv federasiyalar üçün effektiv rəqəmsal transformasiya və data əsaslı monetizasiya strategiyaları müzakirə olunub.

Qeyd edək ki, 32 ölkədən 50 nümayəndənin qatıldığı konfransa bu gün yekun vurulacaq.

### Güləşçilərimiz “Zəfər kuboku”nda 2-ci oldu

**Türkiyənin Antalya şəhərində təşkil edilən güləş üzrə “Zəfər kuboku” başa çatıb.**




Ənənəvi turnirin son günündə 5 güləşçimiz fəxri kürsüyə qalxıb.

Sərbəst güləşdə Nihad Süleymanlı (80 kq) və Hakim Tağıyev (110 kq) bütün rəqiblərinə qalib gələrək çempion olublar.

Yunan-Roma güləşində isə Zəka Yusubovla (80 kq) Məhəmməd Mustafayev (110 kq) eyni nəticəyə imza atıb. İsfahan Həsənov (80 kq) isə bürünc medala layiq görülüb.

Sərbəst güləş üzrə millimiz ənənəvi turniri 3 qızıl, 1 gümüş və 2 bürünc medalla tamamlayaraq, 147 xalla komanda hesabında 2-ci yeri tutub. Yunan-Roma güləşi üzrə yığmamız isə 5 qızıl, 2 gümüş və 2 bürünc medalla 169 xal toplayıb və ümumi sıralamada 2-ci pillədə yer alıb.

### UEFA Çempionlar Liqasında ilk yarımfinalçılar

**UEFA Çempionlar Liqasında yarımfinal mərhələsinin ilk iştirakçıları bəlli olub.**



1/4 final mərhələsinin cavab görüşlərində 2 qarşılaşma keçirilib. İspaniya klublarının duelində “Atletiko” öz meydanında “Barselona”ya məğlub olub – 1:2. Madrid təmsilçisi səfərdəki ilk matçda rəqibini 2:0 hesabı ilə məğlub etdiyi üçün yarım finala vəsiqə qazanıb.

Günün digər görüşündə isə “Liverpul”u İngiltərədə 2:0 hesabı ilə məğlub edən PSJ yarımfinala yüksəlib. Qeyd edək ki, Parisdəki ilk oyunda da Fransa təmsilçisi eyni hesabla qələbə qazanıb.

1/4 finalın daha 2 oyunu dünən axşam keçirilib. “Arsenal” İngiltərədə “Sportinq” komandası ilə üz-üzə gəlib. “Real” (Madrid) isə Almaniyada “Bavariya”nın qonağı olub.

*Qabil YUSİFOĞLU*
*XQ*

✓ ***Beyləqan rayon sakini Allahverdiyev Naməddin Qəşəm oğlunun adına olan “PP2F-1,6” markalı, 1992-ci il buraxılışlı, zavod nömrəsi 74193 olan ot bağlayan maşın üçün verilmiş texniki pasport itdiyinə görə etibarsız sayılır.***

*Ulu yurd yerlərimiz*

# Xəzər aynalı, dəniz qoxulu Şağan



**Uzaq tarixdən xəbər verən Şağan qəsəbəsi Abşeron yarımadasının ən qədim yaşayış məskənlərindən biridir. Həmsöhbətim şağanlı tarixçi-etnoqraf, Xəzər rayon “Ziyalılar” cəmiyyətinin sədri Təvəkkül Səlimov ilk olaraq qəsəbənin tarixi haqqında ətraflı məlumat verdi:**



– Arxeoloji qazıntıların nəticələrindən məlum olub ki, hələ eramızdan 3000 il əvvəl bu Şağanda əhali məskunlaşıb. Qəsəbə əhalisi tarixən türkdilli olub. Yaşayış məskəninin Banağan adlanan ərazisində tunc dövrünə aid müxtəlif qayaüstü təsvirlər, o cümlədən astral dünyabaxışını özündə ehtiva edən Günəş, Ay, yerin cəhətləri, kainat simvolları, təsərrüfat və məişət əşyalarının təsvirlərinin qeydə alınması bu həqiqəti təsdiqləməkdədir. XI-XII əsrlərdə kəndin həm əhalisi, həm də ərazisi xeyli genişlənib.

Ümumiyyətlə, Şağanı yer, məkan, coğrafi məfhum və ya toponim kimi bir çox alimlər tədqiq ediblər. Coğrafi məfhum kimi Şağan toponiminin bir neçə izah variantından ən çox həqiqətə uyğun gələn adın məhz etnotoponim olaraq Çağan oğuz eli ilə bağlılığıdır. Məlumat üçün bildirim ki, Şamaxıda 1-ci, 2-ci, 3-cü Çağan adda kəndlər var. Qərbi Azərbaycanda isə bir kənd “Şağankənd” adını daşıyır. Onu da qeyd edim ki, Qazaxıstanda “Şağan” adlı mətbu orqanı çap olunur.

Şağan 1933-cü ildə Mərdəkan kənd sovetinin tərkibinə daxil edilib. 1945-ci ildə ayrılsa da, 1948-ci ildə yenidən birləşdirilib. 1990-cı ildə isə qəsəbə statusu alıb. Milli Məclisin 26 iyul 1994-cü il tarixli Qərarı ilə Şağan Mərdəkan qəsəbəsindən ayrılaraq, şəhər tipli yaşayış məntəqələri siyahısına daxil edilmiş, ərazi vahidliyi yaradılıb.

Abşeronun digər sahilboyu kəndləri kimi, Şağanın şəhərsalma strukturu XII əsrin sonu, XIII əsrin əvvəllərində inşa edilib, hündürlüyü 23-24 metrə bərabər dördkünc bürclü qalanın təsiri altında formalaşıb. Burada məscid, pir, ovdan və digər abidələr vardır. Şağanda bir sıra dəyərli tarixi-memarlıq abidələri də qeydə alınıb. Tarixi 1320-1321-ci illərə aid olan qubala-türbəni (alban abidəsi), 1658-ci ildə inşa olunan piri, 1889-cu ildə tikilən məscidi, tarixi 1894-1895-ci illərə təsadüf edilən mədrəsəni, 1895-ci ildə Hacı Atababanın tikdirdiyi hamamı, kənd qəbiristanlığında olan dördsütunlu türbəni (1907), sayı 40 olan sərdabələri (amanat qəbirlər) qeyd etmək olar.

Qəsəbə, həmçinin dini, müdafiə, mülki və arxeoloji, həm də müxtəlif təyinatlı və maraqlı abidələrlə zəngindir. Eyni zamanda dini, müdafiə, mülki və arxeoloji abidələr mövcuddur. Şağanın “vizit kart”ı sayıla bilən dəyərli abidələrdən biri XIV əsrə aid ölkə əhəmiyyətli dairəvi müdafiə qalasıdır. Bu qalanın ətrafında müdafiə qalalarına xas, ətraf mühitlə birbaşa təmasda olan ənənəvi qalaətrafı daşhasar olub, lakin o sonrakı dövrlərdə dağılıb, izləri itib. Güman edilir ki, onun da birinci yarusunun döşəməsində və hasarın həyətində müvafiq sursat və ərzaq quyuları olub, lakin dağıntı zamanı onlar dolub.

Şağan qalası XII-XIII əsrlərdə tikilib. Abşerondakı digər qalalar kimi ağ daşdan tikilən qalanın hazırda 24 metr hündürlüyündəki bir bürcü salamat qalıb. Şirvanşahlar dövründə, XII əsrin sonu, XIII əsrin əvvəllərində müdafiə məqsədilə inşa edilən qalanın hazırkı hündürlüyü 16 metrdir. Əsrlər boyu qanlı toqquşmalarla, təbii fəlakətlərlə qarşılaşan qalaçanın çox hissəsi dağılsa da, bir bürcü dövrümüzə qədər qalıb. Abidənin dağılmasına əsas səbəb kimi 1841-ci ildə baş vermiş güclü zəlzələ göstərilir. Şağan qalası da Abşeronun digər qalaları kimi yeraltı yollara sahibdir. Qalanın içərisində ilk baxışda quyunu xatırladan yeraltı yol vaxtilə Mərdəkan qalalarına aparıb.

Qala qəsəbənin hündür yerində inşa edildiyi üçün üstündən dənizin sahilini və Mərdəkan qəsəbəsini müşahidə etmək mümkündür. 2001-ci ildə Şağan qalası digər Xəzəryanı müdafiə qurğuları ilə birlikdə UNESCO-nun Ehtiyat siyahısına daxil edilmişdir. Sevindirici haldır ki, qala turizm marşrutuna salınıb. Turistləri hər zaman burada görmək mümkündür.

İmam Müseyi-Kazım Məscidi yerli əhəmiyyətli abidə kimi dövlət tərəfindən qorunur. Üzərinə vurulmuş lövhədə onun inşaat tarixi göstərilməyib, lakin tikinti texnikası və plan quruluşuna görə o, XV-XVII əsrlərə aid olduğu güman edilir. Məscid keçən əsrin ortalarına qədər öz funksiyası üzrə fəaliyyət göstərmiş, lakin ciddi qəzalı vəziyyəti ilə əlaqədar dağılıb. 1970-ci ildə “Azərbaycanfilm” tərəfindən bu məscidin qalıqları arasında “Yeddi oğul istərəm” filminin müəyyən kadrlarının çəkilməsini yaşlı nəslin nümayəndələri indi də xatırlayırlar.

1990-1994-cü illərdə məscid, ölçü cizgilərinə və bərpa layihəsinə, həmçinin sökülməmiş əvvəlki divar qalıqlarına əsasən, abidə dövlət tərəfindən tam bərpa olunub. İnteryerdə dörd sütun yerləşir. Giriş tərəfdə olan arxa hissədəki sütunlarla üzüzə dayanan divarın yelkənvari örtüklə birləşdirilməsi nəticəsində qadınlar üçün ikinci yarus yaranıb və o, taxta şəbəkə ilə əsas ibadət zalından ayrılır. Məscidin divarları sal daşlardan tikilib. Günbəz də daşdan tikilib və qum-sement məhlulu ilə suvanıb. Museyi-Kazım məscidindən 1937-ci ildən 1994-cü ilə qədər anbar kimi istifadə olunub. Bundan sonra burada qəsəbə camaatının təşəbbüsü və vəsaiti hesabına rekonstruksiya işləri aparılıb. Bütün bunlara baxmayaraq, məscid öz ilkin formasını qoruyub saxlayıb.

Qubala və Sərdəbala türbələrinin də maraqlı tarixçəsi var. O zamanlar bu ərazidən karvanlar keçdiyindən yolda dünyasını dəyişənləri müvəqqəti bura qoyurlarmış. Mərhumları məzara üzü qibləyə deyil, əksinə, xəzri-gilavar küləyinin istiqamətində dəfn edirmişlər ki, yaxınları nə vaxtsa gəlib aparacaq. Məlumata görə, həmin məzarlardakı insanlar Kərbala, Nəcəf və başqa Şərq ölkələrinə gedən karvan yolçuları olub.

Abşeron yaşayış məntəqələri içərisində istər ərazisinə, istərsə də əhalisinin sayına görə, kiçik qəsəbələrdən olmasına baxmayaraq, buradan respublikamızın ictimai-siyasi, mədəni həyatında kifayət qədər əhəmiyyətli rol oynayan bir çox şəxsiyyətlər çıxıb. Bu şəxsiyyətlər sırasında ölkə həyatında xüsusi rol oynamış çoxsayda tanınmış insanlar var. Belə ki, Rusiya Dövlət Dumasının sabiq üzvü Məmmədyusif Cəfərov, akademik Hacıbəy Sultanov, SSRİ Xalq artisti Qəmər Almaszadə, şair Bəbir Məmmədzadə, bəstəkar, Əməkdar incəsənət xadimi Adil Gəray, Rusiya VI Dövlət Dumasının üzvü Məmmədyusif Cəfərov, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət nəzarəti naziri Heybətqulu Məmmədbəyli, Azərbaycanın ilk olimpiya mükafatçısı Rəşid Məmmədbəyov, musiqişünas, pedaqoq, tarzən və tədqiqatçısı Davud Məmmədbəyov, respublikanın Əməkdar artisti Hamlet Xanızadə, xanəndə, Əməkdar incəsənət xadimi Aqil Məlikov, təyyarəçilər Yarməmməd Əsədullayev, Tofiq Nəbiyev, Akif Cəbrayılov, ictimai və maarif xadimi, naşir Əlisgəndər Cəfərzadə, gəmi kapitanı SSRİ Ali Sovetinin deputatı Hacımurad Pənahov, Xalq artisti Bəhruz Zeynalov bu qəsəbənin yetirmələridir və adlarını şağanlılar fəxrlə çəkirlər.

Təvəkkül müəllim qədim Şağanın adət-ənənələrinə də toxundu. O, əvvəlki dövrlərdə üç növ toy mərasiminin keçirildiyini söylədi: “Birincisi, zurna-qaval, ikincisi aşıq toyları idi. Bir də dərviş toyları var idi. Dərviş toyları nisbətən az olardı. Son illər bu toylar dəbdədir. Hətta cavan adamlar da dərviş toyu edir. Halbuki, keçmişdə 45-50 yaşlı adamlar dərviş toyu ilə evlənərdi. Deyərdi ki, cavan deyiləm, mənə zurna-qaval toyu etmək yaraşmaz”.

Tarixçi-etnoqraf bir vaxtlar Bakı kəndlərində “at toyu” edilməsindən də bəhs etdi: “Kənd təsərrüfatı ilə məşğul olan adamlar üçün at ən yaxşı nəqliyyat vasitəsi idi. Kəndlinin atı öləndə camaat yığışıb onun evinə gedirdi. Qabaqcadan da xəbər verilirdi ki, yemək hazırlansın. Ev sahibi artıq söhbəti başa düşürdü. 20-30 adam gəlib pul verirdi və yığılan pulla at alınırdı. Buna da “at toyu” deyirdilər”.

Bu gün Bakı şəhərinin ətraf qəsəbələri kimi Şağan da tanınmaz dərəcədə dəyişib. Müasir təhsil sisteminin tələblərinə cavab verən 750 yerlik tam orta məktəb, uşaq bağçası əsaslı təmir olunub. Dörd qəsəbənin uşaqlarına tibbi xidmət göstərən uşaq ambulatoriyası, rayonda hələ ki, yeganə olan Şağan Olimpiya İdman Kompleksi, poçt, Mədəniyyət Mərkəzi, həmçinin məscid və digər ictimai-sosial binalar inşa edilərək qəsəbə sakinlərinin istifadəsinə verilib.

*Müşfiq MİRZƏ*
*XQ*

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

**dənizdə və quruda yükqaldırıcı, xilasedici, qəza takelajlarının və yedəkləmə avadanlıqlarının yoxlanılması, təmiri, testi və sertifikatlaşması xidmətlərinin satın alınması məqsədilə**

**AÇIQ TENDER ELAN EDİR**

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2026-cı il aprelin 30-u saat 14:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Əlaqə telefonu:** (012) 404-37-00, daxili: 1132.
**Ünvan:** Bakı, Mikayıl Useynov küçəsi 2.

“ŞƏRQ-QƏRB” ASC səhmdarlarının nəzərinə!

20 iyun 2026-cı il saat 11:00-da “Şərq-Qərb” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1) ASC-nin 2025-ci il üzrə illik və maliyyə hesabatlarının təsdiq edilməsi.**

**2) ASC-nin müfəttişinin növbəti müddətə təyin edilməsi.**

**3) ASC-nin 2025-ci il üzrə mənfəət və zərərinin bölüşdürülməsi, dividend.**

**4) Digər cari məsələlər.**

Ümumi yığıncağın gündəliyindəki məsələlərə aid materiallarla tanış olmaq üçün ASC-nin aşağıda qeyd olunan əlaqə nömrələri ilə əlaqə saxlanılması xahiş olunur.

Ümumi yığıncaqda bütün səhmdarların iştirakı vacibdir. Səhmdar ümumi yığıncaqda iştirak hüququnu bilavasitə özü və ya nümayəndəsi vasitəsilə həyata keçirir. Bu zaman səhmdarın nümayəndəsi qanunvericiliklə müəyyən edilmiş qaydada (notarial) tərtib edilmiş etibarnaməyə malik olmalıdır.

Yığıncaq ASC-nin Bakı şəhəri, Xətai rayonu, Aşıq Ələsgər küçəsi, 17 nömrəli ünvanda yerləşən inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonları:** (012) 374-75-62, (012) 374-73-84, (012) 374-83-43.

**“Şərq-Qərb” ASC-nin müşahidə şurası.**

## HAVA

### ...Yenə yağış yağacaq

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi yerlərdə az yağış yağacağı ehtimalı var. Cənub-qərb küləyi səhər şimal-şərq küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturu gecə 8-10, gündüz 15-18 dərəcə isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 50-60 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə qısamüddətli yağıntılı olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 5-9, gündüz 16-21 dərəcə isti, dağlarda gecə 5-10 dərəcə şaxta, gündüz 1 dərəcə şaxtadan 3 dərəcəyədək isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramova əzizi

**VİDADİ BAYRAMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin biologiya və onun tədrisi texnologiyası kafedrasının əməkdaşları kafedranın baş laborantı Sevinc Manafovaya həyat yoldaşı

**MÜŞFİQİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3128
SİFARİŞ 488
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00